RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 136 (10156) 1 avqust 2026-cı il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Dost, qardaş, müttəfiq



Qırğızıstanda dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyulun 31-də Çolpon-Ata şəhərində rəsmi qarşılanma mərasimi keçirilib.

Prezident İlham Əliyevin Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə təkbətək görüşü olub.

Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında imzalanmış sənədlərin iyulun 31-də Azərbaycan Prezidenti İlham Əliyevin və Qırğızıstan Prezidenti Sadır Japarovun iştirakı ilə mübadiləsi mərasimi olub.

Həmin gün Çolpon-Ata şəhərində Prezident İlham Əliyevin və Prezident Sadır Japarovun iştirakı ilə Azərbaycan və Qırğızıstan Dövlətlərarası Şuranın 3-cü iclası keçirilib.

Sonra Çolpon-Ata şəhərində Prezident Sadır Japarovun və birinci xanım Ayqul Japarovanın adından Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın şərəfinə dövlət ziyafəti verilib.

Daha sonra Azərbaycan və Qırğızıstan prezidentlərinin təltifolunma mərasimi keçirilib və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov mətbuata bəyanatlarla çıxış ediblər.

Qırğızıstanın Çolpon-Ata şəhərində Azərbaycanın və Mərkəzi Asiya ölkələrinin Dövlət Başçılarının qeyri-rəsmi görüşü keçirilib.

Qırğızıstanda, İssık-Kul gölünün sahilində beşulduzlu "Baku Resort & Spa" mehmanxanasının açılışı olub.

Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva iyulun 31-də Çolpon-Ata şəhərində Qırğız Respublikasının birinci xanımı Ayqul Japarova və Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva ilə birlikdə "Altın-Balalık" sağlamlıq və reabilitasiya mərkəzi ilə tanış olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qırğız Respublikasına dövlət səfəri iyulun 31-də başa çatıb.

2-5

## S.N.Japarovun "Heydər Əliyev" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Qırğız Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq, qardaşlıq və tərəfdaşlıq əlaqələrinin inkişafında xüsusi xidmətlərinə görə Qırğız Respublikasının Prezidenti Sadır Nurqojoyeviç Japarov "Heydər Əliyev" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 iyul 2026-cı il*

## Prezident İlham Əliyevin sosial şəbəkə hesablarında Qırğızıstana səfəri barədə videoçarx paylaşılıb



Prezident İlham Əliyevin sosial şəbəkə hesablarında Qırğız Respublikasına dövlət səfəri ilə bağlı videoçarx paylaşılıb.



## Azərbaycan aparıcı Avropa dövlətlərinin etibarlı tərəfdaşı statusundadır

İki ölkə arasında siyasi dialoqun yüksək səviyyədə olmasında dövlət başçılarının müdrik uzaqgörənliyi və aralarındakı səmimi, qarşılıqlı etimada söykənən şəxsi dostluq münasibətləri müstəsna rol oynayır. Serbiya Prezidenti Aleksandar Vuçiç hər zaman Prezident İlham Əliyevin liderlik keyfiyyətlərini, qlobal geosiyasi proseslərdəki uzaqgörənliyini və verdiyi sözə hər zaman sadiq olan etibarlı dövlət xadimi imicini yüksək qiymətləndirib. 2026-cı il fevralın 15-də Azərbaycan Prezidenti İlham Əliyevin Serbiyaya rəsmi səfəri tərəfdaşlığın yeni mərhələyə yüksəlməsinə zəmin yaradıb. Səfər çərçivəsində imzalanan mühüm sənədlər siyasi dialoqun, iqtisadi-ticarət əlaqələrinin, energetika və nəqliyyat sahələrində qarşılıqlı fəaliyyətin genişlənməsinə hüquqi zəmin bəxş edib. Prezident İlham Əliyevin müstəqil siyasət yürütmək bacarığı və milli maraqları qətiyyətlə qoruması təkcə regionda deyil, Avropada da böyük rəğbətlə qarşılanır.

Serbiya ilə münasibətlərin praktiki müstəvidə dərinləşməsi bütün sahələrdə özünü büruzə verir. İyulun 28-də Belqradda keçirilən siyasi məsləhətləşmələrin növbəti raundu zamanı xarici işlər nazirliklərinin rəhbər şəxsləri səviyyəsində müqavilə-hüquq bazasının genişləndirilməsi, beynəlxalq təşkilatlar çərçivəsində birgə fəaliyyət geniş təhlil olunub.

9

## Müstəqil dövlətimiz dilimizin saflığının qorunması üçün ciddi addımlar atır

Azərbaycan dili təkcə ölkəmizdə deyil, dünyanın müxtəlif bölgələrində yaşayan soydaşlarımız üçün də milli bağlılığın əsas vasitələrindəndir. Xaricdə yaşayan azərbaycanlıların ana dilini mükəmməl bilməsi, bu dili yaşatması milli həmrəyliyin mühüm şərtlərindəndir. Çünki dil yalnız danışıq vasitəsi deyil, həm də xalqın öz kökləri ilə əlaqəsini qoruyan mənəvi körpüdür. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu gün 50 milyondan çox insan üçün Azərbaycan dili ana dilidir.

Dövlət başçısının səsləndirdiyi fikirlər göstərdi ki, Azərbaycan dilinin saflığının qorunması yalnız dil siyasətinin deyil,




həm də milli kimliyin, dövlətçilik düşüncəsinin mühüm istiqamətlərindən biridir.

Ana dilinin saflığının qorunması, ilk növbədə onun daxili imkanlarına hörmətlə yanaşmaqdan başlayır. Azərbaycan dili zəngin lüğət tərkibinə, geniş ifadə imkanlarına malikdir. Bu səbəbdən dilimizdə mövcud olan sözlərin əvəzinə, ehtiyac olmadığı halda xarici sözlərin gətirilməsi dilin inkişafına deyil, əksinə, onun təbii imkanlarının zəifləməsinə səbəb ola bilər. Dövlət başçısının çıxışında diqqət çəkilən əsas məsələlərdən biri də Azərbaycan dilində mövcud olan imkanlardan düzgün istifadə olunmasıdır. Prezident İlham Əliyevin nəzərə çatdırdığı kimi, ana dilimiz qədimdir, çox zəngindir və xarici kəlmələrə ehtiyac da yoxdur: "Düzdür, beynəlxalq leksikon var və hər birimiz bu leksikondan istifadə edirik. Amma əgər Azərbaycan dilində əzəli bir kəlmə varsa, başqa dildən kəlməni gətirib əvəzləmək nə məqsəd daşıyır? Bu, ya səhvdir, ya təxribatdır. Hər ikisi də qəbuledilməzdir".

Müasir dövrdə dilin qarşısında yeni çağırışlar dayanır. Rəqəmsal platformalar və qlobal informasiya axını dillərə müxtəlif təsirlər göstərir.

8



## Yeni nəslin həmrəylik modeli

Mütəxəssislər qlobal həmrəyliyi qiymətləndirmək üçün üç əsas göstəriciyə əsaslanıblar. Birincisi, insanların özlərini, sadəcə, doğma ölkələrinin daxilində yox, həm də planetin bərabərhüquqlu "dünya vətəndaşı" kimi görüb-görməməsidir. İkincisi, ödənilən vergilərin bir hissəsinin aclıq, xəstəlik və qlobal fəlakətlərin həllinə xərclənməsinə razılıq dərəcəsidir. Üçüncüsü isə, iqlim dəyişikliyi kimi ümumi təhlükələrə qarşı beynəlxalq təşkilatlara məcburi qərarlar çıxarmaq hüququnun verilməsinə münasibətdir. Sorğu keçirilən 31 ölkənin 24-də hər üç göstərici üzrə artım qeydə alınıb. Ən diqqətçəkən məqam isə odur ki, heç bir ölkədə geriləmə müşahidə olunmayıb. "Global Nation" ekspertləri bu mənzərəni müsbət vəziyyət kimi qiymətləndirirlər. Rəqəmlərdən aydın olur ki, insanlar təcrid olunmaqdan yorulub və birlikdə addımlamağın vacibliyini yenidən dərk edirlər.

Sorğunun təfərrüatları cəmiyyətin artıq daha geniş düşündüyünü aydın göstərir. Son bir ildə özünü "dünya vətəndaşı" hiss edənlərin sayı 33 faizdən 40 faizə yüksəlib. Vergilərinin bir hissəsinin qlobal böhranlara yönəldilməsinə razı olanların sayı 40 faizdən yuxarıya qalxıb. Beynəlxalq təşkilatların məcburi qərarlarını dəstəkləyənlərin göstəricisi isə 50 faizdən 66 faizə çataraq rekord vurub.

9

◆ Prezident İlham Əliyevin Qırğızıstana dövlət səfəri

# Dost, qardaş, müttəfiq

## Çolpon-Ata şəhərində rəsmi qarşılanma mərasimi





**Qırğızıstanda dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyulun 31-də Çolpon-Ata şəhərində rəsmi qarşılanma mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanın və Qırğızıstanın Dövlət bayraqlarının dalğalandığı meydanda Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Qırğız Respublikasının Prezidenti Sadır Japarov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Azərbaycanın və Qırğızıstanın Dövlət himnləri səsləndirildi.

Azərbaycan Prezidenti İlham Əliyev Qırğızıstan əsgərlərini salamladı.

Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Qırğızıstanın dövlət və hökumət nümayəndələri Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri isə Prezident Sadır Japarova təqdim edildi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında prezidentlərin qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

## Prezidentlərin təkbətək görüşü



İyulun 31-də Çolpon-Ata şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə təkbətək görüşü olub.

## Azərbaycan və Qırğızıstan Dövlətlərarası Şuranın 3-cü iclası keçirilib

**İyulun 31-də Çolpon-Ata şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qırğız Respublikasının Prezidenti Sadır Japarovun iştirakı ilə Azərbaycan və Qırğızıstan Dövlətlərarası Şuranın 3-cü iclası keçirilib. AZƏRTAC xəbər verir ki, Qırğızıstan Prezidenti iclasda çıxış etdi.**

### Prezident Sadır Japarovun çıxışı

- Hörmətli İlham Heydər oğlu!

Azərbaycan nümayəndə heyətinin hörmətli üzvləri!

Bizim incimiz olan İssık-Kul gölünün sahilində Sizi salamlamaqdan səmimi-qəlbdən şadam.

Qırğızıstana dövlət səfəri barədə dəvətimi qəbul etdiyinizə görə minnətdarlığımı bildirirəm. Qırğızıstanda Sizə - qardaş Azərbaycanın liderinə və Qırğız xalqının əziz dostuna böyük hörmət bəsləyirlər. Sizin rəhbərliyinizlə Azərbaycan inamla inkişaf edir, beynəlxalq aləmdə öz mövqeyini möhkəmləndirir, regionda sülhün və sabitliyin təmin edilməsində mühüm rol oynayır. Bu gün ölkə böyük təəssürat doğuran nəticələr nümayiş etdirir, ardıcıl olaraq genişmiqyaslı islahatlar həyata keçirir və milli maraqlarını qətiyyətlə müdafiə edir. Bu son nailiyyətlər Azərbaycan xalqının Ümummilli Lideri, atanız hörmətli Heydər Əliyev tərəfindən qoyulmuş möhkəm təməl üzərində qurulub. Bu quruculuq yolu davam edir. Siz ölkənin gələcək inkişafını təmin edir, regional və beynəlxalq proseslərdə onun rolunu möhkəmləndirirsiniz.

Qırğızıstan ilə Azərbaycanı tarixi köklər və mənəvi yaxınlıq birləşdirir. Bizim dəyərlərimiz öz əksini iki xalqın zəngin mədəni irsində tapıb. Dahi Nizami Gəncəvinin dediyi kimi: "Qazanılan hər bir dost səmanın bəxş etdiyi bir nemətdir". Xüsusi qürur hissi ilə qeyd etmək istərdim ki, Qırğızıstan və Azərbaycan bir-birinin timsalında etibarlı dost qazanıb.

Hörmətli İlham Heydər oğlu, Sizin səfəriniz Qırğızıstan-Azərbaycan münasibətlərinin xüsusi xarakterini bir daha təsdiqləyir. Biz möhkəm dostluq və qarşılıqlı hörmət təməlinə əsaslanan ikitərəfli qarşılıqlı fəaliyyətin inkişafında yeni bir mərhələyə qədəm qoyuruq. Qırğızıstan ilə Azərbaycan arasında strateji tərəfdaşlığımızın inkişafına mane ola biləcək həll edilməmiş heç bir məsələ yoxdur. Əksinə, tam etimad və açıqlıq mühiti yaranıb ki, bu da bizə inamla irəliləməyə imkan verir.



Məhz belə bir ab-havada ikitərəfli əməkdaşlığın gələcəyini formalaşdıran mühüm prinsiplər və təşəbbüslər yaranır, qərarlar qəbul edilir. Əldə edilən bütün razılaşmaların birgə inkişafa və ortaq məqsədlərə çatmaq üzrə səmimi səylərə əsaslanması xüsusilə vacibdir. Qırğız-Azərbaycan əməkdaşlığı nəqliyyat, energetika, investisiya, təhlükəsizlik, təhsil və digər sahələrdə qarşılıqlı fəaliyyətin daha da genişlənməsi üçün əhəmiyyətli potensiala malikdir.

Hesab edirəm ki, bugünkü danışıqlar ənənəvi olaraq etimad və konstruktiv ab-havada keçəcək. Danışıqların yekunlarına dair ikitərəfli əlaqələrin daha da inkişafına yönəlmiş mühüm razılaşmalar əldə ediləcək. Onların ardıcıl həyata keçirilməsi ümumi məqsədimizə - Qırğızıstanın və Azərbaycanın qardaş xalqlarının rifahının yüksəldilməsinə töhfə verəcək. Əsas siyasi nəticə isə müttəfiqlik münasibətləri haqqında Müqavilənin imzalanması olacaq.

Hörmətli İlham Heydər oğlu, Sizi və Azərbaycan nümayəndə heyətinin bütün üzvlərini qonaqpərvər Qırğız torpağında bir daha səmimi-qəlbdən salamlayıram.

Möhtərəm İlham Heydər oğlu, buyurun, sözü Sizə verirəm.

❖❖❖

Sonra Azərbaycan Prezidenti çıxış etdi.

### Prezident İlham Əliyevin çıxışı

- Hörmətli Sadır Nurqojoyeviç!

Əziz dostlar!

Əvvəlcə, qardaş Qırğızıstana dövlət səfərinə dəvətə, mənə və nümayəndə heyətinin üzvlərinə göstərilən qonaqpərvərliyə görə minnətdarlığımı bildirmək istərdim. Bu, gözəl ölkənizə ilk səfərim deyil, amma təcrübəmə əsaslanaraq deyə bilərəm ki, Sizin rəhbərliyinizlə təkcə bu bölgədə deyil, bütün ölkədə gedən inkişaf məndə böyük təəssürat yaradıb. Əvvəlcə, Sizi və bütün qardaş Qırğızıstan xalqını sosial-iqtisadi inkişaf, ölkənin iqtisadi potensialının möhkəmləndirilməsi, beynəlxalq məsələlərdə rolunun artırılması üzrə əldə olunan böyük



nailiyyətlər münasibətilə təbrik etmək istərdim.

Sizin dostlarınız və qardaşlarınız olaraq, hər bir uğurunuza daim sevinirik və həm inşaat sektorunda, həm də vəsaitlərin xalqın və ölkənin rifahına xərclənməsinə imkan verən maliyyə, büdcənin doldurulması sahəsində Sizin fəaliyyətinizin nəticələri aydın şəkildə görünür. Bu, bizdə sevinc hissi doğurur. Çünki biz dost, qardaşıq, xalqlarımızı ortaq köklər birləşdirir və qardaş ölkənin uğurunu öz uğurumuz hesab edirik.

Qarabağın bərpasında köməyə görə təşəkkürümü bildirmək istərdim. Ağdam bölgəsində Sizinlə birlikdə açılışını etdiyimiz məktəb Manasın adını daşıyır, orada uşaqlar artıq təhsil alırlar. Bu məktəb qardaşlığımızın daha bir rəmzidir, həmçinin xalqlarımızın birliyinin abidəsi kimi daim qalacaqdır. Təkcə Qarabağın deyil, bütün Azərbaycanın sakinləri bunu qiymətləndirirlər. Mən həmçinin şadam ki, humanitar sahədə əlaqələrimiz uğurla inkişaf edir: bu yaxınlarda Azərbaycanda keçirilən Qırğızıstan Mədəniyyəti Günləri və Qırğızıstanda Azərbaycan Günləri mədəniyyətimizin necə zəngin olduğunu və xalqlarımızın yaradıcılıq potensialını tam şəkildə üzə çıxaran belə tədbirlərin vacibliyini bir daha nümayiş etdirdi.



Siz müxtəlif sahələrdə əməkdaşlığı qeyd etdiniz. Əlbəttə, mən bütün sahələrdə qarşıya qoyduğumuz məqsədlərin hamısına nail olunacağına əminəm. Şadam ki, Qırğız-Azərbaycan Fondu uğurla fəaliyyət göstərir. Fondun vəsaitlərinin artırılması barədə qərar qəbul etdik və bir neçə layihə artıq həyata keçirilir. Əminəm ki, fond inkişaf etdikcə, layihələrin sayı da artacaq. Bu, ortaq məqsədlərimizə xidmət edəcək.

Sevinirəm ki, Azərbaycan həmçinin İssık-Kulun infrastrukturunun, burada turizmin inkişafında da iştirak edib. Bu gün həmkarlarımızla birlikdə beşulduzlu "Bakı" hotelini açacağıq. Bu da dost-qardaş münasibətlərinin təzahürüdür, həmçinin Azərbaycanın İssık-Kulun turizm potensialının inkişafına kiçik töhfəsidir. Dünən Sizinlə aeroportdan gələndə gördüklərim - həm inşaat, həm də infrastruktur layihələri çox böyük təəssürat yaratdı.

Dünən birlikdə qolf oyunu üçün hər cür şəraitin yaradıldığı əraziyə baş çəkdik. Bu şərait beynəlxalq səviyyəlidir. Sizi bu nailiyyətlər münasibətilə təbrik etmək istərdim. Bütün bunlarda məhz Sizin xalqınıza və ölkənizə şəxsi sədaqətiniz, inkişafı sürətləndirmək səyləriniz hiss olunur. Siz buna nail olursunuz. Biz buna səmimi-qəlbdən sevinirik. Əlbəttə, Siz artıq qeyd etdiyiniz kimi, münasibətlərimizi müttəfiqlik səviyyəsinə yüksəldirik. Bu, qarşılıqlı fəaliyyətin ən yüksək səviyyəsidir. Bu, həm münasibətlərimizin xarakterini, həm də ruhunu əks etdirir.

Qonaqpərvərliyə görə bir daha təşəkkür edirəm və əminəm ki, mənim dövlət səfərimin nəticələri qardaş münasibətlərimizin bundan sonra da möhkəmlənməsinə xidmət edəcək. Sağ olun.

❖❖❖

**Prezident Sadır JAPAROV:** Hörmətli İlham Heydər oğlu, mühüm dəyərləndirmələrə və Qırğızıstan-Azərbaycan qarşılıqlı fəaliyyətinin yüksək səviyyəsini qeyd etdiyinizə görə Sizə təşəkkürümü bildirirəm.

◆ Prezident İlham Əliyevin Qırğızıstana dövlət səfəri

# Dost, qardaş, müttəfiq

## Azərbaycan ilə Qırğızıstan arasında imzalanmış sənədlər mübadilə edilib





**Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında imzalanmış sənədlərin iyulun 31-də Azərbaycan Prezidenti İlham Əliyevin və Qırğızıstan Prezidenti Sadır Japarovun iştirakı ilə mübadiləsi mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, dövlət başçıları "Azərbaycan Respublikası və Qırğız Respublikasının Dövlətlərarası Şurasının üçüncü iclasının Qərarı"nı və "Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə"ni imzalayıblar.

"Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikası Nazirlər Kabineti arasında Azərbaycan-Qırğız İnkişaf Fondunun yaradılması haqqında 2022-ci il 11 oktyabr tarixli Sazişə dəyişikliklərin edilməsi haqqında İkinci Əlavə Saziş"i Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Qırğızıstanın iqtisadiyyat və ticarət naziri Bakıt Sıdıkov mübadilə etdilər.

"Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikası Nazirlər Kabineti arasında beynəlxalq avtomobil əlaqələri haqqında Saziş"i Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Qırğızıstanın nəqliyyat və rabitə naziri Talantbek Soltobayev mübadilə etdilər.

"Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Qırğız Respublikasının Nəqliyyat və Kommunikasiya Nazirliyi arasında yükdaşımalar, gəmiçilik və gəmiqayırma sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Qırğızıstanın nəqliyyat və rabitə naziri Talantbek Soltobayev mübadilə etdilər.

"Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Qırğız Respublikasının Energetika Nazirliyi arasında neft məhsullarının tədarükü sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın Baş nazirinin müavini Samir Şərifov və Qırğızıstanın energetika naziri Altınbek Rısbekov mübadilə etdilər.

"Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında energetika sahəsində əməkdaşlıq üzrə 2026-2028-ci illər üçün Yol Xəritəsi"ni Azərbaycanın Baş nazirinin müavini Samir Şərifov və Qırğızıstanın energetika naziri Altınbek Rısbekov mübadilə etdilər.

"2024-cü il aprelin 24-də Bakı şəhərində imzalanmış Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə Qırğız Respublikasının Nazirlər Kabineti arasında 2024-2029-cu illər üçün Əməkdaşlıq Proqramının həyata keçirilməsinə dair Yol Xəritəsi"ni Azərbaycanın Baş nazirinin müavini Samir Şərifov və Qırğızıstanın iqtisadiyyat və ticarət naziri Bakıt Sıdıkov mübadilə etdilər.

"Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Qırğız Respublikasının Milli Statistika Komitəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın Qırğızıstandakı səfiri Lətif Qəndilov və Qırğızıstanın Milli Statistika Komitəsinin sədri Baktıbek Kudaybergenov mübadilə etdilər.

"Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti ilə Qırğız Respublikasının Dövlət Milli Təhlükəsizlik Komitəsi arasında kibertəhlükəsizlik sahəsində Anlaşma Memorandumu"nu Azərbaycanın Qırğızıstandakı səfiri Lətif Qəndilov və Qırğızıstanın Dövlət Milli Təhlükəsizlik Komitəsinin sədri Maksat Asanaliyev mübadilə etdilər.

"Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə Qırğız Respublikasının İqtisadiyyat və Ticarət Nazirliyi yanında Maliyyə Bazarının Tənzimlənməsi və Nəzarəti Xidməti arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın Qırğızıstandakı səfiri Lətif Qəndilov və Qırğızıstanın İqtisadiyyat və Ticarət Nazirliyi yanında Maliyyə Bazarının Tənzimlənməsi və Nəzarəti Xidmətinin sədri Kayrat Matov mübadilə etdilər.

"Azərbaycan Respublikasının Şuşa şəhəri ilə Qırğız Respublikasının Çolpon-Ata şəhəri arasında qardaşlaşma əlaqələrinin yaradılması haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın Qırğızıstandakı səfiri Lətif Qəndilov və Qırğızıstanın Çolpon-Ata şəhərinin meri Rustam Kadırkulov mübadilə etdilər.

"Azərbaycan Respublikasının Qəbələ şəhəri ilə Qırğız Respublikasının Karakol şəhəri arasında qarşılıqlı əməkdaşlıq və qardaşlaşma əlaqələrinin yaradılması haqqında Memorandum"u Azərbaycanın Qırğızıstandakı səfiri Lətif Qəndilov və Qırğızıstanın Karakol şəhərinin meri Talantbek İmanov mübadilə etdilər.

"Azərbaycan Respublikasının Gəncə şəhəri ilə Qırğız Respublikasının Oş şəhəri arasında əməkdaşlığın və qardaşlaşma əlaqələrinin yaradılması haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın Qırğızıstandakı səfiri Lətif Qəndilov və Qırğızıstanın Oş şəhərinin meri Janar Akayev mübadilə etdilər.

"AzerGold" QSC ilə "Kyrgyzaltyn" ASC arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında Memorandum"u "AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov və "Kyrgyzaltyn" ASC-nin İdarə Heyətinin sədri Kubat Abdraimov mübadilə etdilər.

## Azərbaycan və Qırğızıstan prezidentlərinin təltifolunma mərasimi keçirilib







**İyulun 31-də Azərbaycan və Qırğızıstan prezidentlərinin təltifolunma mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, mərasimdə çıxış edən Qırğızıstan Prezidenti **Sadır JAPAROV** dedi:

- Hörmətli İlham Heydər oğlu!

Hörmətli xanımlar və cənablar!

Müasir Azərbaycan regional və beynəlxalq proseslərdə mühüm rol oynayan güclü və nüfuzlu dövlətdir. Sizin Azərbaycana rəhbərlik etdiyiniz illərdə dövlətçiliyin möhkəmlənməsi, iqtisadiyyatın inkişafı və irimiqyaslı layihələrin həyata keçirilməsi üzrə böyük nailiyyətlər əldə olunub. Sizin dəstəyiniz və daimi yaxınlaşmaq səyləriniz sayəsində qardaş ölkələrimiz möhkəm dostluğa və qarşılıqlı etimada əsaslanan əsl strateji tərəfdaşlıq münasibətləri əldə edib.

Bu gün münasibətlərimiz keyfiyyətcə geniş səviyyəyə yüksəlib və müttəfiqlik xarakteri qazanıb. Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında əlaqələrin inkişafında Sizin rolunuz xüsusi əhəmiyyətə malikdir. Azərbaycanın Mərkəzi Asiya dövlət başçılarının Məşvərət görüşlərində iştirakı iqtisadi-ticari, nəqliyyat və energetika sahələrində əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanlar açır. Siz həmçinin öz nüfuzunuzu ardıcıl olaraq regionda möhkəm sülhün bərqərar olmasına, sabitliyin möhkəmlənməsinə və yeni əməkdaşlıq mühitinin yaranmasına yönəldirsiniz.

Ölkələrimiz arasında dostluğun möhkəmləndirilməsinə Sizin sadiqliyiniz Qırğız xalqında dərin hörmət hissləri doğurur. Məhz bu səbəbə görə əziz dostum və qardaşım, Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Heydər oğlu Əliyevin Qırğız Respublikasının ali dövlət mükafatı - "Manas" ordeni ilə təltif olunması qərarını qəbul etdim.

Bu yüksək mükafat Sizin Qırğızıstan-Azərbaycan münasibətlərinin möhkəmlənməsinə şəxsi töhfənizin təsdiqidir.

Qırğız Respublikasının xalqı adından və şəxsən öz adımdan Sizi bu yüksək mükafat münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Sizə möhkəm cansağlığı, əmin-amanlıq və ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar, qardaş Azərbaycan xalqına isə sülh və tərəqqi arzulayıram.

Hörmətli İlham Heydər oğlu, icazə verin, "Manas" ordenini Sizə təqdim edim.

❖ ❖ ❖

Sonra Azərbaycan Prezidenti İlham Əliyevin Qırğız Respublikası ilə Azərbaycan Respublikası arasında strateji tərəfdaşlığın inkişafına, iki ölkənin xalqları arasında dostluğun möhkəmlənməsinə mühüm töhfəsinə görə 1-ci dərəcəli "Manas" ordeni ilə təltif edilməsi haqqında Qırğızıstan Prezidenti Sadır Japarovun fərmanı oxundu.

Prezident Sadır Japarov 1-ci dərəcəli "Manas" ordenini dövlətimizin başçısına təqdim etdi.

❖ ❖ ❖

Azərbaycan Prezidenti **İlham ƏLİYEV** çıxış edərək dedi:

- Hörmətli Sadır Nurqojoyeviç!

Əziz dostlar!

Əvvəlcə, bu yüksək mükafata görə Sizə səmimi-qəlbdən təşəkkür etmək istərdim. Mən onu Qırğızıstan ilə Azərbaycan arasında qardaşlıq əlaqələrinin möhkəmləndirilməsi işində fəaliyyətimə Sizin verdiyiniz qiymət hesab edirəm. Sizinlə əməkdaşlıq illərimiz ərzində ölkələrimiz çox böyük və şərəfli yol qət edib, dövlətlərarası münasibətlərimiz strateji müttəfiqlik səviyyəsinə yüksəlib. Dünyada bundan yüksək səviyyə mövcud deyil. Qardaş ölkələrimiz arasında əlaqələrin möhkəmləndirilməsində şəxsi iştirakınıza görə Sizə çox dərindən minnətdaram.

Bizim mehriban, dost və qardaş münasibətlərimiz ölkələrimiz arasında bugünkü uğurlu inkişafın mühüm amilidir. Həmçinin mənim ünvanıma söylədiyiniz xoş sözlərə, bu yüksək ordenə görə Sizə səmimi minnətdarlığımı bildirirəm və Sizi əmin edirəm ki, Qırğızıstan-Azərbaycan münasibətlərinin ölkələrimizin və xalqlarımızın rifahı naminə davamlı inkişafı üçün bundan sonra da bütün səylərimi göstərəcəyəm.

Belə yüksək mükafata görə bir daha ürəkdən təşəkkür edirəm.

❖ ❖ ❖

Sonra Qırğız Respublikasının Prezidenti Sadır Japarovun Azərbaycan ilə Qırğızıstan arasında dostluq, qardaşlıq və tərəfdaşlıq əlaqələrinin inkişafında xüsusi xidmətlərinə görə "Heydər Əliyev" ordeni ilə təltif olunması haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı oxundu.

❖ ❖ ❖

Çıxışına davam edən Prezident **İlham ƏLİYEV** dedi: Bu yüksək mükafatı təqdim etməzdən əvvəl, Sadır Nurqojoyeviç, şəxsən Sizi, Sizin komandanızı, qardaş Qırğız xalqını Qırğızıstanın Sizin rəhbərliyiniz ilə qazanılan tarixi nailiyyətləri münasibətilə bir daha təbrik etmək istərdim. Mən Qırğızıstana ilk dəfə deyil ki, səfər edirəm, amma məhz Sizin prezidentliyiniz dövründə bizim aramızdakı təmaslar müntəzəm xarakter daşıyır. Mənim Qırğızıstana səfərlərimi və Sadır Nurqojoyeviçin Azərbaycana səfərlərini saysaq, onlarla qarşılıqlı səfər həyata keçirilib.

Lakin bütün bunlar məhz qardaş Qırğızıstan xalqının ölkə Prezidenti kimi yüksək vəzifəni Sizə etimad etməsindən sonra baş verir. Dəyişiklikləri hamı görür. Bunları həm dostlar, həm də ölkəyə gələn xarici müşahidəçilər görürlər. Onları görməmək mümkün deyil. Hətta bu gün İssık-Kul rayonunda müşahidə etdiklərimizi də Sadır Nurqojoyeviçin Qırğızıstana rəhbərliyi olmadan təsəvvür etmək mümkün deyil. Qırğız torpağının bu gözəl guşəsi hazırda ən əsas inkişaf dövrünü keçirir. Tarixdə heç kim heç vaxt belə qısa müddətdə burada gördüyümüz güclü inkişafın şahidi olmayıb. Bu, şəxsən Sizin xidmətinizdir. Sizin öz xalqınıza, öz köklərinizə, Qırğız xalqının yüksək mənəvi dəyərlərinə sədaqətinizdir və Qırğızıstanı yeni inkişaf səviyyəsinə yüksəltmək səylərinizdir. Siz buna nail olursunuz. Bu gün Sizin ölkənizin beynəlxalq nüfuzu ən yüksək səviyyədədir və Qırğızıstanın beynəlxalq ali orqana seçilməsi bunu təsdiq edir.

İqtisadi inkişaf, sosial tərəqqi Sizin Qırğız xalqına qayğınızın göstəricisidir. Necə ki, bu gün Qırğızıstandan xaricə deyil, xaricdən Qırğızıstana miqrasiya axını baş verir. Bütün bunlar Sizin şəxsi iştirakınız, Sizin qərarlarınız, Sizin uzaqgörənliyiniz sayəsində mümkün olub. Mən Bişkekdə dəfələrlə olmuşam, İssık-Kulun gözəl sahilinə də ilk dəfədir ki, gəlmirəm. Deyə bilərəm ki, bütün ölkə boyu inkişaf gedir. Əlbəttə, Qırğızıstan vətəndaşları bunu daha yaxşı bilirlər. Düşünürəm ki, Sizə göstərilən ümumxalq dəstəyi Sizin əməyinizin başlıca nəticəsidir və yəqin ki, ən böyük mükafatdır. Azərbaycan da Sizin həm Qırğızıstanın inkişafına, həm də ölkələrimiz arasında qardaşlıq münasibətlərinin möhkəmlənməsinə töhfənizi yüksək qiymətləndirir. Mənim fərmanımla Siz Azərbaycanın ali ordeni - "Heydər Əliyev" ordeni ilə təltif olunmusunuz. İndicə fərmanı elan etdilər. İcazə verin, bu yüksək mükafatı Sizə təqdim edim.

❖ ❖ ❖

Prezident İlham Əliyev "Heydər Əliyev" ordenini Prezident Sadır Japarova təqdim etdi.

❖ ❖ ❖

Prezident **Sadır JAPAROV** dedi: Hörmətli İlham Heydər oğlu!

İcazə verin, göstərilən hörmət və dostluq əlamətinə görə, Sizə səmimi minnətdarlığımı bildirim. Azərbaycan Respublikasının yüksək dövlət mükafatlarından birini - "Heydər Əliyev" ordenini Sizin əlinizdən qəbul etmək mənim üçün böyük şərəfdir. Bu mükafat mənim üçün xüsusi əhəmiyyətə malikdir, çünki müasir Qırğızıstan-Azərbaycan münasibətlərinin formalaşmasının əsasını qoyan görkəmli dövlət xadiminin, Azərbaycan xalqının böyük oğlunun adını daşıyır.

Mən bu ordeni xalqlarımız arasında möhkəm münasibətlərin, strateji tərəfdaşlığa və müttəfiqliyə ortaq sadiqliyin rəmzi kimi qəbul edirəm. Bu xüsusi jestə, Qırğızıstana göstərdiyiniz diqqətə, xalqlarımızın yaxınlaşmasına daimi səylərinizə görə Sizə minnətdaram.

Sizə təşəkkür edirəm. Sağ olun.

◆ Prezident İlham Əliyevin Qırğızıstana dövlət səfəri

# Dost, qardaş, müttəfiq

## Azərbaycan və Qırğızıstan prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər

**İyulun 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov mətbuata bəyanatlarla çıxış ediblər.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə Qırğızıstan Prezidenti bəyanatla çıxış etdi.





### Prezident Sadır Japarovun bəyanatı

- Hörmətli İlham Heydər oğlu!

Hörmətli media nümayəndələri!

Bu gün Azərbaycan Prezidenti, hörmətli İlham Heydər oğlunu və Azərbaycan nümayəndə heyətinin üzvlərini qonaqpərvər Qırğız torpağında böyük məmnunluqla salamlayırıq.

Qırğız Respublikasına dövlət səfəri ilə bağlı dəvətimi qəbul etdiyinizə görə Sizə minnətdaram.

Əminəm ki, bu səfər qardaş münasibətlərimizin möhkəmlənməsinə yeni impuls verəcək. Qırğızıstan ilə Azərbaycan bir-birini daim dəstəkləyir və qarşılıqlı maraq doğuran məsələlər üzrə mövqelərini uğurla əlaqələndirir. Məmnunluqla qeyd edirəm ki, Qırğızıstanla Azərbaycan arasında siyasi dialoq bu gün ən yüksək səviyyədədir. Müntəzəm təmaslar və qarşılıqlı etimad bu gün qurulan müttəfiqlik münasibətləri üçün möhkəm zəmin yaradır.

Biz cənab Prezidentlə Qırğızıstan-Azərbaycan əməkdaşlığına dair məsələlərin bütün kompleksi üzrə ətraflı və etimada əsaslanan danışıqlar apardıq. Bizim sədrliyimiz ilə Dövlətlərarası Şuranın 3-cü iclası keçirildi və qərar imzalandı. Şuranın qərarlarının həyata keçirilməsinə dair informasiyanı dinlədik və birgə təşəbbüslərin yerinə yetirilməsinin gedişatını, o cümlədən Azərbaycan-Qırğızıstan Fondunun fəaliyyətini müzakirə etdik.

İkitərəfli qarşılıqlı fəaliyyətin əsas istiqamətlərini nəzərdən keçirdik və tərəfdaşlığımızın inkişafına dair yeni addımları müəyyən etdik. Bugünkü danışıqların mühüm yekunu müttəfiqlik münasibətləri haqqında Müqavilənin imzalanması oldu. Bu tarixi hadisə, həqiqətən də, Qırğızıstan-Azərbaycan əməkdaşlığının yeni mərhələsinin əsasını qoyur. Bundan başqa, energetika, nəqliyyat, kibertəhlükəsizlik, təhsil, maliyyə bazarının tənzimlənməsini, həmçinin qiymətli metalların dövriyyəsini əhatə edən ikitərəfli sənədlərdən ibarət sanballı zərf imzalanıb. Qarşılıqlı iqtisadi-ticari fəaliyyətin davamlı inkişafını və əmtəə dövriyyəsinin dayanıqlı artımını qeyd etdik. Gələcəkdə də işgüzar əlaqələrin genişlənməsi, müştərək investisiya layihələrinin həyata keçirilməsi üçün əlverişli şərait yaradılmasına dair razılıq əldə etdik. Bu gün Azərbaycan-Qırğızıstan Fondunun fəaliyyəti çərçivəsində 3 birgə layihənin açılışı oldu və 8 təşəbbüsün həyata keçirilməsinə start verildi.

Nəqliyyat dəhlizlərinin inkişafı və ölkələrimizin tranzit potensialından səmərəli istifadə edilməsi məsələlərinə xüsusi diqqət yetirdik. Azərbaycanın Mərkəzi Asiyanı Avropa bazarları ilə birləşdirən Orta dəhlizin əsas bəndi kimi mühüm rolunu qeyd etdik. Həmçinin energetika sahəsində perspektivli istiqamətləri və birgə layihələrin həyata keçirilməsi imkanlarını müzakirə etdik. Bu gün İssık-Kul gölü sahilində Azərbaycanın inşa etdiyi ilk 5 ulduzlu hotelin təntənəli açılışı olacaq.

Əminəm ki, bu layihə xalqlarımız arasında möhkəm dostluğun daha bir rəmzi olacaq və turizm potensialının inkişafına mühüm töhfə verəcək.

Beynəlxalq təşkilatlar çərçivəsində bizim səmərəli qarşılıqlı fəaliyyətimizi xüsusi qeyd etmək istərdim. Hörmətli İlham Heydər oğlunu VI Ümumdünya Köçəri Oyunlarının təntənəli açılış mərasimində, "ŞƏT+" Sammitində, həmçinin 2027-ci il oktyabrın 21-23-də keçiriləcək "Bişkek+25" ikinci Qlobal Dağ Sammitində iştiraka dəvət etdim.

Çıxışımın sonunda bugünkü danışıqların yekunları ilə bağlı məmnunluğumu ifadə etmək istərdim.

Hörmətli İlham Heydər oğlu, məzmunlu fikir mübadiləsinə, Qırğızıstan-Azərbaycan münasibətlərinin inkişafına şəxsi diqqətinizə və xalqlarımız arasında dostluğun möhkəmlənməsinə daimi sadiqliyinizə görə Sizə minnətdaram. Əldə olunan razılaşmalar Qırğızıstanın və Azərbaycanın müttəfiqlik münasibətlərinin gələcəkdə də dərinləşməsinə qarşılıqlı səyləri təsdiqləyir.

Diqqətinizə görə təşəkkür edirəm.

❖ ❖ ❖

Sonra Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.

### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli Sadır Nurqojoyeviç!

Əziz dostlar!

Hörmətli cənab Prezident, əvvəlcə, Qırğızıstana dövlət səfərinə dəvət etdiyinizə, mənə qardaş Qırğızıstan torpağında göstərilən ənənəvi qonaqpərvərliyə görə Sizə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Bu gün biz Sizinlə dövlətlərarası münasibətləri ən yüksək səviyyəyə qaldırdıq, qarşılıqlı fəaliyyətimizin möhkəmlənməsinə birgə səyləri bir daha nümayiş etdirdik.

Müttəfiqlik münasibətləri çox böyük məsuliyyət deməkdir və biz bu məsuliyyətə hazırıq. Biz bütün təşəbbüslərdə - həm beynəlxalq platformalarda, həm də iqtisadi-ticari sahədə və təhlükəsizliyin möhkəmləndirilməsində bir-birimizi bundan sonra da dəstəkləyəcəyik.

Siz qeyd etdiyiniz kimi, bu gün imzalanan sənədlər zərfi qarşılıqlı fəaliyyətimizin geniş sferasını nümayiş etdirir. Əminəm ki, səfərimin nəticələrinə görə əldə olunan razılaşmalar da əvvəlkilər kimi uğurla həyata keçiriləcək.

Bu gün biz birgə Azərbaycan-Qırğız İnvestisiya Fondunun maliyyə vəsaitinin iki dəfə - 200 milyon dollara qədər artırılması barədə razılıq əldə etdik. Əminəm ki, bu da son hədd deyil, çünki fondun fəaliyyəti üzrə bizə nümayiş etdirilən təqdimat konkret məzmunla zənginləşir. Qırğızıstanda həyata keçirilən çoxlu layihə var və onlar birgə istehsal, yeni iş yerləri yaradır, qarşılıqlı fəaliyyətimizin iqtisadi potensialını möhkəmləndirir.

Həmçinin bu gün həmkarlarımızla bizim birgə qərarımız olan "Bakı" hotelinin açılışında da iştirak edəcəyik. Biz çox sevinirik və fəxr edirik ki, İssık-Kulun sahilində ilk beşulduzlu hotel Azərbaycan dövlətinin vəsaiti ilə inşa edilib və "Bakı" adını daşıyır.

Biz həmçinin Qarabağın bərpasına göstərilən kömək üçün daim minnətdarlığımızı ifadə edirik. Sizinlə birlikdə Ağdam rayonunda "Manas" adını daşıyan məktəbin açılışında iştirak etdik. Bu, Qırğız xalqının 30 il ərzində işğaldan zərər çəkən Qarabağın bərpası işinə böyük töhfəsi oldu.

Bizi tarix, mədəniyyət, xalqlarımızın görkəmli nümayəndələrinə hörmət ilə bağlı çox şey birləşdirir. Biz Sizinlə həmçinin Bakıda Çingiz Aytmatovun abidəsini və onun adını daşıyan parkın açılışını etdik. Bu yerlər həmçinin Çingiz Aytmatovun həyatı və fəaliyyəti ilə bağlıdır. Bu gün görüş keçirdiyimiz ev də onunla bağlıdır və divarlarda onun portreti var. Bütün bunlar bizim bir-birimizə yaxınlaşmaq səylərimizi nümayiş etdirir.

Bir neçə il əvvəl Sizinlə birlikdə Bişkekdə Qırğızıstan-Azərbaycan dostluğu parkının açılışını da unutmayacağam. Bu park da birgə əməkdaşlığımızın paytaxtdakı kiçik guşəsidir.

Bu gün bizim danışdığımız humanitar əlaqələr - Qırğızıstanda Azərbaycanın, Azərbaycanda isə Qırğızıstanın Mədəniyyət Günləri müsbət ab-hava yaradır, ortaq köklərə malik və bir neçə beynəlxalq strukturda birləşmiş xalqlarımızın necə yaxın olduğunu bir daha nümayiş etdirir.

Həmçinin Sizə, Mərkəzi Asiya ölkələrinin digər prezidentlərinə Azərbaycanın Mərkəzi Asiya Məşvərət görüşlərinə tamhüquqlu üzv qəbul olunmasına görə təşəkkürümü bildirmək istərdim. Hazırda o, "Mərkəzi Asiyanın və Azərbaycanın dövlət liderlərinin görüşü" adlanır. Növbəti görüş bir müddətdən sonra keçiriləcək. Belə xoş münasibətə və bu yüksək mükafata görə bir daha təşəkkürümü bildirirəm.

Öz tərəfimdən Sizi uyğun hesab etdiyiniz vaxtda Azərbaycana yenidən dövlət səfərinə dəvət edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

## Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın şərəfinə dövlət ziyafəti verilib





İyulun 31-də Çolpon-Ata şəhərində Qırğız Respublikasının Prezidenti Sadır Japarovun və birinci xanım Ayqul Japarovanın adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın şərəfinə dövlət ziyafəti verilib.

## Azərbaycan və Mərkəzi Asiya ölkələrinin Dövlət Başçılarının qeyri-rəsmi görüşü keçirilib



**İyulun 31-də Qırğızıstanın Çolpon-Ata şəhərində Azərbaycanın və Mərkəzi Asiya ölkələrinin Dövlət Başçılarının qeyri-rəsmi görüşü keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanın və Mərkəzi Asiya ölkələrinin Dövlət Başçılarının qeyri-rəsmi görüşündə iştirak etmək üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çolpon-Ata şəhərindəki Konqres Mərkəzinə gəldi.

Qırğızıstan Prezidenti Sadır Japarov dövlətimizin başçısını və görüşdə iştirak edən digər prezidentləri qarşıladı.

Azərbaycanın, Qırğızıstanın, Özbəkistanın, Qazaxıstanın, Tacikistanın və Türkmənistanın dövlət başçıları birgə foto çəkdirdilər.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.



### Prezident İlham Əliyevin çıxışı

- Hörmətli Sadır Nurqojoyeviç!

Hörmətli həmkarlar!

Əvvəlcə, Azərbaycanın və Mərkəzi Asiya ölkələrinin Dövlət Başçılarının Məşvərət Görüşündə iştirak etmək üçün dəvətə görə Qırğızıstan Prezidentinə təşəkkürümü bildirirəm. Mən dünəndən Qırğızıstanda səfərdəyəm və ilk növbədə ölkənin sosial-iqtisadi inkişafında böyük uğurlara, həmçinin İssık-Kul gölünün ətrafındakı ərazinin necə dəyişməsinə, kurorta və beynəlxalq səviyyəli turizm istiqamətinə çevrilməsinə görə Qırğızıstan Prezidentini bir daha təbrik etmək istərdim.

Eyni zamanda Qırğızıstanda dövlət səfərindəyəm. Bu gün həmkarım Sadır Nurqojoyeviç ilə ikitərəfli qarşılıqlı fəaliyyətimizin geniş gündəliyinə dair ətraflı müzakirələr apardıq. İkitərəfli əlaqələrin uğurlu inkişafını müəyyənləşdirəcək böyük sənədlər zərfi imzalandı. Amma imzalanan sənədlər arasında müttəfiqlik münasibətləri haqqında Müqaviləni xüsusi qeyd etmək istərdim. Bu, iki qardaş ölkə arasında münasibətləri müttəfiqlik səviyyəsinə qaldıran qarşılıqlı fəaliyyətin ən yüksək dərəcəsidir.

Onu da qeyd etmək istərdim ki, iki qardaş ölkə arasında iqtisadi-ticari münasibətlərin uğurla inkişafı məni sevindirir. Bu gün imzaladığımız sənədlərdən biri də birgə Azərbaycan-Qırğızıstan İnkişaf Fondunun vəsaitlərinin 100 milyon dollardan 200 milyon dollara çatdırılmasını nəzərdə tutur. Görülən işlər, birgə fondun maliyyələşdirilməsi çərçivəsində artıq həyata keçirilən layihələr haqqında bizə məlumat verildi. Bir neçə müəssisə artıq fəaliyyət göstərir, amma potensial da kifayət qədər böyükdür.

Biz həmçinin çox sevinirik və fəxr edirik ki, İssık-Kulun sahilində ilk beşulduzlu hotel Azərbaycan tərəfindən inşa edilib. "Bakı" hoteli qonaqları qəbul etməyə hazırdır və şadam ki, biz bu böyük turizm mərkəzinin açılışında birlikdə iştirak edəcəyik.

Mərkəzi Asiya ölkələri ilə münasibətlər Azərbaycanın xarici siyasətinin prioritetlərindən biridir. Sadəcə, qarşılıqlı səfərlərin dinamikasını söyləmək kifayət edər. Mən 2023-cü ilin əvvəlindən bu günə qədər Mərkəzi Asiyanın qardaş ölkələrinə ümumilikdə 16 dəfə səfər etmişəm, həmin ölkələrdən həmkarlarım isə 26 dəfə Azərbaycanda səfərdə olublar. Yəni statistika münasibətlərin dinamikası və yaxınlığından daha yaxşı xəbər verir, həm də göstərir ki, bu gün Mərkəzi Asiya və Azərbaycan artıq vahid geosiyasi və geoiqtisadi məkana çevrilib.

Həmçinin qeyd etmək istərdim ki, mən bu formatın tamhüquqlu üzvü qismində məşvərət görüşündə ilk dəfədir iştirak edirəm. Mərkəzi Asiyanın bütün dövlət başçılarına Azərbaycanın bu qrupun tamformatlı tərkibinə daxil edilməsinə dair keçən il Özbəkistanda qəbul edilmiş tarixi qərara görə bir daha minnətdarlığımı bildirmək istərdim. Bu görüşə qədər mən fəxri qonaq qismində qatılırdım, indi isə komandanın tamhüquqlu üzvü kimi iştirak edirəm.

Bütün həmkarlarıma bir daha təşəkkürümü bildirirəm. Sizi əmin etmək istəyirəm ki, Azərbaycan məşvərət formatının fəal üzvü olacaq və öz tərəfindən əməkdaşlığı daha da inkişaf etdirmək, ölkələrimizi və xalqlarımızı daha sıx yaxınlaşdırmaq üçün bütün səylərini göstərəcək.

Diqqətinizə görə təşəkkür edirəm.

❖ ❖ ❖

Sonra digər prezidentlər çıxış etdilər.

Görüşün sonunda Çolpon-Ata Bəyannaməsi imzalandı.

◆ Prezident İlham Əliyevin
Qırğızıstana dövlət səfəri

# Dost, qardaş, müttəfiq

## İssık-Kul gölünün sahilində "Baku Resort & Spa" mehmanxanasının açılışı olub

**İyulun 31-də Qırğızıstanda, İssık-Kul gölünün sahilində beşulduzlu "Baku Resort & Spa" mehmanxanasının açılışı olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva, Qırğız Respublikasının Prezidenti Sadır Japarov və birinci xanım Ayqul Japarova, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və birinci xanım Ziroatxon Mirziyoyeva, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev, Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov tədbirdə iştirak ediblər.

Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Ramin Quluzadə dövlət başçılarına və birinci xanımlara İssık-Kul vilayətinin Kara-Oy kəndində tikilmiş mehmanxana barədə məlumat verdi.







Bildirildi ki, "Baku Resort & Spa" "Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikası Nazirlər Kabineti arasında İssık-Kul gölünün sahilində beşulduzlu mehmanxananın tikintisi üzrə investisiya qoyuluşu haqqında" 2023-cü ildə Bişkekdə imzalanmış saziş çərçivəsində inşa olunub.

Ümumilikdə 17 hektardan çox ərazini əhatə edən mehmanxana memarlıq, mədəniyyət, incəsənət, qastronomiya, sağlamlıq və istirahətin ahəngdar şəkildə bir araya gəldiyi nadir məkan kimi layihələndirilib.

Kompleksdə 330 qonağın qəbuluna imkan verən 111 otaq və 10 kottec var.

Mehmanxanada bir hissəsi Azərbaycan vətəndaşları olmaqla ilkin mərhələdə 255 nəfərin iş yeri ilə təmin edilməsi nəzərdə tutulub.

Sağlamlıq və istirahət mehmanxana konsepsiyasının əsas istiqamətlərindəndir. Burada ilboyu istirahət üçün nəzərdə tutulmuş qapalı və açıq hovuzlar, akvapark və çimərlik də qonaqların ixtiyarına veriləcək.

Qastronomiya mehmanxananın fəaliyyətinin ayrılmaz hissəsini təşkil edir. Burada Azərbaycan kulinariya ənənələrinin zənginliyi nümayiş olunacaq. Mehmanxanadakı müxtəlif restoranlarda ənənəvi Azərbaycan səhər yeməkləri də daxil olmaqla, milli mətbəximizdən təamlar təqdim ediləcək.

Hər yaş qrupundan olan qonaqlar üçün maraqlı istirahət imkanları yaratmaq məqsədilə kurort geniş əyləncə infrastrukturu ilə təchiz olunub, boulinq və digər əyləncə oyunları zonası, kino zalı, müxtəlif idman növləri üçün nəzərdə tutulmuş çoxfunksiyalı açıq idman meydançası yaradılıb.

Mehmanxanada beynəlxalq konfranslar, korporativ görüşlər, biznes və sosial tədbirlərin təşkili üçün müasir şərait var.





Burada Bakının gözəlliyi və Azərbaycanın zəngin mədəni irsini əks etdirən elementlər qonaqlara milli ənənələrlə müasirliyin harmoniyasını yaşadır.

Dünyanın ikinci ən böyük dağ gölü və Qırğızıstanın ən qiymətli təbiət incilərindən hesab olunan İssık-Kulun sahilində yerləşməsi, həmçinin bu ərazinin yüksək turizm potensialı mehmanxananın kompleksinin əhəmiyyətini daha da artırır.

Möhtəşəm Tyan-Şan dağları ilə əhatə olunan bu bölgə gözəl təbiəti, minerallarla zəngin suları, həmçinin ilboyu istirahət, sağlamlıq və mədəni turizm üçün əlverişli imkanları ilə tanınır.

"Baku Resort & Spa"nın fəaliyyətə başlaması İssık-Kul regionunda turizm sektoruna mühüm töhfə verməklə yanaşı, bölgənin turizm məkanı kimi mövqeyinin daha da möhkəmlənməsinə xidmət edir.

Bu layihənin icrası eyni zamanda dostluğa və qardaşlığa əsaslanan Azərbaycan-Qırğızıstan münasibətlərinin inkişafına töhfə verir.





## Birinci xanım Mehriban Əliyeva Çolpon-Ata şəhərində "Altın-Balalık" sağlamlıq və reabilitasiya mərkəzi ilə tanış olub



**Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva iyulun 31-də Çolpon-Ata şəhərində Qırğız Respublikasının birinci xanımı Ayqul Japarova və Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva ilə birlikdə "Altın-Balalık" sağlamlıq və reabilitasiya mərkəzi ilə tanış olub.**





AZƏRTAC xəbər verir ki, "Altın-Balalık" sağlamlıq və reabilitasiya mərkəzi 2022-ci ilin mayından fəaliyyət göstərir. Müəssisənin əsas məqsədi uşaqlara yüksəkkeyfiyyətli tibbi-reabilitasiya xidməti göstərmək və onların istirahətini təmin etməkdir.

Mərkəzdə 800 çarpayılıq 136 otaq var. Hər il yay tətili dövrü Qırğızıstanın bütün bölgələrindən və qonşu ölkələrdən 8 min-8 min 500 uşaq burada fəaliyyət göstərən yay düşərgəsində istirahət edir. Mərkəz hər ilin sentyabrından isə növbəti ilin iyununadək reabilitasiya üçün əlilliyi olan uşaqları qəbul edir.

## Prezident İlham Əliyevin Qırğızıstana dövlət səfəri başa çatıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qırğız Respublikasına dövlət səfəri iyulun 31-də başa çatıb.**

AZƏRTAC xəbər verir ki, Çolpon-Ata şəhərinin İssık-Kul Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Qırğız Respublikasının Baş naziri Adılbek Kasımaliyev və digər rəsmi şəxslər yola saldılar.

# Milli Məclisin Sədri Cənubi Afrika Respublikasına səfərə gedib

**Milli Məclisin Sədri Sahibə Qafarova Cənubi Afrika Respublikasına səfərə gedib.**



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Yohannesburq Beynəlxalq Hava Limanında Milli Məclisin Sədrinin başçılıq etdiyi nümayəndə heyətini Azərbaycanın Cənubi Afrika Respublikasındakı müvəqqəti işlər vəkili Hüseyn Rəhimli və digər rəsmi şəxslər qarşılayıblar.

Səfər çərçivəsində Milli Məclisin Sədri Sahibə Qafarovanın Pan-Afrika Parlamentinin Milli və Regional Parlamentlərin Sədrlərinin Konfransında iştirakı, həmçinin bir sıra görüşləri nəzərdə tutulub.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova Pan-Afrika Parlamentinin prezidenti ilə görüşüb

**Milli Məclisin Sədri Sahibə Qafarova Cənubi Afrika Respublikasına səfəri çərçivəsində Pan-Afrika Parlamentinin prezidenti Fatih Boutbiq ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Azərbaycan ilə Afrika ölkələri arasında dostluq münasibətləri, parlamentlərarası əməkdaşlığın inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Pan-Afrika Parlamentinin prezidenti Fatih Boutbiq Milli Məclisin Sədri Sahibə Qafarovanın Milli və Regional Parlament Sədrlərinin Konfransının açılış mərasimindəki çıxışını yüksək qiymətləndirərək, çıxışda həmrəylik, dostluq və parlamentlərarası əməkdaşlığa dair səsləndirilən fikirlərin böyük əhəmiyyət daşıdığını bildirib. O, Pan-Afrika İttifaqı-2063 Gündəliyinin həyata keçirilməsində parlamentlərin mühüm rol oynadığını vurğulayıb.

Pan-Afrika Parlamentinin prezidenti Azərbaycanın Afrika ölkələri üçün etibarlı tərəfdaş olduğunu bildirərək, tərəfləri ortaq dəyərlərin və qarşılıqlı hörmətə əsaslanan münasibətlərin birləşdirdiyini söyləyib. O, parlament diplomatiyasının xalqlar arasında əlaqələrin möhkəmləndirilməsində və qarşılıqlı maraqların təşviqində mühüm rol oynadığını qeyd edib.

Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycanın Afrika ölkələri ilə münasibətlərin inkişafına xüsusi önəm verdiyini bildirib. Spiker parlamentlərarası əlaqələrin genişləndirilməsinin, siyasi dialoqun möhkəmləndirilməsinin, qarşılıqlı etimadın artırılmasının və əməkdaşlığın yeni istiqamətlər üzrə inkişafının əhəmiyyətini xüsusi vurğulayıb. O qeyd edib ki, regional və beynəlxalq səviyyədə birgə fəaliyyətin davam etdirilməsi vacibdir. Sahibə Qafarova parlamentlərarası əlaqələrin daha da genişləndirilməsinin qarşılıqlı maraqlara xidmət edəcəyini və Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi ilə institusional əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu diqqətə çatdırıb.

Spiker Sahibə Qafarova Pan-Afrika Parlamentinin rəhbərliyini Azərbaycana səfərə dəvət edərək, bu səfərin qarşılıqlı əlaqələrin inkişafına və praktiki əməkdaşlığın genişlənməsinə mühüm töhfə verəcəyinə əminliyini ifadə edib.

Görüşdə Milli Məclis və Pan-Afrika Parlamenti, eləcə də Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi ilə Pan-Afrika Parlamenti arasında əməkdaşlığın inkişaf perspektivləri, beynəlxalq parlament təşkilatları çərçivəsində qarşılıqlı fəaliyyət və ortaq maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova Milli və Regional Parlamentlərin Sədrlərinin Konfransında iştirak edib

**Milli Məclisin Sədri Sahibə Qafarova iyulun 31-də Cənubi Afrika Respublikasına səfəri çərçivəsində Midrand şəhərində Milli və Regional Parlamentlərin Sədrlərinin Konfransında iştirak edib.**





Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Pan-Afrika Parlamentinin təşkilatçılığı ilə keçirilən tədbirdə Afrika ölkələrinin milli və regional parlamentlərinin sədrləri, beynəlxalq parlament təşkilatlarının rəhbərləri və nümayəndələri iştirak ediblər.

Parlamentin spikeri tədbirdə nitq söyləyib. Çıxışında müasir beynəlxalq münasibətlər sistemində baş verən dərin transformasiyalara, davam edən münaqişələrə, iqtisadi bərabərsizliyə və iqlim dəyişikliyinin yaratdığı çağırışlara toxunan Milli Məclisin Sədri vurğulayıb ki, beynəlxalq təsisatlara etimadın getdikcə daha böyük təzyiqlərlə üzləşdiyi mövcud şəraitdə parlamentlər qlobal qərarqəbuletmə proseslərindən kənarda qala bilməzlər. Spiker bildirib ki, parlamentlər vətəndaşların səsini ifadə edir, milli reallıqları beynəlxalq müstəviyə daşıyır, siyasi öhdəliklərin qanunvericilikdə, habelə konkret praktiki fəaliyyətlərdə öz əksini tapmasına töhfə verirlər.

Parlamentlərin qlobal çağırışların həllində artan rolunu qeyd edən spiker, müasir dövrdə parlamentlərin yalnız milli qanunvericilik funksiyasını yerinə yetirən institutlar deyil, həm də beynəlxalq əməkdaşlığın inkişafına töhfə verən mühüm aktorlar olduğunu bildirib. Bu gün burada ilk növbədə Azərbaycan parlamentini, eyni zamanda sədri olduğu Qoşulmama Hərəkatı Parlament Şəbəkəsini təmsil etdiyini deyən Sahibə Qafarova tədbir iştirakçılarının diqqətinə çatdırıb ki, hazırda 70-dən çox ölkənin parlamentini, o cümlədən Afrikanın əksər dövlətlərinin qanunverici orqanlarını bir araya gətirən bu Şəbəkə birgə səylərlə parlamentlərarası əməkdaşlığın inkişafına mühüm töhfə verən nüfuzlu beynəlxalq parlament əməkdaşlığı platformasına çevrilib.



Parlament həmrəyliyinin mücərrəd prinsip deyil, müasir beynəlxalq münasibətlər sistemində praktiki zərurət olduğuna dair qəti inamını ifadə edən parlamentin spikeri mürəkkəb çağırışlar fonunda çoxtərəfli əməkdaşlığın və parlament diplomatiyasının əhəmiyyətinə toxunub. Bu kontekstdə Pan-Afrika Parlamentinin önəmli roluna diqqəti çəkən Sahibə Qafarova qeyd edib ki, qurum Afrikanın birliyi, inkişafı və qlobal mövqeyinin gücləndirilməsi baxışını parlament müstəvisində ifadə edir. Təşkilat həmçinin "Afrika Gündəliyi - 2063"də təsbit olunmuş məqsədləri - öz xalqı tərəfindən idarə olunan, beynəlxalq ictimaiyyətdə layiq olduğu rolu həyata keçirən sülhsevər, çiçəklənən və inteqrasiya olunmuş Afrika ideyasının reallaşdırılmasına xidmət edir. Azərbaycanın bu baxışa dərin hörmətlə yanaşdığını vurğulayan spiker qeyd edib ki, ölkəmiz Afrika dövlətləri ilə münasibətlərinə böyük önəm verir, bərabərlik və qarşılıqlı hörmətə əsaslanan faydalı əməkdaşlığı dəstəkləyir.

Milli Məclisin Sədri əlavə edib ki, Afrika bu gün dünyada yalnız say göstəriciləri ilə deyil, həm də öz ideyaları, prioritetləri və liderliyi ilə təmsil olunmalıdır. O vurğulayıb ki, Afrika artıq qlobal müzakirələrin, sadəcə, obyekti deyil, həmin müzakirələrin formalaşdırılmasına getdikcə daha çox töhfə verir. Bu baxımdan Afrikanın artan rolunun beynəlxalq təsisatlarda, o cümlədən qlobal parlament institutlarında layiqincə əks olunmasının vacibliyi qeyd olunub.

Çıxışında çoxtərəfli əməkdaşlığın və parlament diplomatiyasının inkişaf perspektivlərinə də toxunan Milli Məclisin Sədri müxtəlif siyasi sistemləri və regionları bir araya gətirən mühüm qlobal parlament platforması kimi Parlamentlərarası İttifaqın (PAİ) xüsusi rolunu qeyd edib.

Sahibə Qafarova bildirib ki, həqiqi inklüzivlik bütün regionların yalnız beynəlxalq parlament platformalarında təmsil olunmasını deyil, həm də prioritetlərin müəyyənləşdirilməsi, ideyaların irəli sürülməsi və rəhbərliyin həyata keçirilməsi proseslərində bərabər iştirak imkanına malik olmasını nəzərdə tutur. O vurğulayıb ki, bu baxımdan PAİ ilə Pan-Afrika Parlamenti kimi regional parlament təşkilatları arasında əməkdaşlığın daha da gücləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Spiker qeyd edib ki, məhz belə bir əməkdaşlıq sayəsində PAİ regional parlament təşkilatlarının təcrübəsi və siyasi baxışlarından faydalana, Pan-Afrika Parlamenti isə PAİ-nin qlobal platformasından istifadə etməklə Afrikanın prioritetlərini beynəlxalq parlament gündəliyinə çıxara və qitənin parlament diplomatiyasındakı rolunu daha da gücləndirmək imkanı əldə edə bilər. Onun sözlərinə görə, müasir dövrdə ehtiyac duyulan parlament çoxtərəfliliyi daha geniş təmsilçiliyə, daha sıx əlaqələndirilmiş əməkdaşlığa və bütün regionların reallıqlarına daha həssas yanaşmaya əsaslanmalıdır.

Çıxışının sonunda Milli Məclisin Sədri Sahibə Qafarova Pan-Afrika Parlamenti, eləcə də Afrika ölkələrinin parlamentləri ilə həmrəy olduğunu ifadə edərək, beynəlxalq münasibətlər sistemində Afrikanın daha güclü səsə və daha fəal rola malik olmasının vacibliyini vurğulayıb.

*"Azərbaycan"*

# Yeni güc mərkəzi və nümunəvi əməkdaşlıq modeli

## Azərbaycan və Mərkəzi Asiyanın strateji müttəfiqliyi Avrasiya qitəsində təhlükəsizlik, nəqliyyat və enerji xəritəsini yenidən formalaşdırır, türk dünyasının birliyini möhkəmləndirir

**Avrasiyanın nəqliyyat, enerji və təhlükəsizlik xəritəsi köklü şəkildə yenidən formalaşır. Bu tarixi dəyişikliyin mərkəzində isə Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarının sürətli, hərtərəfli inteqrasiyası dayanır. İkinci Qarabağ müharibəsində qazanılan Zəfərdən sonra Azərbaycanın mövqeyi, enerji bazarındakı əhəmiyyətli rolu və milli maraqlara söykənən çoxvektorlu xarici siyasəti ölkəmizin beynəlxalq nüfuzunu kəskin artırıb. Şərqlə Qərbin arasında əvəzedilməz körpü olan və əsas tranzit mərkəzinə çevrilən Azərbaycanın Mərkəzi Asiya dövlətləri ilə tarixi, mədəni və mənəvi köklərə dayanan əlaqələri Prezident İlham Əliyevin uzaqgörən və praqmatik diplomatik strategiyası sayəsində strateji müttəfiqlik müstəvisinə yüksəlib.**

Bu uğurlu strategiyanın parlaq təzahürlərindən biri kimi Azərbaycanın Qırğızıstanla münasibətləri özünün ən yüksək inkişaf mərhələsinə çatıb. İyulun 30-31-də dövlətimizin başçısının Qırğızıstana dövlət səfəri və iki ölkə arasında strateji müttəfiqlik münasibətlərinin rəsmiləşdirilməsi müstəsna tarixi əhəmiyyət kəsb edir. Səfər çərçivəsində ikitərəfli əlaqələrin təməlini təşkil edən mühüm sənədlərin imzalanması, Prezident İlham Əliyevin Qırğızıstanın ali mükafatı ilə təltif olunması və yüksək səviyyədə keçirilən görüşlər Bakı ilə Bişkek arasında qarşılıqlı etimadın, siyasi dialoqun zirvədə olduğunu nümayiş etdirir. Qazaxıstan və Özbəkistanla rəsmiləşən müttəfiqlik statusunun Qırğızıstanla tamamlanması Azərbaycanın Mərkəzi Asiya regionu ilə hüquqi və siyasi bağlarını daha da gücləndirir.

Azərbaycanın ümumilikdə Mərkəzi Asiya dövlətləri ilə qurduğu çoxşaxəli əməkdaşlıq modeli qlobal miqyasda diqqət çəkir. Region ölkələri arasında formalaşmış yüksəksəviyyəli siyasi dialoq Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşləri çərçivəsində özünün əyani təsdiqini tapıb. Azərbaycan Prezidenti İlham Əliyevin 2023-cü ilin sentyabrında Düşənbədə və 2024-cü ilin avqustunda Astanada keçirilən sammitlərdə xüsusi qonaq qismində iştirak etməsindən sonra, 2025-ci il noyabrın 16-da Daşkənddə keçirilən 7-ci Məşvərət Görüşündə ölkəmizin bu platformada tamhüquqlu iştirakına dair tarixi qərar qəbul olundu. Bununla da əvvəllər "5+1" kimi tanınan format faktiki olaraq C6 müstəvisinə keçərək, Azərbaycanın regionun siyasi, iqtisadi və təhlükəsizlik gündəliyinin formalaşmasında aparıcı və bərabərhüquqlu subyekt olduğunu rəsmiləşdirdi.

Azərbaycan ilə Mərkəzi Asiya dövlətləri arasında əməkdaşlığın institusional əsaslarının daha da möhkəmləndirilməsi istiqamətində növbəti mühüm addım iyulun 31-də Qırğızıstanın Çolpon-Ata şəhərində Azərbaycan və Mərkəzi Asiya ölkələrinin Dövlət Başçılarının qeyri-rəsmi Məşvərət Görüşünün keçirilməsi oldu. Prezident İlham Əliyevin xüsusi əhəmiyyət kəsb edən bu görüşdə iştirakı ölkəmizin bu region ilə formalaşdırdığı uzunmüddətli strateji tərəfdaşlıq xəttinin növbəti mühüm göstəricisidir. Görüşün sonunda tərəflərin ortaq siyasi iradəsini əks etdirən, əməkdaşlığın prioritet istiqamətlərini müəyyənləşdirən Çolpon-Ata Bəyannaməsinin imzalanması Azərbaycan ilə Mərkəzi Asiya dövlətləri arasında əməkdaşlığın mövcud səviyyəsini və gələcək inkişaf istiqamətlərini aydın göstərir. Bəyannamədə ilk növbədə tərəflər arasında əsrlər boyu formalaşmış tarixi, mədəni və sivilizasiya əlaqələrinin xüsusi vurğulanması göstərir ki, bu tərəfdaşlıq təkcə siyasi və iqtisadi maraqlara deyil, ortaq tarixi köklərə, mədəni yaxınlığa və ümumi mənəvi dəyərlərə söykənir. Xüsusilə türk xalqları arasında mövcud olan ortaq dil, mədəniyyət və ənənələr bu münasibətlərin daha da dərinləşdirilməsi üçün əlverişli zəmin yaradır.

Çolpon-Ata Bəyannaməsində Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşündə tamhüquqlu iştirakının xüsusi təqdir olunması isə ölkəmizin regionun ayrılmaz tərəfdaşı kimi qəbul edilməsinin göstəricisidir. Bu status Azərbaycanın Mərkəzi Asiya dövlətləri ilə əməkdaşlığının yeni mərhələyə qədəm qoyduğunu və ölkənin regional qərarların qəbulunda mühüm rol oynadığını nümayiş etdirir. Həmçinin bu, Azərbaycanın türk dünyasının inteqrasiyası istiqamətində həyata keçirdiyi ardıcıl siyasətin beynəlxalq səviyyədə dəstəkləndiyinin növbəti təsdiqidir.

Dövlətimizin başçısı İlham Əliyev Mərkəzi Asiya ölkələrinin Dövlət Başçılarının Görüşündə çıxış edərkən bu strateji kursun mahiyyətini xüsusi vurğulayaraq bildirib ki, Azərbaycan məşvərət formatının fəal üzvü olacaq və öz tərəfindən əməkdaşlığın daha da inkişaf etdirilməsi, ölkələrimizin və xalqlarımızın daha da yaxınlaşması üçün bütün səyləri göstərəcək. Dövlətimizin başçısı bəyan edib ki, Mərkəzi Asiya ölkələri ilə münasibətlər Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biridir. Prezident İlham Əliyev qeyd edib ki, 2023-cü ilin əvvəlindən bu günə qədər Mərkəzi Asiyanın qardaş ölkələrinə ümumilikdə 16 səfər edib, həmin ölkələrdən həmkarları isə 26 dəfə Azərbaycanda səfərdə olublar: "Bu statistika münasibətlərin dinamikasından və yaxınlığından açıq şəkildə xəbər verir, həm də göstərir ki, bu gün Mərkəzi Asiya və Azərbaycan artıq vahid geosiyasi və geoiqtisadi məkana çevrilib". Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Türkmənistan mediasında da Azərbaycanın bu aktivliyi regional liderlik mövqeyinin göstəricisi kimi dəyərləndirilir.

Siyasi müstəvidə formalaşan yüksək etimad və sıx dialoq öz əməli təzahürünü nəqliyyat-logistika sahəsində də göstərir. Xüsusilə yeni geosiyasi reallıqlar fonunda Azərbaycan və Mərkəzi Asiyanın coğrafi mövqeyi logistikanın əsas hissəsinə çevrilib. Nəzərə alaq ki, Rusiya-Ukrayna müharibəsi və Yaxın Şərqdəki gərginlik Avrasiya logistika xəritəsini dəyişərək Orta dəhlizin əhəmiyyətini artırıb. Azərbaycan Xəzər dənizi vasitəsilə Mərkəzi Asiyanı Türkiyə və Avropaya birləşdirən əsas məkandır. Bakı Beynəlxalq Dəniz Ticarət Limanının genişləndirilməsi, Bakı-Tbilisi-Qars dəmir yolunun ötürücülük qabiliyyətinin artırılması, Ələt Azad İqtisadi Zonası və gələcəkdə Zəngəzur dəhlizinin açılması region ölkələrinin dünya bazarlarına çıxışını asanlaşdırır. Təsadüfi deyil ki, son 5 ildə Orta dəhliz vasitəsilə daşımaların həcmi 1 milyon tondan 4,5 milyon tona çataraq əməkdaşlığın real iqtisadi töhfəsini sübuta yetirib.

İki region arasında yüksəksəviyyəli siyasi dialoq real iqtisadi layihələrin və birgə kapitalın dövriyyəyə daxil edilməsi ilə dəstəklənir. Xüsusilə qarşılıqlı sərmayə qoyuluşlarının təşviqi tərəfdaşlığın əsas hərəkətverici qüvvəsinə çevrilir. 300 milyon ABŞ dolları dəyərində Azərbaycan-Qazaxıstan, 500 milyon ABŞ dolları dəyərində Azərbaycan-Özbəkistan və 200 milyon ABŞ dolları dəyərində Azərbaycan-Qırğızıstan Birgə İnvestisiya fondlarının yaradılması münasibətləri yeni müstəviyə daşıyıb. Bu fondlar sənaye, kənd təsərrüfatı, maşınqayırma, gəmiqayırma, loqistika və yüksək texnologiyalar sahələrində birgə layihələrin maliyyələşdirilməsinə birbaşa xidmət edir.

Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında enerji sistemlərinin inteqrasiyası və "yaşıl enerji"nin Xəzər dənizinin altı ilə Avropaya ixracı layihələri geostrateji əhəmiyyətə malikdir. Eyni zamanda Xəzərin dibi ilə çəkilən Bakı-Aktau sualtı fiber-optik kabel layihəsini əhatə edən "Trans-Xəzər Rəqəmsal İpək Yolu" region ölkələrinin rəqəmsal transformasiyasına və rəqəmsal iqtisadiyyatın inkişafına mühüm töhfə verir.

Türk Dövlətləri Təşkilatının bir çox sahəni əhatə edən strateji mexanizmə çevrilməsi türk dünyasının inteqrasiyasını sürətləndirir. Bundan əlavə, Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) və İslam Əməkdaşlıq Təşkilatı (İƏT) çərçivəsində də tərəflər vahid mövqedən çıxış edirlər. Bu uğurlu həmrəyliyin göstəricisi kimi Azərbaycan, Qazaxıstan və Özbəkistanın G-20 sammitinə qonaq qismində dəvət olunması Azərbaycan-Mərkəzi Asiya formatının qlobal səviyyədə tanınan nüfuzunu nümayiş etdirir.

Azərbaycan ilə Mərkəzi Asiya dövlətləri arasındakı əməkdaşlıq ənənəvi ikitərəfli və ya üçtərəfli formatlarla kifayətlənmir, əksinə, daha geniş platformalarla bütövlükdə Avrasiyanın dayanıqlı, təhlükəsiz və iqtisadi baxımdan özünü təmin edən yeni qütbünü formalaşdırır. Azərbaycan və Mərkəzi Asiya ölkələrinin Dövlət Başçılarının Məşvərət Görüşü siyasi dialoq platforması olmaqla yanaşı, həm də Avrasiya məkanında yeni iqtisadi və geosiyasi əməkdaşlıq modelinin formalaşmasına töhfə verən mühüm mexanizmdir. Azərbaycanın platformada tamhüquqlu iştirakı ölkənin Mərkəzi Asiya siyasətinin institusional əsaslarını daha da möhkəmləndirir, regional nəqliyyat və enerji layihələrində rolunu artırır. Eyni zamanda türk dünyasında inteqrasiyanın dərinləşməsinə və qarşılıqlı etimadın möhkəmlənməsinə mühüm töhfə verir.

Beləliklə, Prezident İlham Əliyevin Qırğızıstanda keçirilən Məşvərət Görüşündə iştirakı Azərbaycanın regionun gələcəyinə dair strateji qərarların qəbulunda fəal rol oynayan əsas tərəfdaşlardan biri olduğunu növbəti dəfə təsdiqləyir.

***İsmayıl QOCAYEV,***
*"Azərbaycan"*

# Gürcüstanın baş prokurorunun ölkəmizə səfəri başa çatıb

**Xəbər verildiyi kimi, Gürcüstanın baş prokuroru Giorgi Qvarakidzenin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə işgüzar səfərdə olub.**

Səfər çərçivəsində qonaqlar Baş Prokurorluğun inzibati binalar kompleksində yaradılan iş şəraiti, o cümlədən Elm-Tədris Mərkəzi və kriminalistik laboratoriyanın fəaliyyəti ilə tanış olub. 44 günlük Vətən müharibəsinə həsr edilən memorial qalereyaya baş çəkən qonaqlara Şanlı Zəfərin tarixi ilə yanaşı, törədilən sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, eləcə də onların istintaqı təcrübəsi barədə ətraflı məlumat verilib.

Bundan əlavə, nümayəndə heyəti Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində olub, korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən praktiki fəaliyyətlə, həmçinin əməliyyatların idarə edilməsi mərkəzi və Qaynar xətt əlaqə mərkəzi ilə yaxından tanış olub.

Həmçinin nümayəndə heyəti səfər zamanı xalqımızın zəngin mədəni-mənəvi irsi ilə, o cümlədən Heydər Əliyev Mərkəzi, Azərbaycan Milli Tarix muzeyi və Xalça muzeyi ilə tanış olublar.

Nümayəndə heyətinin Azərbaycana işgüzar səfəri başa çatıb.



# Azərbaycan-Qırğızıstan münasibətləri müttəfiqlik zirvəsindədir

## İki türk dövləti regional sabitliyə və tərəqqiyə xidmət edən tarixi addım atdı

**Qlobal dəyişikliklər fonunda türk dünyasının birliyi istiqamətində yeni və misilsiz dinamika qazanılması diqqət çəkir. Bu tarixi prosesdə xüsusi yer tutan iki köklü dövlət - Azərbaycan və Qırğızıstan öz aralarındakı dostluq, qardaşlıq və strateji tərəfdaşlıq münasibətlərini ən uca pilləyə daşıyır. İyulun sonunda Prezident İlham Əliyevin bu ölkəyə dövlət səfəri, Çolpon-Ata şəhərində keçirilən Azərbaycan və Qırğızıstan Dövlətlərarası Şurasının 3-cü iclası, eləcə də baş tutan yüksəksəviyyəli görüşlər ikitərəfli əlaqələr salnaməsində keyfiyyətcə yeni bir eranın başlanğıcı oldu. İki ölkə arasında illərdir formalaşan qarşılıqlı etimad, siyasi iradə və mənəvi yaxınlıq bu zirvə görüşündə rəsmi olaraq müttəfiqlik səviyyəsinə yüksəldildi. İki qardaş xalqın gələcəyinə işıq salan bu dönüş nöqtəsinin təkcə diplomatik protokol deyil, eyni zamanda böyük bir coğrafiyada sabitliyin və tərəqqinin yeni dayaq sütunu olacağı da şübhə doğurmur.**

### Qarşılıqlı fəaliyyətin ən yüksək səviyyəsi

İyulun 31-də Çolpon-Atada baş tutan görüşlərin hər bir məqamı həm diplomatik, həm də mənəvi baxımdan dərin mənalarla zəngin idi. Dövlətlərarası Şuranın iclasında çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev atılan bu tarixi addımın strateji mahiyyətini belə ifadə etdi:

"... münasibətlərimizi müttəfiqlik səviyyəsinə yüksəldirik. Bu, qarşılıqlı fəaliyyətin ən yüksək səviyyəsidir. Bu, həm münasibətlərimizin xarakterini, həm də ruhunu əks etdirir".

Mətbuata bəyanatında dövlətimizin başçısı müttəfiqlik münasibətlərinin üzərlərinə böyük məsuliyyət qoyduğunu və hər iki ölkənin bu məsuliyyətə hazır olduğunu xüsusi vurğuladı. Azərbaycan və Qırğızıstan beynəlxalq platformalardan tutmuş iqtisadi-ticari əlaqələrə və təhlükəsizlik məsələlərinədək bütün sahələrdə bir-birinə çiyin vermək əzmindədir.

Öz növbəsində Sadır Japarov bəyanatında vurğuladı ki, Qırğızıstan ilə Azərbaycan bir-birini daim dəstəkləyir və qarşılıqlı maraq doğuran məsələlər üzrə mövqelərini uğurla əlaqələndirir: "Məmnunluqla qeyd edirəm ki, Qırğızıstanla Azərbaycan arasında siyasi dialoq bu gün ən yüksək səviyyədədir. Müntəzəm təmaslar və qarşılıqlı etimad bu gün qurulan müttəfiqlik münasibətləri üçün möhkəm zəmin yaradır".

Bu bəyanatlar iki ölkənin artıq, sadəcə, xoşməramlı tərəfdaş deyil, çətinlikdə və uğurda bir-birinə arxalanan həqiqi müttəfiqlər olduğunu bütün dünyaya nümayiş etdirdi.

Çolpon-Atada qardaşlıq, qarşılıqlı hörmət və ehtiramın parlaq rəmzi olaraq keçirilən təltifolunma mərasimi isə görüşlərə xüsusi təsir bağışladı. Qırğızıstan lideri dövlətimizin başçısına ölkəsinin ali mükafatı olan 1-ci dərəcəli "Manas" ordenini, Prezident İlham Əliyev isə Qırğız Respublikasının Prezidentinə Azərbaycanın ən ali təltifi olan "Heydər Əliyev" ordenini təqdim etdi.

Təltifolunma mərasimində çıxış edən Prezident Sadır Japarov Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında körpülərin salınmasında, regional inteqrasiyanın sürətlənməsində Azərbaycan Liderinin müstəsna rolunu vurğuladı: "Siz həmçinin öz nüfuzunuzu ardıcıl olaraq regionda möhkəm sülhün bərqərar olmasına, sabitliyin möhkəmlənməsinə və yeni əməkdaşlıq mühitinin yaranmasına yönəldirsiniz. Ölkələrimiz arasında dostluğun möhkəmləndirilməsinə Sizin sadiqliyiniz Qırğız xalqında dərin hörmət hissləri doğurur. Məhz bu səbəbə görə əziz dostum və qardaşım, Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Heydər oğlu Əliyevin Qırğız Respublikasının ali dövlət mükafatı - "Manas" ordeni ilə təltif olunması qərarını qəbul etdim".

Bu ali mükafatlar təkcə dövlət başçılarının xidmətlərinə verilən yüksək qiymət deyil, həm də iki xalqın bir-birinə bəslədiyi ehtiramın əyani təsdiqi oldu.

### Ortaq məqsədlərə xidmət

31 iyulda Çolpon-Atada imzalanan və mübadilə edilən genişmiqyaslı sənədlər zərfi iki ölkənin gələcək inkişaf xəritəsini müəyyənləşdirir. Liderlərin iştirakı ilə imzalanan "Azərbaycan Respublikası və Qırğız Respublikasının Dövlətlərarası Şurasının üçüncü iclasının Qərarı" və "Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə" ikitərəfli əlaqələrin hüquqi və siyasi təməlini ən yüksək səviyyəyə qaldırdı.

Bu sənədlər tərəflərin yalnız siyasi müstəvidə deyil, həm də iqtisadiyyat, nəqliyyat-logistika, energetika, investisiya və təhlükəsizlik sahələrində uzunmüddətli, sistemli və dərin inteqrasiyaya əsaslanan əməkdaşlıq modelini həyata keçirmək əzmində olduğunu göstərir.

Xüsusilə praktiki iqtisadi əməkdaşlığın əsas hərəkətverici qüvvəsi sayılan Azərbaycan-Qırğız İnkişaf Fondunun yaradılması haqqında sazişə dəyişikliklərin edilməsi böyük əhəmiyyət kəsb edir. Fondun fəaliyyətini yüksək qiymətləndirən Prezident İlham Əliyev bəyanatında deyib: "Bu gün biz birgə Azərbaycan-Qırğız İnvestisiya Fondunun maliyyə vəsaitinin iki dəfə - 200 milyon dollara qədər artırılması barədə razılıq əldə etdik. Əminəm ki, bu da son hədd deyil, çünki fondun fəaliyyəti üzrə bizə nümayiş etdirilən təqdimat konkret məzmunla zənginləşir. Qırğızıstanda həyata keçirilən çoxlu layihə var və onlar birgə istehsal, yeni iş yerləri yaradır, qarşılıqlı fəaliyyətimizin iqtisadi potensialını möhkəmləndirir".

Azərbaycan-Qırğızıstan müttəfiqliyi mənəvi və mədəni layihələrlə daha da zənginləşir. İki qardaş xalqın birliyini ifadə edən əzəmətli rəmzlərdən biri də işğaldan azad edilmiş Qarabağ torpağında - Ağdamda ucalır. Qırğızıstan dövlətinin, xalqının töhfəsi kimi inşa edilən və dahi qırğız eposunun adını daşıyan Manas adına məktəb artıq öz qapılarını şagirdlərin üzünə açıb. Bu təhsil ocağı Qarabağın bərpasında qardaş dəstəyinin və iki xalqın sarsılmaz birliyinin əbədi abidəsidir.

Eyni zamanda İssık-Kul gölünün füsunkar sahilində Azərbaycanın sərmayəsi və dəstəyi ilə ərsəyə gələn beşulduzlu "Baku Resort & Spa" mehmanxanasının açılışı turizm və infrastruktur sahəsindəki real tərəfdaşlığın bariz nümunəsidir.

Prezident İlham Əliyevin Qırğızıstana dövlət səfəri zamanı xalqlarımız arasında mədəni-mənəvi bağları daha da dərinləşdirmək məqsədilə iki ölkənin tarixi və mədəniyyət mərkəzləri arasında birbaşa qardaşlaşma körpüləri salındı. Şuşa - Çolpon-Ata, Qəbələ - Karakol, Gəncə - Oş şəhərlərinin qardaşlaşması xalqlarımızın bir-birinin zəngin irsinə daha yaxından bələd olmasına və birbaşa humanitar əlaqələrin daha da inkişafına təkan verəcək.

Göründüyü kimi, Azərbaycan-Qırğızıstan münasibətləri tarixindəki ən yüksək zirvəyə ucalıb. Tərəflər arasında imzalanan Müttəfiqlik Münasibətləri haqqında Müqavilə iki ölkənin geostrateji mövqeyini daha da möhkəmləndirir, Cənubi Qafqaz ilə Mərkəzi Asiya arasında iqtisadi əlaqələrin artmasına, nəqliyyat, enerji dəhlizlərinin daha səmərəli işləməsinə zəmin yaradır. Bu tarixi müttəfiqlik təkcə Bakı və Bişkekin milli maraqlarına deyil, bütövlükdə türk dünyasının birliyinə, regionda dayanıqlı sülhün, sabitliyin və iqtisadi tərəqqinin təmin olunmasına xidmət edən möhtəşəm nailiyyətdir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Azərbaycan-Qırğızıstan münasibətləri daha geniş regional strategiyanın tərkib hissəsidir



**Azərbaycan Prezidenti İlham Əliyevin Qırğız Respublikasına dövlət səfəri ikitərəfli münasibətlərin inkişafında mühüm mərhələ olmaqla yanaşı, daha geniş geosiyasi məna daşıyır. Müttəfiqlik münasibətləri haqqında Müqavilənin imzalanması göstərir ki, söhbət təkcə Azərbaycan-Qırğızıstan əlaqələrinin yeni mərhələyə yüksəlməsindən deyil, həm də Azərbaycanın Mərkəzi Asiya dövlətləri ilə qarşılıqlı fəaliyyətinin yeni modelinin ardıcıl şəkildə formalaşdırılmasından gedir.**

Milli Məclisin deputatı Sevinc **FƏTƏLİYEVA** qəzetimizə açıqlamasında deyib ki, son illərdə Azərbaycanın xarici siyasəti keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Əgər əvvəllər əsas diqqət ayrı-ayrı tərəfdaşlarla ikitərəfli münasibətlərin inkişafına yönəlirdisə, bu gün Bakı bütövlükdə Mərkəzi Asiya regionu ilə uzunmüddətli əməkdaşlıq sistemini ardıcıl şəkildə qurur. Bu isə ayrı-ayrı təşəbbüslərdən institusional əsaslara söykənən regional əməkdaşlıq modelinə keçidin göstəricisidir. Qırğızıstan bu strategiyada xüsusi yer tutur. İki ölkə arasında siyasi fikir ayrılıqları yoxdur, münasibətlər qarşılıqlı etimad və hörmət prinsipləri əsasında inkişaf edir. Məhz buna görə də münasibətlərin müttəfiqlik səviyyəsinə yüksəldilməsi situativ qərar deyil, uzun illər ərzində formalaşmış siyasi dialoqun məntiqi nəticəsi kimi qiymətləndirilməlidir.

Deputatın fikrincə, diqqətçəkən məqamlardan biri də siyasi yaxınlaşmanın konkret əməkdaşlıq mexanizmləri ilə müşayiət olunmasıdır. Azərbaycan-Qırğızıstan İnkişaf Fondunun nizamnamə kapitalının 200 milyon dollara çatdırılması bunun ən bariz nümunəsidir. Bu qərar göstərir ki, tərəflər siyasi bəyanatlarla kifayətlənməyərək uzunmüddətli investisiya layihələrinin maliyyələşdirilməsinə xidmət edəcək real institusional alətlər formalaşdırırlar.

S.Fətəliyeva bildirib ki, müasir beynəlxalq münasibətlər sistemində dövlətlərarası əlaqələrin davamlılığı artıq yalnız siyasi dialoqun intensivliyi ilə deyil, həm də yaradılmış institutların səmərəliliyi ilə ölçülür: "Birgə fondlar, maliyyə mexanizmləri və koordinasiya platformaları tərəfdaşlığın dayanıqlılığını təmin edən əsas vasitələrə çevrilir. Bu baxımdan Azərbaycan və Qırğızıstan arasında müttəfiqlik münasibətlərinin qurulması daha geniş regional strategiyanın tərkib hissəsi kimi dəyərləndirilməlidir. Azərbaycanın Mərkəzi Asiya siyasəti ayrı-ayrı ölkələrlə münasibətlərin inkişafı ilə məhdudlaşmır. Bakı regionun bütün dövlətləri ilə əməkdaşlığı sistemli şəkildə genişləndirərək, vahid qarşılıqlı fəaliyyət məkanı formalaşdırır. Bu yanaşma yalnız ikitərəfli əlaqələrin möhkəmlənməsinə deyil, bütövlükdə regionda siyasi dialoqun, iqtisadi əməkdaşlığın və institusional əlaqələrin güclənməsinə xidmət edir".

Deputat vurğulayıb ki, mövcud mərhələnin digər mühüm xüsusiyyəti Azərbaycanın beynəlxalq proseslərdə rolunun dəyişməsidir. Respublikamız artıq yalnız regional təşəbbüslərin iştirakçısı deyil, eyni zamanda onların birbaşa təşəbbüskarı və təşkilatçılarından biri kimi çıxış edir. Azərbaycanın irəli sürdüyü təşəbbüslər qarşılıqlı fayda, suverenliyə hörmət və bərabərhüquqlu tərəfdaşlıq prinsiplərinə əsaslanır. Məhz bu yanaşma Mərkəzi Asiya ölkələrinin maraqları ilə üst-üstə düşür və əməkdaşlığın yeni formatlarını təşviq edir. "Prezident İlham Əliyevin Qırğızıstana dövlət səfəri bir daha nümayiş etdirir ki, Azərbaycan diplomatiyası yeni inkişaf mərhələsinə daxil olub. Bu mərhələnin əsas xüsusiyyəti siyasi razılaşmaları, iqtisadi mexanizmləri və uzunmüddətli strateji planlaşdırmanı vahid sistemdə birləşdirmək bacarığıdır. Belə yanaşma Azərbaycanın Mərkəzi Asiyadakı mövqelərini daha da möhkəmləndirməklə yanaşı, Cənubi Qafqaz və Mərkəzi Asiya arasında yeni əməkdaşlıq modelinin formalaşmasına da töhfə verir. Bu baxımdan Azərbaycan ilə Qırğızıstan arasında imzalanmış Müttəfiqlik Müqaviləsi yalnız iki ölkə arasındakı münasibətlərin inkişafını ifadə etmir. O, qarşılıqlı etimada, institusional dayanıqlılığa və uzunmüddətli strateji əməkdaşlığa söykənən yeni regional əməkdaşlıq modelinin formalaşmasının növbəti mühüm mərhələsini əks etdirir".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycan-Mərkəzi Asiya əməkdaşlığında yeni mərhələ - Çolpon-Ata Bəyannaməsi

**XXI əsrdə qlobal və regional münasibətlər sistemində baş verən dinamik dəyişikliklər dövlətlər arasında çoxtərəfli əməkdaşlığın əhəmiyyətini daha da artırır. Xüsusilə ortaq tarixi, mədəni və sivilizasiya dəyərlərini bölüşən ölkələr arasında siyasi dialoqun dərinləşdirilməsi, iqtisadi inteqrasiyanın genişləndirilməsi və təhlükəsizlik sahəsində qarşılıqlı fəaliyyətin gücləndirilməsi regional sabitliyin və davamlı inkişafın əsas şərtlərindən biri kimi çıxış edir. Bu baxımdan Azərbaycan ilə Mərkəzi Asiya dövlətləri arasında son illərdə müşahidə olunan yaxınlaşma təkcə ikitərəfli münasibətlərin inkişafını deyil, həm də bütövlükdə Avrasiya məkanında yeni əməkdaşlıq platformalarının formalaşmasını şərtləndirən mühüm amillərdən hesab olunur.**

Qeyd olunan siyasi və geostrateji amillər fonunda Azərbaycan ilə Mərkəzi Asiya dövlətləri arasında əməkdaşlığın institusional əsaslarının daha da möhkəmləndirilməsi istiqamətində mühüm addımlar atılır. Bu baxımdan iyulun 31-də Qırğızıstanın Çolpon-Ata şəhərində keçirilən Azərbaycan və Mərkəzi Asiya ölkələrinin Dövlət Başçılarının qeyri-rəsmi Məşvərət Görüşü xüsusi əhəmiyyət kəsb edir. Görüşün yekunu olaraq imzalanan Çolpon-Ata Bəyannaməsi tərəflərin ortaq siyasi iradəsini əks etdirən, əməkdaşlığın prioritet istiqamətlərini müəyyənləşdirən və gələcək qarşılıqlı fəaliyyətin əsas prinsiplərini təsbit edən mühüm siyasi sənəd kimi qiymətləndirilir.

AZƏRTAC Çolpon-Ata Bəyannaməsinin əsas müddəalarına və sənədin Azərbaycan-Mərkəzi Asiya əməkdaşlığı baxımından əhəmiyyətinə nəzər salır.

### Tarixi-mədəni irs və beynəlxalq hüququn prinsipləri

Çolpon-Ata Bəyannaməsinin əsas müddəaları Azərbaycan ilə Mərkəzi Asiya dövlətləri arasında əməkdaşlığın mövcud səviyyəsini və gələcək inkişaf istiqamətlərini əks etdirən mühüm siyasi sənəd kimi çıxış edir. Bəyannamədə ilk növbədə tərəflər arasında əsrlər boyu formalaşmış tarixi, mədəni və sivilizasiya əlaqələrinin xüsusi vurğulanması təsadüfi deyil. Bu müddəa göstərir ki, əməkdaşlıq yalnız cari siyasi və iqtisadi maraqlara deyil, ortaq tarixi köklərə, mədəni yaxınlığa və ümumi mənəvi dəyərlərə söykənir. Xüsusilə türk xalqları arasında mövcud olan ortaq dil, mədəniyyət və ənənələr bu münasibətlərin daha da dərinləşdirilməsi üçün əlverişli zəmin yaradır.

Bəyannamədə beynəlxalq hüququn fundamental prinsiplərinə - suveren bərabərlik, dövlətlərin müstəqilliyinə hörmət, ərazi bütövlüyü, dövlət sərhədlərinin toxunulmazlığı və daxili işlərə qarışmamaq prinsiplərinə sadiqliyin bir daha təsdiq olunması xüsusi siyasi əhəmiyyət daşıyır. Bu prinsiplər müasir beynəlxalq münasibətlər sisteminin əsasını təşkil edir və regionda qarşılıqlı etimadın qorunmasına xidmət göstərir.

Sənəddə regional əməkdaşlığın xalqların fundamental maraqlarına cavab verdiyi qeyd olunur. Bu isə göstərir ki, tərəflər iqtisadi inkişafın, təhlükəsizliyin və sosial rifahın təmin edilməsini yalnız birgə fəaliyyət nəticəsində mümkün hesab edirlər. Müasir geosiyasi şəraitdə regional əməkdaşlıq təkcə iqtisadi üstünlüklər yaratmır, eyni zamanda siyasi sabitliyin qorunmasına, yeni çağırışlara qarşı koordinasiyalı fəaliyyətin təmin edilməsinə və dövlətlər arasında etimad mühitinin möhkəmlənməsinə xidmət göstərir. Bəyannamədə ölkələr arasında formalaşmış yüksək siyasi etimadın və mehriban qonşuluq münasibətlərinin xüsusi qiymətləndirilməsi də məhz bu yanaşmanın təzahürüdür.

Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşündə tamhüquqlu iştirakının xüsusi təqdir olunması isə ölkəmizin regionun ayrılmaz tərəfdaşı kimi qəbul edilməsinin göstəricisidir. Bu status Azərbaycanın Mərkəzi Asiya dövlətləri ilə əməkdaşlığının yeni mərhələyə qədəm qoyduğunu və ölkənin regional qərarların qəbulunda mühüm rol oynadığını nümayiş etdirir. Həmçinin bu, Azərbaycanın türk dünyasının inteqrasiyası istiqamətində həyata keçirdiyi ardıcıl siyasətin beynəlxalq səviyyədə dəstəkləndiyinin təsdiqidir.

Bəyannamədə həmçinin dostluq, mehriban qonşuluq, qarşılıqlı hörmət və etimad münasibətlərinin gələcəkdə də möhkəmləndirilməsi barədə iradə ifadə olunur. Qarşılıqlı etimad mühiti siyasi dialoqun davamlılığı, iqtisadi layihələrin uğurla həyata keçirilməsi və regional problemlərin sülh yolu ilə həlli üçün mühüm zəmin yaradır.

### Ticarət, investisiya və nəqliyyat-logistika əməkdaşlığı

Dövlət başçılarının müntəzəm siyasi dialoqun və praktiki əməkdaşlığın inkişaf etdirilməsinə hazır olduqlarını bəyan etmələri münasibətləri institusional əsasda genişləndirmək niyyətindən xəbər verir. Bu çərçivədə ticarət dövriyyəsinin artırılması, sənaye kooperasiyasının genişləndirilməsi, qarşılıqlı investisiyaların təşviqi və nəqliyyat-logistika sahəsində əməkdaşlığın gücləndirilməsi regionun iqtisadi potensialının daha səmərəli istifadəsinə imkan yaradacaq. Nəqliyyat və logistika sahəsində əməkdaşlıq bəyannamənin mühüm istiqamətlərindən biridir. Xüsusilə Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun inkişafına xüsusi diqqət yetirilməsi Azərbaycanın Avropa ilə Asiyanı birləşdirən əsas tranzit ölkələrdən biri kimi rolunu daha da gücləndirir. Bu marşrut yükdaşımaların sürətləndirilməsinə, beynəlxalq ticarətin genişlənməsinə və region ölkələrinin qlobal nəqliyyat şəbəkələrinə inteqrasiyasına mühüm töhfə verir. Digər alternativ nəqliyyat marşrutlarının əlaqələndirilməsi isə regionun logistika imkanlarını daha da artıracaq.

Energetika sahəsində əməkdaşlığın, xüsusilə "yaşıl enerji" istiqamətinin ön plana çıxarılması qlobal enerji keçidi prosesində tərəflərin ortaq maraqlarını əks etdirir. Azərbaycanın bərpaolunan enerji sahəsində həyata keçirdiyi layihələr, Mərkəzi Asiya dövlətlərinin isə zəngin enerji potensialı gələcəkdə bu istiqamətdə genişmiqyaslı regional əməkdaşlıq üçün əlverişli imkanlar yaradır. Eyni zamanda enerji təhlükəsizliyinin möhkəmləndirilməsi və qarşılıqlı faydalı layihələrin həyata keçirilməsi regionun iqtisadi dayanıqlılığını artıracaq mühüm amillərdəndir.

Bəyannamədə rəqəmsallaşma, innovasiya, elm və texnika, süni intellekt, rəqəmsal infrastruktur və kosmik texnologiyalar sahələrində əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyi də xüsusi vurğulanır. Bu istiqamətlər müasir dövrdə dövlətlərin rəqabət qabiliyyətini müəyyənləşdirən əsas amillərdən hesab olunur. Elmi biliklərin mübadiləsi, innovativ layihələrin həyata keçirilməsi və qabaqcıl texnologiyaların tətbiqi region ölkələrinin davamlı inkişafına, iqtisadiyyatın şaxələndirilməsinə və insan kapitalının gücləndirilməsinə mühüm töhfə verə bilər.

### Regional təhlükəsizlik daha da gücləndirilir

Regional əməkdaşlığın dayanıqlı və uzunmüddətli xarakter daşıması üçün təhlükəsizlik sahəsində qarşılıqlı fəaliyyətin gücləndirilməsi əsas şərtlərdən biri hesab olunur. Bu baxımdan Çolpon-Ata Bəyannaməsində regional təhlükəsizliyə təhdid yaradan çağırışlara qarşı birgə mübarizə məsələlərinə xüsusi yer verilib. Bəyannamədə terrorizm, ekstremizm, transmilli mütəşəkkil cinayətkarlıq, narkotik vasitələrin qanunsuz dövriyyəsi və digər təhlükələrə qarşı birgə mübarizənin vacibliyinin vurğulanması regional təhlükəsizlik məsələlərinin prioritet istiqamətlərdən biri olduğunu növbəti dəfə təsdiqləyir.

Bu təhdidlər ayrı-ayrı dövlətlərin deyil, bütövlükdə regionun təhlükəsizliyinə təsir göstərdiyindən onların aradan qaldırılması yalnız koordinasiyalı fəaliyyət və qarşılıqlı əməkdaşlıq yolu ilə mümkündür. Bu baxımdan təhlükəsizlik sahəsində informasiya mübadiləsinin, hüquq-mühafizə orqanları arasında əməkdaşlığın və beynəlxalq təşkilatlar çərçivəsində birgə fəaliyyətin genişləndirilməsi mühüm əhəmiyyət daşıyır.

### Humanitar əməkdaşlıq və turizm əlaqələri diqqət mərkəzindədir

Bəyannamədə humanitar əməkdaşlığın genişləndirilməsi ilə bağlı müddəalar isə xalqlar arasında qarşılıqlı anlaşmanın və dostluğun möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Mədəniyyət, təhsil, elm, gənclər siyasəti və turizm sahələrində əməkdaşlığın inkişaf etdirilməsi dövlətlərarası münasibətlərin yalnız siyasi səviyyədə deyil, cəmiyyətlər arasında da dərinləşməsinə xidmət edir. Xüsusilə universitetlər, elmi-tədqiqat və analitik mərkəzlər arasında əməkdaşlığın genişləndirilməsi yeni elmi layihələrin həyata keçirilməsinə, mütəxəssis hazırlığının gücləndirilməsinə və ortaq elmi platformaların formalaşmasına şərait yarada bilər.

Sənəddə mədəni və sivilizasiya müxtəlifliyinin, tarixi ənənələrin və mənəvi irsin qorunmasına verilən önəm də xüsusi diqqət çəkir. Bu yanaşma göstərir ki, tərəflər inteqrasiya prosesini milli kimliklərin və mədəni müxtəlifliyin qorunması prinsipi əsasında inkişaf etdirmək niyyətindədirlər. Belə yanaşma region xalqları arasında qarşılıqlı hörmətin və tolerantlığın daha da möhkəmlənməsinə xidmət edir.

Turizm sahəsində əməkdaşlığın genişləndirilməsi və regionun turizm cəlbediciliyinin artırılmasına yönəlmiş təşəbbüslərin dəstəklənməsi isə iqtisadi əməkdaşlıqla yanaşı, xalqlar arasında birbaşa əlaqələrin inkişafına da mühüm töhfə verəcək.

Beləliklə, qeyd etmək olar ki, Çolpon-Ata Bəyannaməsi Azərbaycan ilə Mərkəzi Asiya dövlətləri arasında münasibətlərin yeni mərhələyə qədəm qoyduğunu nümayiş etdirən mühüm siyasi sənəd olmaqla yanaşı, gələcək əməkdaşlığın strateji istiqamətlərini də müəyyənləşdirir. Sənəddə əksini tapan müddəalar siyasi dialoqun dərinləşdirilməsinə, iqtisadi inteqrasiyanın genişlənməsinə, təhlükəsizliyin möhkəmləndirilməsinə və humanitar əlaqələrin inkişafına xidmət etməklə yanaşı, regionda uzunmüddətli sülh, sabitlik və davamlı inkişaf üçün möhkəm əsas yaradır.

# 1 Avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günüdür

## Milli kimliyimizin, dövlətçiliyimizin və mənəvi dəyərlərimizin əbədi dayağı

**Hər bir xalqın milli varlığını, tarixi yaddaşını, mədəni irsini və mənəvi dəyərlərini yaşadan ən müqəddəs sərvətlərdən biri onun ana dilidir. Azərbaycan dili də xalqımızın əsrlər boyu formalaşmış zəngin mədəniyyətinin, milli kimliyinin və dövlətçilik ənənələrinin daşıyıcısı və müstəqil Azərbaycan dövlətinin əsas atributlarından biridir. Məhz buna görə də hər il avqustun 1-də ölkəmizdə qeyd olunan “Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü” milli-mənəvi dəyərlərimizə ehtiramın, dövlət dilimizin inkişafına göstərilən qayğının və milli həmrəyliyimizin təcəssümü kimi qəbul olunur.**

Ümummilli Lider Heydər Əliyev Azərbaycan dilinin xalqımızın milli varlığının əsasını təşkil etdiyini xüsusi vurğulayaraq deyirdi: “Dil hər bir millətin milliliyinin əsasıdır”. Ulu Öndər qeyd edirdi ki, müxtəlif dillərə mənsub insanlar belə Azərbaycan dilinin ahəngini eşidərək onun poetikliyini və gözəlliyini yüksək qiymətləndirirlər. Heydər Əliyevin fikrincə, hər bir Azərbaycan gənci ana dilini mükəmməl bilməli, onun zəngin imkanlarından düzgün istifadə etməli və dövlət dilinin cəmiyyət həyatında hakim mövqeyini qorumağa çalışmalıdır.

### Ana dilinin inkişafına qarşı süni maneələr və milli iradənin təntənəsi

XX əsrin 70-ci illərinin ortalarından etibarən keçmiş SSRİ-də milli dillərin sıxışdırılması siyasəti daha da gücləndirilmişdi. SSRİ-nin yeni Konstitusiyasının qəbulundan sonra ittifaq respublikalarında milli dillərin ictimai-siyasi həyatdan sıxışdırılması istiqamətində məqsədyönlü addımlar atılırdı. Belə bir mürəkkəb şəraitdə ana dili məsələsini müdafiə etmək böyük siyasi cəsarət və milli məsuliyyət tələb edirdi. 1930-cu illərin repressiyaları dövründə ana dili məsələsini gündəmə gətirən ziyalıların ağır təqiblərə məruz qalması bu sahədə mövcud təhlükələri açıq şəkildə göstərirdi.

Məhz belə bir dövrdə respublika rəhbəri Heydər Əliyev milli maraqları qətiyyətlə müdafiə edərək dövlət dili uğrunda ardıcıl mübarizə aparırdı. Ulu Öndər ana dilinin qorunmasını milli kimliyin, xalqın gələcəyinin və dövlətçilik düşüncəsinin əsas şərtlərindən biri hesab edir, ziyalıları və cəmiyyəti bu müqəddəs amal ətrafında birləşdirirdi. Heydər Əliyev SSRİ Konstitusiyasının müzakirələri zamanı vətəndaşların ana dilində təhsil almaq hüququnun təmin edilməsinin vacibliyini xüsusi vurğulayaraq bu hüququn qorunmasının milli inkişaf üçün strateji əhəmiyyət daşıdığını bildirirdi.

### Azərbaycan dilinə dövlət dili statusunun verilməsi – tarixi xidmət

Dilimizin dövlət dili kimi Azərbaycan SSR Konstitusiyasında təsbit olunması Ümummilli Liderin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlərindən biridir. 1978-ci il aprelin 2-də Azərbaycan SSR Ali Sovetinin sessiyasında böyük rəhbərin təşəbbüsü ilə Konstitusiyanın 73-cü maddəsinə “Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir” müddəasının daxil edilməsi həmin dövrün siyasi reallıqları fonunda böyük tarixi hadisə idi. Bu qərar Azərbaycan dilinin hüquqi statusunun qorunmasını təmin etməklə yanaşı, gələcək müstəqil dövlətçiliyimizin ideoloji əsaslarının formalaşmasına da mühüm töhfə verdi.

Müstəqillik dövründə də Heydər Əliyev bu siyasəti ardıcıl davam etdirərək dövlət dilinin hüquqi əsaslarını daha da möhkəmləndirdi. 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasının 21-ci maddəsində dövlət dilinin məhz Azərbaycan dili olması təsbit olundu. Bu, xalqımızın milli iradəsinin və müstəqil dövlətçilik prinsiplərinin mühüm ifadəsi idi.

### Dövlət dilinin tətbiqi sahəsində mühüm hüquqi islahatlar

Azərbaycan dilinin inkişafı istiqamətində həyata keçirilən dövlət siyasətində 2001-ci il mühüm mərhələ oldu. Heydər Əliyevin imzaladığı “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” fərman dilimizin qorunması və tətbiqinin genişləndirilməsi sahəsində yeni mərhələnin əsasını qoydu. Həmin fərman əsasında Azərbaycan Prezidenti yanında Dövlət Dil Komissiyası yaradıldı və dil siyasətinin həyata keçirilməsi institusional əsaslarla təmin olundu.

Elə həmin il imzalanan “Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi haqqında” sərəncama əsasən, hər il avqustun 1-i ölkəmizdə “Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü” kimi qeyd olunmağa başladı. Bu qərar qloballaşma şəraitində milli dilimizin qorunması, latın qrafikalı əlifbanın tam tətbiqi və milli-mənəvi dəyərlərin möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

2002-ci ildə qəbul edilən “Azərbaycan Respublikasında dövlət dili haqqında” qanun isə dövlət dilinin hüquqi statusunu tam şəkildə müəyyənləşdirdi. Qanunda Azərbaycan dilinin müstəqil dövlətçiliyimizin başlıca əlamətlərindən biri olduğu vurğulanaraq onun tətbiqi, qorunması və inkişaf etdirilməsinin dövlətin əsas vəzifələrindən biri olduğu təsbit edildi.

Nazirlər Kabinetinin 2019-cu il tarixli qərarı ilə təsdiq edilmiş “Azərbaycan dilinin orfoqrafiya normaları” isə müasir dövrdə yazı mədəniyyətinin təkmilləşdirilməsi və vahid dil normalarının qorunması istiqamətində mühüm hüquqi baza yaratdı.

### Prezident İlham Əliyev ana dilimizin inkişafı siyasətini uğurla davam etdirir

Bu gün Heydər Əliyevin müəyyən etdiyi dil siyasəti Prezident İlham Əliyev tərəfindən müasir dövrün çağırışlarına uyğun davam etdirilir. Dövlətimizin başçısı dəfələrlə vurğulamışdır ki, Azərbaycan dilinin saflığının qorunması hər bir Azərbaycan vətəndaşının işi olmalıdır. Bu fikir dövlətin dil siyasətinin əsas mahiyyətini ifadə etməklə yanaşı, hər bir vətəndaşın ana dili qarşısında məsuliyyətini də müəyyən edir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dilinin inkişafı istiqamətində ardıcıl və sistemli tədbirlər həyata keçirilmişdir. Latın qrafikalı nəşrlərin genişləndirilməsi, Azərbaycan Milli Ensiklopediyasının hazırlanması, dünya ədəbiyyatı nümunələrinin Azərbaycan dilində nəşri, “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı”nın qəbul edilməsi, Azərbaycan dilinin elektron məkanda istifadəsinin genişləndirilməsi və dövlət dilinin saflığının qorunmasına dair mühüm fərmanlar bu siyasətin uğurlu nəticələridir.

2018-ci ildə imzalanmış “Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” fərman dövlət dilinin qorunması sahəsində yeni mərhələnin başlanğıcı oldu. 2025-ci il 31 iyul tarixli fərmanla isə Azərbaycan dilinin tətbiqinə və dil normalarına əməl olunmasına nəzarət funksiyalarının Mədəniyyət Nazirliyinə həvalə edilməsi bu sahədə dövlət nəzarətinin daha da gücləndirilməsini təmin edir.

### Ana dilini qorumaq hər birimizin vətəndaşlıq borcudur

Müasir qloballaşma və rəqəmsal transformasiya şəraitində ana dilinin qorunması xüsusi aktuallıq kəsb edir. Xarici sözlərin lüzumsuz istifadəsi, dil



normalarının pozulması və nitq mədəniyyətinə laqeyd münasibət milli kimliyimiz üçün müəyyən çağırışlar yaradır. Buna görə də dövlət qurumları ilə yanaşı, alimlər, müəllimlər, yazıçılar, jurnalistlər, ziyalılar və bütövlükdə cəmiyyət Azərbaycan dilinin saflığının qorunmasına öz töhfəsini verməlidir.

Azərbaycan dili bu gün dünyanın müxtəlif ölkələrində yaşayan milyonlarla soydaşımızı birləşdirən mənəvi körpüdür. Bu dil xalqımızın tarixi yaddaşını, milli-mədəni irsini və dövlətçilik ənənələrini yaşadır. Ümummilli Lider Heydər Əliyevin “Xalqı xalq edən, milləti millət edən onun ana dilidir” fikri indi də öz aktuallığını qoruyur və milli ideologiyamızın əsas prinsiplərindən biri kimi yaşayır.

“Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü”ndə bir daha əminliklə demək olar ki, ana dilimizin qorunması və inkişaf etdirilməsi milli dövlətçiliyimizin möhkəmləndirilməsi, milli kimliyimizin yaşadılması və gələcək nəsillərin vətənpərvərlik ruhunda tərbiyə olunmasının başlıca şərtlərindən biridir. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu, Prezident İlham Əliyevin isə müasir dövrün tələblərinə uyğun olaraq uğurla davam etdirdiyi dövlət dil siyasəti Azərbaycan dilinin əbədi yaşamasına, zənginləşməsinə və dünya miqyasında nüfuzunun daha da artmasına xidmət edir.

*İlqar İLYASOV,*
*YAP Qaradag rayon təşkilatının sədri*

## “Azərbaycan dili fenomeni: milli sərvətdən geostrateji resursa doğru”



**25 ildir ki, ölkəmizdə 1 avqust tarixində Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü qeyd edilir. Bu ənənə Ulu Öndər Heydər Əliyevin 2001-ci il 9 avqust tarixli “Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi haqqında” fərmanı əsasında yaradılmışdır. Bu tarix yalnız latın qrafikalı Azərbaycan əlifbasına keçid tarixini xatırlamaq üçün deyil, eləcə də müstəqil dövlətçiliyimizin əsas rəmzlərindən biri olan dövlət dilinin hüquqi statusuna və zəngin ədəbi irsimizə ehtiram bildirmək üçün gözəl bir fürsətdir.**

Azərbaycan Respublikası Konstitusiyasının 21-ci maddəsinin I hissəsinə müvafiq olaraq Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Onun dövlət dili kimi hüquqi statusunu nizamlamaq məqsədilə 2002-ci il 30 sentyabr tarixində “Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Bu qanuna əsasən “Azərbaycan Respublikası Azərbaycan dilinin dövlət dili olaraq işlədilməsini öz müstəqil dövlətçiliyinin başlıca əlamətlərindən biri sayır, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi qayğısına qalır, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünüifadə ehtiyaclarının ödənilməsi üçün zəmin yaradır”.

Dövlət dilinin işlənməsi, qorunması və inkişafı sahəsində dövlətin əsas vəzifələri arasında Azərbaycan Respublikası Konstitusiyasının və “Azərbaycan Respublikasında dövlət dili haqqında” qanunun tələblərinə uyğun olaraq dövlət dili ilə bağlı hüquq qaydalarının müəyyənləşdirilməsini; dövlət dilinin tətbiqi işinə, bu dilin işlənməsi və qorunması ilə bağlı qanunvericiliyin müddəalarına riayət olunmasının təmin edilməsini; dövlət dilinin inkişaf proqramının hazırlanması və dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilməsinin təmin edilməsini; dövlət dilinin saflığının qorunması, dilçilik elminin nəzəriyyəsi və praktikasının inkişafı üçün müvafiq şəraitin yaradılması və tədbirlərin həyata keçirilməsini; dövlət dilinin işlənməsi üçün zəruri olan maddi bazanın yaradılmasını, eləcə də xarici ölkələrdə yaşayan azərbaycanlıların Azərbaycan dilində təhsil almalarına, bu dildən sərbəst istifadə etmələrinə kömək göstərilməsini qeyd etmək olar.

Dövlət dilinin saflığının qorunması və onun hüdudsuz imkanlarından düzgün istifadə edilməsi bu gün aktual mövzulardan biridir. 2025-ci ilin 3 noyabr tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubiley yığıncağında etdiyi çıxışında xüsusi olaraq bu məsələyə diqqət yetirmiş və vurğulamışdır: “Azərbaycan dilinin saflığının qorunması hər bir Azərbaycan vətəndaşının işi olmalıdır. Yəni dövlət, alimlər, dilçilər, yazıçılar, şairlər, jurnalistlər, siyasətlə məşğul olanlar bu məsələyə çox böyük diqqət verməlidirlər”.

Əfsuslar olsun ki, bəzən media və internet resurslarında ədəbi dilin normalarının kobud şəkildə pozulması, məişət danışığından istifadə olunması, əcnəbi söz və ifadələrin yersiz işlədilməsi və digər hallara rast gəlinir. Belə halların qarşısının alınması istiqamətində bütün müvafiq qurumların və eləcə də cəmiyyətin səyləri birləşdirilməlidir.

Bu gün ana dili Azərbaycan dili olan on milyonlarla insan qonşu İran, Gürcüstan və Rusiya Federasiyasında, eləcə də bir çox xarici ölkədə yaşayır. Azərbaycan dilində peyk yayımı həyata keçirən platforma yayımçıları Azərbaycanda və dünyada baş verən ən son xəbərlər, o cümlədən günün siyasi, iqtisadi, sosial, hərbi, idman, mədəniyyət və sair hadisələr haqqında məlumatları bu insanlara çatdırmaqla, onları vahid informasiya və mədəni mühitdə birləşdirir.

Azərbaycan dilinin nüfuzunun müasir rəqəmsal mühitdə artırılması üçün məqsədyönlü fəaliyyət aparılmalıdır. Bu baxımdan keyfiyyətli media məzmununun, eyni zamanda filmlərin, podkastların, təhsil platformalarının və ensiklopedik resursların yaradılması olduqca vacibdir. Azərbaycan dilinin rəqabət qabiliyyətinin qlobal məkanda təmin edilməsi üçün rəqəmsal xidmətlər yerli mühitə uyğunlaşdırılmalı və Azərbaycan dili süni intellekt texnologiyalarına inteqrasiya edilməlidir.

Bu resursdan səmərəli istifadə edilməsi bir sıra vacib vəzifələrin, o cümlədən, Azərbaycan dilinin xarici dil kimi tədrisi metodikasının daha da təkmilləşdirilməsinin, xaricdə nəşriyyat dəstəyinin sistemləşdirilməsinin, dilin İT sahəsində iştirakının genişləndirilməsinin və sair həllini tələb edir. Sevindirici haldır ki, bu gün Azərbaycan dili yalnız ölkədaxili ünsiyyət vasitəsi çərçivəsinin hüdudlarından çıxaraq, tədricən xarici siyasət və mədəni diplomatiyanın dinamik və perspektivli alətinə çevrilməkdədir.

*Gülşən PAŞAYEVA,*
*Milli Məclisin deputatı*

## Müstəqil dövlətimiz dilimizin saflığının qorunması üçün ciddi addımlar atır

**Azərbaycan dili xalqımızın milli kimliyini, tarixini, mədəniyyətini və mənəvi dəyərlərini özündə yaşadan ən qiymətli sərvətlərdən biridir. Dil təkcə ünsiyyət vasitəsi deyil, həm də xalqın düşüncə tərzini, dünyagörüşünü, həyat fəlsəfəsini və tarixi yaddaşını nəsildən-nəslə ötürən mənəvi xəzinədir. Ana dilinə sevgi və hörmət hər bir vətəndaşın milli mənsubiyyətinin, vətənpərvərlik hissinin və mənəvi məsuliyyətinin mühüm göstəricisidir.**

Dil xalqın düşüncə tərzidir, onun yaddaşıdır, mənəvi dünyasının ifadəsidir. Bir xalqın tarixini, ədəbiyyatını, musiqisini, dünyagörüşünü və milli xarakterini anlamaq üçün ilk növbədə onun dilinə müraciət etmək lazımdır. Buna görə də ana dilinin qorunması milli varlığın qorunması ilə eyni məna daşıyır.

Avqustun 1-nin Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd edilməsi dövlətimizin ana dilimizə verdiyi yüksək dəyərin ifadəsidir. Bu əlamətdar tarix Azərbaycan əlifbasının inkişaf yolunu, ana dilimizin saflığının qorunmasının vacibliyini və onun cəmiyyətin bütün sahələrində düzgün tətbiqinin əhəmiyyətini bir daha diqqətə çatdırır. Bu əlamətdar gün bizi ana dilimizin zənginliyini öyrənməyə, onu qorumağa və gələcək nəsillərə ötürməyə çağırır.

Azərbaycan dili əsrlər boyu ən ağır sınaqlardan keçib. Tarixin müxtəlif mərhələlərində yad təsirlərə məruz qalmasına baxmayaraq, bu dil öz mahiyyətini və zənginliyini qoruyub.

Qloballaşmanın sürətləndiyi, beynəlxalq əlaqələrin, informasiya mübadiləsinin genişləndiyi bir dövrdə yaşayırıq. Belə bir şəraitdə ana dilinin qorunması daha böyük əhəmiyyət kəsb edir. Müasir dövrdə bir sıra dillər müxtəlif təsirlərlə üzləşərək sıradan çıxıb. Azərbaycan dili isə öz zəngin lüğət tərkibi, ifadə imkanları və qədim ədəbi ənənələri ilə milli varlığımızın təzahürü olaraq qalır.

Azərbaycan dilinin qorunması dövlət siyasətinin mühüm istiqamətlərindən biridir. Dövlət dilinin hüquqi statusunun möhkəmləndirilməsi, onun inkişafı üçün şərait yaradılması və cəmiyyətin bütün sahələrində istifadəsinin təmin olunması milli maraqlara xidmət edir. Eyni zamanda ana dilinə hörmət insanın öz milli kimliyinə hörmətidir. Çünki dilimizin hər bir sözü xalqımızın yaddaşını, hər bir ifadəsi tariximizin müəyyən bir səhifəsini yaşadır. Ona görə də Azərbaycan dilini qorumaq, onun düzgün və zəngin şəkildə istifadəsi hər bir vətəndaşın mənəvi borcudur.

Müstəqil dövlətimiz dilimizin saflığının qorunması üçün ciddi addımlar atır. Prezident İlham Əliyev dövlətimiz, xalqımız üçün mühüm əhəmiyyət daşıyan bu məsələni hər zaman diqqətdə saxlayır. Ötən il noyabrın 3-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) 80 illik yubileyinə həsr olunmuş yığıncaqdakı çıxışında dövlətimizin başçısı ana dilimizin qorunması və inkişaf etdirilməsi ilə bağlı vacib məsələləri diqqətə çatdırdı, görülmüş və görülməsi zəruri işlərdən danışdı: "On il bundan əvvəl mən bu kürsüdən, eyni zamanda Azərbaycan dili haqqında danışmışdım, öz narahatlığımı ifadə etmişdim. Deyə bilərəm ki, son 10 il ərzində bu istiqamətdə lazımi addımlar atılıb. Ancaq desəm ki, vəziyyət məni tam qane edir, əlbəttə ki, səmimi olmaram".




Bu gün Azərbaycan dili təkcə ölkəmizdə deyil, dünyanın müxtəlif bölgələrində yaşayan soydaşlarımız üçün də milli bağlılığın əsas vasitələrindəndir. Xaricdə yaşayan azərbaycanlıların ana dilini mükəmməl bilməsi, bu dili yaşatması milli həmrəyliyin mühüm şərtlərindəndir. Çünki dil yalnız danışıq vasitəsi deyil, həm də xalqın öz kökləri ilə əlaqəsini qoruyan mənəvi körpüdür. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu gün 50 milyondan çox insan üçün Azərbaycan dili ana dilidir.

Dövlət başçısının səsləndirdiyi fikirlər göstərdi ki, Azərbaycan dilinin saflığının qorunması yalnız dil siyasətinin deyil, həm də milli kimliyin, dövlətçilik düşüncəsinin mühüm istiqamətlərindən biridir.

Ana dilinin saflığının qorunması, ilk növbədə, onun daxili imkanlarına hörmətlə yanaşmaqdan başlayır. Azərbaycan dili zəngin lüğət tərkibinə, geniş ifadə imkanlarına malikdir. Bu səbəbdən dilimizdə mövcud olan sözlərin əvəzinə, ehtiyac olmadığı halda xarici sözlərin gətirilməsi dilin inkişafına deyil, əksinə, onun təbii imkanlarının zəifləməsinə səbəb ola bilər. Dövlət başçısının çıxışında diqqət çəkilən əsas məsələlərdən biri də Azərbaycan dilində mövcud olan imkanlardan düzgün istifadə olunmasıdır. Prezident İlham Əliyevin nəzərə çatdırdığı kimi, ana dilimiz qədimdir, çox zəngindir və xarici kəlmələrə ehtiyac da yoxdur: "Düzdür, beynəlxalq leksikon var və hər birimiz bu leksikondan istifadə edirik. Amma əgər Azərbaycan dilində əzəli bir kəlmə varsa, başqa dildən kəlməni gətirib əvəzləmək nə məqsəd daşıyır? Bu, ya səhvdir, ya təxribatdır. Hər ikisi də qəbuledilməzdir".

Müasir dövrdə dilin qarşısında yeni çağırışlar dayanır. Rəqəmsal platformalar və qlobal informasiya axını dillərə müxtəlif təsirlər göstərir. Bu şəraitdə Azərbaycan dilindən düzgün istifadə, xüsusilə gənc nəslin yazı və nitq mədəniyyətinin inkişaf etdirilməsi xüsusi əhəmiyyət daşıyır. Dilimizin imkanlarını qorumaq və genişləndirmək üçün elm, təhsil, media və texnologiya sahələrinin imkanlarından səmərəli istifadə olunmalıdır. Azərbaycan dili yalnız gündəlik ünsiyyət vasitəsi kimi deyil, elm, texnologiya və intellektual fəaliyyət dili kimi də inkişaf etməlidir.

Azərbaycan Respublikasının dövlət dil siyasəti də məhz bu məqsədlərə xidmət edir. Dövlət dilinin qorunması, inkişaf etdirilməsi və cəmiyyətin bütün sahələrində tətbiqi üçün hüquqi baza yaradılıb. Dövlət dilinin nüfuzunun artırılması, onun saflığının qorunması və gələcək nəsillərə ötürülməsi dövlət siyasətinin mühüm istiqamətlərindən biridir. Bununla yanaşı, dilin qorunması yalnız qanunlarla və rəsmi tədbirlərlə məhdudlaşa bilməz. Dil hər bir insanın gündəlik davranışında yaşayır. Küçə reklamlarından tutmuş rəsmi yazışmalara, televiziya və internet məkanından sosial şəbəkələrə qədər bütün sahələrdə Azərbaycan dilinə diqqətli münasibət göstərilməlidir.

Prezident İlham Əliyevin bildirdiyi kimi, biz xalq kimi, millət kimi öz dilimizi qorumasaq, onda yavaş-yavaş bizim milli kimliyimiz də sarsıla bilər.

Azərbaycan dili bizim keçmişdən gələn ən böyük mənəvi mirasımız, milli dayağımız və gələcəyimizin təminatıdır. Dilimizi qorumaqla tariximizi, kimliyimizi və dövlətçilik yaddaşımızı qoruyuruq.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Azərbaycan aparıcı Avropa dövlətlərinin etibarlı tərəfdaşı statusundadır

Müstəqil və çoxvektorlu xarici siyasət yürüdən Azərbaycan Avropa ilə münasibətlərini son illərdə kompleks və çoxşaxəli strateji əməkdaşlıq mərhələsinə qaldırıb. Xüsusən beynəlxalq aləmdə baş verənlər, Cənubi Qafqaz regionunda yaranmış yeni reallıqlar Azərbaycan-Avropa İttifaqı əlaqələrini iqtisadi və geosiyasi zərurətə əsaslanan dayanıqlı tərəfdaşlıq modelinə çevirib. Ölkəmizin qitə dövlətləri ilə əlaqələri təkcə ikitərəfli müstəvidə deyil, regional və qlobal təhlükəsizlik, enerji təminatı, iqtisadi inteqrasiya və nəqliyyat-logistika dəhlizləri baxımından həlledici əhəmiyyət kəsb edir. Qitə ölkələrinin Bakı ilə əməkdaşlığa verdiyi önəm Azərbaycanın regionda və beynəlxalq aləmdə etibarlı tərəfdaş imicini daha da möhkəmləndirir.



Ölkəmizin Balkan regionunun aparıcı dövlətlərindən olan Serbiya Respublikası ilə münasibətləri strateji önəm daşıyır. 1997-ci ildə diplomatik əlaqələrin qurulmasından bu yana iki ölkə arasında münasibətlər qarşılıqlı etimad, dostluq, suverenlik və dövlətlərin ərazi bütövlüyünün toxunulmazlığı prinsipləri üzərində möhkəm dayaqlara söykənir. Serbiyanın Azərbaycanın müstəqilliyini ilk tanıyan dövlətlərdən biri olması və tərəflərin beynəlxalq platformalarda bir-birinin suverenliyini qətiyyətlə dəstəkləməsi ikitərəfli əlaqələrin ideoloji və siyasi təməlini təşkil edir.

İki ölkə arasında siyasi dialoqun yüksək səviyyədə olmasında dövlət başçılarının müdrik uzaqgörənliyi və aralarındakı səmimi, qarşılıqlı etimada söykənən şəxsi dostluq münasibətləri müstəsna rol oynayır. Serbiya Prezidenti Aleksandar Vuçiç hər zaman Prezident İlham Əliyevin liderlik keyfiyyətlərini, qlobal geosiyasi proseslərdəki uzaqgörənliyini və verdiyi sözə hər zaman sadiq olan etibarlı dövlət xadimi imicini yüksək qiymətləndirib. 2026-cı il fevralın 15-də Azərbaycan Prezidenti İlham Əliyevin Serbiyaya rəsmi səfəri tərəfdaşlığın yeni mərhələyə yüksəlməsinə zəmin yaradıb. Səfər çərçivəsində imzalanan mühüm sənədlər siyasi dialoqun, iqtisadi-ticarət əlaqələrinin, energetika və nəqliyyat sahələrində qarşılıqlı fəaliyyətin genişlənməsinə hüquqi zəmin bəxş edib. Prezident İlham Əliyevin müstəqil siyasət yürütmək bacarığı və milli maraqları qətiyyətlə qoruması təkcə regionda deyil, Avropada da böyük rəğbətlə qarşılanır.

Serbiya ilə münasibətlərin praktiki müstəvidə dərinləşməsi bütün sahələrdə özünü büruzə verir. İyulun 28-də Belqradda keçirilən siyasi məsləhətləşmələrin növbəti raundu zamanı xarici işlər nazirliklərinin rəhbər şəxsləri səviyyəsində müqavilə-hüquq bazasının genişləndirilməsi, beynəlxalq təşkilatlar çərçivəsində birgə fəaliyyət geniş təhlil olunub. Görüşlərdə Azərbaycanın regionda dayanıqlı sülhün təşviqi istiqamətində atdığı addımları, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa-yenidənqurma layihələri və mina təhlükəsinin aradan qaldırılması kimi humanitar çağırışlar diqqətə çatdırılıb. Eyni zamanda Serbiya Prezidentinin müşaviri və Milli Assambleyanın rəhbər heyəti ilə keçirilən görüşlər siyasi dialoqun çoxşaxəliliyini təsdiqləyir.

İkitərəfli hərbi əməkdaşlıq planına uyğun olaraq, Serbiya Müdafiə Nazirliyinin nümayəndə heyətinin iyulun 22-də ölkəmizə səfəri, 44 günlük Vətən müharibəsinin təcrübəsinə həsr olunmuş brifinqlərin təşkili və təhsil sistemlərinə dair qabaqcıl təcrübələrin bölüşülməsi təhlükəsizlik sahəsində yüksək etimadın göstəricisidir. Serbiya Azərbaycan qazını idxal edən Avropa ölkələrindən biridir. Azərbaycan qazı Serbiyanın təchizat mənbələrini şaxələndirməklə yanaşı, onun Mərkəzi Avropaya enerji paylanmasında tranzit rolunu möhkəmləndirir. Eyni zamanda Orta dəhliz çərçivəsində nəqliyyat inteqrasiyası ikitərəfli iqtisadi əlaqələrə əlavə stimul verir. Serbiya ilə həyata keçirilən çoxşaxəli əməkdaşlıq Azərbaycanın Balkan regionundakı mövqelərini möhkəmləndirir və ölkəmizin Avropadakı ümumi tərəfdaşlıq şəbəkəsinin uğurlu modellərindən biri kimi çıxış edir.

Azərbaycanın Avropa ölkələri ilə yüksəksəviyyəli münasibətləri geniş coğrafiyanı əhatə edir. Ölkəmiz Avropa İttifaqının 10-dan çox üzv dövləti ilə strateji tərəfdaşlıq haqqında sənədlər imzalayaraq qitənin iqtisadi dayanıqlılığında həlledici mövqeyə sahib olub. İtaliya Azərbaycanın Cənubi Avropadakı ən böyük ticarət tərəfdaşı və Trans-Adriatik Qaz Boru Kəməri (TAP) vasitəsilə enerji təhlükəsizliyini təmin edən strateji müttəfiqidir. O cümlədən Avropanın sənaye mərkəzi olan Almaniya ilə "yaşıl enerji", texnologiya, sənaye və ticarət sahələrində sıx dialoq mövcuddur.

Balkanlar və Qara dəniz hövzəsində strateji tərəfdaşlarımız olan Rumıniya və Bolqarıstan Azərbaycan qazının Avropaya çatdırılmasında və "yaşıl enerji" dəhlizi layihəsinin reallaşmasında əsas mərkəz rolunu oynayırlar. Türk Dövlətləri Təşkilatı müstəvisində Macarıstan ilə də strateji münasibətlər dərinləşir. Çexiya Azərbaycanın Mərkəzi Avropadakı mühüm iqtisadi tərəfdaşlarındandır. "Cənub qaz dəhlizi"nin ilk dayanacaqlarından olan Yunanıstan və Xorvatiya ilə enerji və turizm sahələrində əlaqələr inkişaf yolundadır.

Azərbaycanın Avropa İttifaqı ilə institusional müstəvidə qurulan münasibətləri də xüsusi çəkiyə malikdir. Ölkəmiz Aİ üçün etibarlı enerji təminatçısı olmaqla bərabər, həm də cənub sərhədlərində sabitliyin, təhlükəsizliyin və strateji nəqliyyat dəhlizlərinin həlledici aktoru kimi çıxış edir. Bu tərəfdaşlığın yüksək dinamikası Aİ liderlərinin ölkəmizə səfərləri, intensiv siyasi təmaslar vasitəsilə də yüksəlir. Prezident İlham Əliyevin Brüsselə işgüzar səfərləri, Avropa Şurasının və Avropa Komissiyasının prezidentlərinin Bakıya rəsmi səfərləri tərəflər arasında qarşılıqlı etimadı yeni müstəviyə daşıyıb.

Xüsusilə Bakıda imzalanmış "Avropa Komissiyası ilə Azərbaycan Respublikası arasında Enerji Sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" iki tərəf arasında uzunmüddətli strateji müttəfiqliyin təməlini daha da möhkəmləndirib. Aİ rəhbərliyinin dəfələrlə bəyan etdiyi kimi, Azərbaycan Avropanın enerji xəritəsində və regional inteqrasiya layihələrində əvəzolunmaz tərəfdaşlardan biridir. "Cənub qaz dəhlizi", bərpaolunan enerji layihələri və Qara dənizin dibi ilə elektrik kabelinin çəkilməsi kimi nəhəng təşəbbüslər Avropanın Azərbaycanla sıx əməkdaşlıqda nə qədər maraqlı olduğunun təzahürüdür.

Ümumilikdə, Azərbaycan Avropa qitəsinin enerji təhlükəsizliyinin, nəqliyyat dəhlizlərinin və regional sabitliyin vacib tərəfdaşlarından birinə çevrilib. Aparıcı Avropa dövlətləri ilə strateji tərəfdaşlıq Azərbaycanın qitədəki geosiyasi çəkisini və diplomatiyasının uğurunu şərtləndirən əsas amillərdir.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

● "Yüksəliş" müsabiqəsi

# İnsan kapitalına yatırılan uzunmüddətli sərmayə

**Çağdaş dövrdə dövlətlərin regional və qlobal miqyasda rəqabət qabiliyyətini şərtləndirən əsas amil təbii resurslardan daha çox insan kapitalının keyfiyyət xüsusiyyətləri, psixoloji dayanıqlılığı və intellektual səviyyəsidir. Sosial-iqtisadi inkişafın davamlılığının təmin olunması üçün xüsusi istedada, müasir biliklərə və uyğun idarəetmə səriştələrinə malik insan resurslarının və kadrların müəyyən edilməsi, onların bacarıqlarının inkişafı və dövlət idarəetməsinin məsul vəzifələrinə cəlb olunması strateji əhəmiyyət daşıyır.**



Azərbaycanda postneft və rəqəmsal transformasiya dövrünə hazırlıq çərçivəsində insan kapitalına uzunmüddətli intellektual sərmayə qoyuluşu istiqamətində reallaşdırılan strateji fəaliyyətlərdən biri də məhz "Yüksəliş" müsabiqəsidir. "Yüksəliş" müsabiqəsinə Prezident İlham Əliyevin 26 iyul 2019-cu il tarixli sərəncamı ilə start verilib. Müsabiqənin strateji məqsədi Azərbaycanın dövlət idarəçiliyi sistemi üçün uyğun bilik və bacarıqlara malik perspektiv liderlərin və idarəçilərin seçilib müəyyənləşdirilməsi, onların fərdi qaydada inkişafının hərtərəfli dəstəklənməsi və dövlətin kadr ehtiyatı bankının qurulmasıdır.

Bu strateji fəaliyyət, sadəcə, bir müsabiqə olaraq anlaşılmamalıdır. Çünki bu təşəbbüs dövlətin postneft və rəqəmsal transformasiya dövründə insan kapitalına strateji investisiyasıdır. Müasir dövrdə dövlət idarəçiliyinin effektivliyi strateji xarakterli qərarları qəbul edən kadrların bilik və bacarıqları ilə yanaşı, onların emosional dayanıqlılığından və hazırlıq prosesində gücləndirilən keyfiyyət xüsusiyyətlərindən asılıdır. Məhz buna görə "Yüksəliş" müsabiqəsində potensial namizədlərin bilik və bacarıqları ilə yanaşı komanda işinə meyilli olmaları, mürəkkəb vəziyyətlərdə qərar qəbuletmə qabiliyyətləri, liderlik keyfiyyətləri və etik davranış qaydalarına riayət etmələri fərqli metodlarla qiymətləndirilir.

Müsabiqə iştirakçıları test imtahanları, psixoloji və liderlik sınaqları, situasiya tapşırıqları, fərdi müsahibələr və simulyasiya mərhələlərində bilik və bacarıqları ilə yanaşı emosional və psixoloji xüsusiyyətlərini nümayiş etdirirlər. Qalib olan iştirakçılar fərdi inkişaf üçün pul mükafatından savayı, mentorluq proqramı və təlimlərdə iştirak hüququ da əldə edirlər. Onlar həmçinin Azərbaycanın dövlət idarəçiliyi sisteminin təcrübəli rəhbər vəzifəli şəxsləri ilə tanış olaraq "sosial lift" imkanı qazanırlar. Bunlardan başqa, proqram dövlət idarəçiliyində çalışan rəhbər kadrların praktik təcrübəsinin müsabiqə qalibləri olan potensial rəhbər şəxslərin nəzəri biliklərinə inteqrasiyasını və transferini də təmin edir.

"Yüksəliş" müsabiqəsi Azərbaycanın dövlət idarəçiliyi sistemində meritokratiya prinsip və dəyərlərinin bərqərar olmasına strateji xarakterli töhfə verir. Dövlət idarəçiliyi sistemində insan resurslarının idarə olunmasının bu modelində vəzifə yüksəlişinin təməl meyarı müvafiq biliklər, bacarıqlar və peşəkar keyfiyyətlərdir. Bununla da, vəzifədə yüksəliş prosesində kənar təsirlər minimalaşdırılır və dövlət qulluğunda vəzifə yüksəlişinin şəffaflıq dərəcəsi artırılır.

Bu proses dövlət idarəçiliyi sisteminə və bu sistemin içində ayrı-ayrı elementlərin bir-birinə inamını və etimadını yüksəltməklə, əməkdaşlıq mühitini sağlamlaşdırmaqla sosial kapitalın inkişafına da töhfə verir. Bununla da, güclü insan kapitalı güclü sosial kapitala çevrilir. İnsan kapitalı dövlət idarəçiliyi sistemində bilikli, bacarıqlı, təcrübəli, səriştəli, geniş dünyagörüşlü, öz sahəsində peşəkar olan insan resurslarının formalaşmasına şərait yaradır. Sosial kapital isə həmin peşəkar insan resurslarının və dövlət qurumlarının digər qurumlarla, hər bir qurumun öz daxili strukturları və geniş cəmiyyət təbəqələri ilə inama və etimada əsaslanan əməkdaşlıq mühiti yaratmasına imkan verir. Bu isə dövlət qulluğunun vəzifədə yüksəliş prosesində şəffaflıq amili ilə birləşdikdə bütövlükdə cəmiyyətdə dövlət qurumlarına və dövlət qulluğuna inamı daha da artırır.

Bütün bunlar Prezident İlham Əliyevin 2 fevral 2021-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in "Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı" adlanan 3-cü prioritet istiqamətinə uyğundur. Bu prioritet istiqamətdə yüksək peşə bacarıqlarına sahib olan insan kapitalının formalaşdırılması xüsusi olaraq vurğulanmışdır. Eyni zamanda 29 iyun 2026-cı ildə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın sədrliyi ilə keçirilən Rəqəmsal İnkişaf Şurasının ilk iclasında dövlət qurumlarında qəbul edilən qərarların zamanında və effektiv həyata keçirilməsi müasir innovasiya ekosisteminin formalaşdırılmasının önəmi xüsusi vurğulanmışdır.

Dövlət idarəçiliyində insan kapitalının, dövlət-vətəndaş münasibətlərində isə sosial kapitalın inkişaf səviyyəsi də innovasiya ekosisteminin önəmli elementlərindəndir. Bu baxımdan "Yüksəliş" müsabiqəsi dövlətimizin başçısının müəyyən etdiyi strateji inkişaf prioritetlərinə birbaşa töhfə verməkdədir. Rəqabətli insan kapitalı süni intellekt, robotik həllər və transformativ texnologiyalar dövründə Azərbaycanın regionda və dünyada iqtisadi və siyasi mövqeyini daha da gücləndirəcəkdir. Bu isə Prezident İlham Əliyevin də vurğuladığı Azərbaycanın orta güc statususunun daha da möhkəmlənməsinə xidmət edəcək.

"Yüksəliş" müsabiqəsi Azərbaycanın dövlət idarəçiliyi sistemində insan kapitalının və kadrların intellektual potensialına əsaslanan müasir və effektiv strateji mədəniyyətin ortaya çıxmasına şərait yaradır. Bu müsabiqənin dövlət idarəçiliyində institusional islahatlarla ahəngdar həyata keçirilməsi, ehtiyac duyulan potensial rəhbər kadrların tapılması, onların fərdi inkişafı və məsul vəzifələrə təyin olunması prosesini daha da sürətləndirir.

Dövlət idarəçiliyinin kadr təminatının önəmli təsisatı olan Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası bu prosesdə öz tədris təcrübəsi, toplanmış intellektual potensialı və geniş məzun şəbəkəsi ilə fəal iştirak edir. Yeni dönəmin strateji öncəliyi insan kapitalının fərdi keyfiyyətlərə əsaslanaraq inkişaf etdirilməsi və rəqəmsal transformasiya dövrünün çağırışlarına cavab verməkdir. Azərbaycanın postneft dönəmində davamlı sosial-iqtisadi inkişafının məhək daşı budur.

***Elnur ƏLİYEV,***
***Dövlət İdarəçilik Akademiyası İnzibati idarəetmə fakültəsinin dekanı, dosent***

# Beşinci "YAŞAT" düşərgəsi başa çatıb

**"YAŞAT" Fondunun və "ASAN Könüllüləri" Təşkilatının birgə təşkilatçılığı, "TABİA Group" və "Lankaran Springs Wellness Resort" Hotelin tərəfdaşlığı ilə həyata keçirilən beşinci "YAŞAT" düşərgəsinin sonuncu həftəsi yekunlaşıb.**

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, 14 yaşlı 37 şəhid övladının iştirak etdiyi həftə zəngin və maarifləndirici proqramlarla yadda qalıb. Düşərgədə hər gün səhər proqramı sağlam həyat tərzini təşviq edən fiziki məşqlərlə başlayıb. Şəhid övladları psixoloqlarla qrup terapiyalarında iştirak ediblər. Parkur və piknik saatı kimi müxtəlif əyləncə proqramları iştirakçıların fiziki fəallığının artırılmasına, komanda ruhunun möhkəmləndirilməsinə və asudə vaxtlarının səmərəli təşkilinə töhfə verib.

Bununla yanaşı, "Dayaq Xeyriyyə" Cəmiyyəti tərəfindən ağız və diş sağlamlığının qorunmasına həsr olunmuş maarifləndirici təlim təşkil edilib və uşaqlara gündəlik ağız gigiyenasının əhəmiyyəti barədə faydalı məlumatlar verilib.

Uşaqlar düşərgə müddətində Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə "Sağlam həyat" çərçivəsində səyyar idman avtomobili ətrafında yerləşən idman qurğularında idman normativlərini yerinə yetiriblər.

Asudə vaxtın səmərəli təşkili məqsədilə uşaqlar həftə ərzində intellektual yarışlar və hoteldaxili oyun fəaliyyətlərində iştirak edərək həm istirahət edib, həm də əyləniblər.

Həftə çərçivəsində düşərgə iştirakçısı Rövşən Hüseynovun doğum günü də qeyd olunub.

ASAN Radio/TV-nin təşkilati dəstəyi ilə Xalq artisti Nazpəri Dostəliyevanın və tanınmış müğənni Ceyhun Qalanın iştirakı ilə keçirilən konsert proqramı iştirakçılara xoş ovqat bəxş edib və düşərgənin yaddaqalan anlarından biri olub.

Bununla da beşinci "YAŞAT" düşərgəsi yekunlaşıb. Layihə çərçivəsində ümumilikdə 400-ə yaxın şəhid övladı iştirak edib.

Tərəfdaşlar: "TABİA Group", "Lankaran Springs Wellness Resort" Hotel

Sponsorlar: NEQSOL Holding, Bakcell, "Norm" ASC

Dəstəkçilər: "Bravo", "PASHA Sığorta", "Happy Day Cake", "Badamlı", "Milla"

Media tərəfdaşları: AzTV, İTV, ASAN Radio/TV.

# Yeni nəslin həmrəylik modeli

**Qlobal rəqabətin kəskinləşdiyi, sərhədlərin bağlanması və iqtisadi özünütəcrid cəhdlərinin artdığı bir dövrdə yaşasaq da pərdəarxasında tamamilə əks bir proses gedir. İnsanlar, xüsusilə gənclər sülh və əməkdaşlığı seçirlər. Çünki ortaq qlobal problemləri yalnız bir ölkənin daxilində həll etmək mümkün deyil. Məhz bu reallığı dərk edən yeni nəslin təfəkküründə "biz və onlar" bölgüsü yer almır.**

Beynəlxalq rəy sorğularına, sosial tədqiqatlara əsaslansaq və real statistik rəqəmlərə nəzər salsaq görərik ki, qlobal vətəndaşlıq şüuru cəmiyyətin ən dərin qatlarına qədər nüfuz edir. İnsanlar böyük fəlakətlərlə mübarizə üçün beynəlxalq təşkilatların daha qətiyyətli addımlar atmasını və vəsaitlərin qlobal problemlərə xərclənməsini dəstəkləyirlər. Siyasi gərginliklərə baxmayaraq, gənclər daha çox qlobal məsuliyyəti öz üzərlərinə götürməyə hazırdırlar. Onların birliyi və fəallığı böhranlar içindəki dünya üçün ən böyük ümiddir. Bəşəriyyətin gələcəyi məhz bu yeni nəslin formalaşdırdığı adil, təhlükəsiz və sarsılmaz qlobal həmrəylikdən keçir.

Beynəlxalq əlaqələr üzrə araşdırmalar aparan "Global Nation" Təşkilatının təqdim etdiyi "2026 Qlobal Həmrəylik Hesabatı" dünya miqyasında ictimai rəyin necə köklü şəkildə dəyişdiyini aydın göstərir. Nüfuzlu "Ipsos" sosial tədqiqatlar şirkəti tərəfindən aparılan bu genişmiqyaslı sorğu planetimizin 31 müxtəlif ölkəsini əhatə edib. Tədqiqat çərçivəsində 22 mindən çox yetkin insan arasında sorğu keçirilib. Nəticələrdən məlum olub ki, son bir neçə ildə davam edən durğunluq və geriləmə artıq arxada qalıb. Beynəlxalq əməkdaşlığa olan ictimai dəstək sürətlə bərpa olunur və yüksələn xətt üzrə inkişaf edir.



Mütəxəssislər qlobal həmrəyliyi qiymətləndirmək üçün üç əsas göstəriciyə əsaslanıblar. Birincisi, insanların özlərini, sadəcə, doğma ölkələrinin daxilində yox, həm də planetin bərabərhüquqlu "dünya vətəndaşı" kimi görüb-görməməsidir. İkincisi, ödənilən vergilərin bir hissəsinin aclıq, xəstəlik və qlobal fəlakətlərin həllinə xərclənməsinə razılıq dərəcəsidir. Üçüncüsü isə iqlim dəyişikliyi kimi ümumi təhlükələrə qarşı beynəlxalq təşkilatlara məcburi qərarlar çıxarmaq hüququnun verilməsinə münasibətdir. Sorğu keçirilən 31 ölkənin 24-də hər üç göstərici üzrə artım qeydə alınıb. Ən diqqətçəkən məqam isə odur ki, heç bir ölkədə geriləmə müşahidə olunmayıb. "Global Nation" ekspertləri bu mənzərəni müsbət vəziyyət kimi qiymətləndirirlər. Rəqəmlərdən aydın olur ki, insanlar təcrid olunmaqdan yorulub və birlikdə addımlamağın vacibliyini yenidən dərk edirlər.

Sorğunun təfərrüatları cəmiyyətin artıq daha geniş düşündüyünü aydın göstərir. Son bir ildə özünü "dünya vətəndaşı" hiss edənlərin sayı 33 faizdən 40 faizə yüksəlib. Vergilərinin bir hissəsinin qlobal böhranlara yönəldilməsinə razı olanların sayı 40 faizdən yuxarıya qalxıb. Beynəlxalq təşkilatların məcburi qərarlarını dəstəkləyənlərin göstəricisi isə 50 faizdən 66 faizə çataraq rekord vurub.

Qısa müddətdə baş verən bu artım insanlarda ümumbəşəri dəyərlərin ön plana keçdiyini göstərir. Mütəxəssislər xüsusi olaraq vurğulayırlar ki, özünü dünya vətəndaşı hesab etmək heç də doğma vətənini sevməmək və ya vətənpərvərlikdən imtina etmək demək deyil. İnsanlar həm öz ölkələrinə dərin sevgi bəsləyə, həm də eyni vaxtda bütün insanlığın rifahını düşünə bilərlər. Bu, sadəcə olaraq milli kimliyin üzərinə daha geniş və əhatəli bir qlobal kimlik qatının əlavə olunmasıdır.

Maliyyə dəstəyi vermək istəyi həmrəyliyin, sadəcə, sözdə qalmadığını göstərir. Respondentlərin 40 faizindən çoxu vergilərinin qlobal fəlakətlər və yoxsulluqla mübarizəyə xərclənməsini dəstəkləyir. Ötən il bu göstərici 35 faiz olub. İnsanların öz vəsaitlərini başqalarının çətinliklərinin azaldılmasına yönəltməyə razı olması həqiqi birliyin göstəricisidir.

Eyni zamanda ən böyük dəstək beynəlxalq qurumların səlahiyyətlərinin artırılmasına gəlib. Sorğuda iştirak edənlərin üçdəikisi, təxminən 66 faizi iqlim dəyişikliyi, ətraf mühit və təhlükəsizlik məsələlərində beynəlxalq təşkilatların məcburi qərarlar qəbul etməsini dəstəkləyib. Qərarların əleyhinə olanlar isə 10 faizdir.

Sorğunun ən maraqlı tərəfi isə müxtəlif yaş, gəlir və təhsil qrupları arasındakı müqayisələrdir. Həmrəylik meyli cəmiyyətin bütün təbəqələrində artsa da, bəzi qruplar xüsusilə önə çıxır. Ən böyük sıçrayışı Z nəslinin gəncləri edib. Onlar əvvəlki lider olan M nəslini geridə qoyaraq "ən qlobal düşüncəli nəsil" adını qazanıblar. İnternet dövründə doğulan həmin gənclər üçün sərhədlər şərtidir, onlar başqa ölkələrdəki hadisələrə dərhal reaksiya verir və tez təşkilatlanırlar. Digər diqqətçəkən məqam yaşlı nəslin mövqeyidir. Adətən mühafizəkar olan bu qrupda da qlobal həmrəyliyə dəstək kəskin artıb. Ağsaqqallar gələcək nəsillərə daha dinc planet saxlamaq üçün əməkdaşlığın vacibliyini qəbul edirlər.

Sosioloji təhlillər göstərir ki, həmrəylik dalğası bütün sosial təbəqələri əhatə edir. Məsələn, yüksək gəlirli ailələr vergilərin qlobal problemlərə xərclənməsinə ən böyük dəstəyi verirlər. Əvvəllər beynəlxalq qurumlara şübhə ilə yanaşan aşağı təhsilli qruplar da artıq qlobal qərarları müdafiə edirlər. Son siyasi və sosial proseslər də bunu təsdiqləyir.

Həmçinin 101 ölkədə keçirilən başqa bir sorğuya əsasən, çoxluq vahid dünya parlamenti ideyasını dəstəkləyir. Eyni zamanda "Artemis II" kimi beynəlxalq kosmik layihələr, Sakit okean dövlətlərinin regional icmalar yaratması və BMT-nin insan hüquqları ilə bağlı atdığı addımlar praktiki əməkdaşlığın real nümunələridir.

Beləliklə, 2026-cı ilin göstəriciləri bəşəriyyətin daha şüurlu mərhələyə qədəm qoyduğundan xəbər verir. Böhranlar içində insanların özünəqapanma əvəzinə, həmrəyliyi seçməsi böyük zəfərdir. Ağsaqqallardan tutmuş Z nəslinə qədər milyonlarla insan bu gün eyni dildə danışır. Gələcək məhz bu həmrəylik ideyasını müdafiə edən insanların əlindədir.

***Təhminə VERDİYEVA,***
***"Azərbaycan"***

# REGİONLAR

## Bölgələrdə yeni aqrar inkişaf dövlət proqramının icrası ilə bağlı tədbirlər keçirilir

**QAZAX**

**Ölkənin bütün bölgələrində olduğu kimi, Qazaxda da aqrar inkişafla bağlı yeni dövlət proqramında qarşıya qoyulan vəzifələr üçün tədbirlər görülür. Bu istiqamətdə rayon icra hakimiyyətində iş planı təsdiq edilmiş və həmin planın icrası ilə əlaqədar qərargah yaradılmışdır.**

Bu günlər həmin qərargahın gördüyü işlərlə əlaqədar müşavirə keçirilmişdir. Müşavirədə 2026-2030-cu illərdə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahələrinin inkişafı ilə bağlı rayonda görüləcək işlər geniş təhlil edilmiş, qarşıda duran vəzifələr, istehsal olunan məhsulların həcminin artırılması, sahibkarlara göstərilən dövlət qayğısı, taxıl biçininin mövcud vəziyyəti, biçin zamanı, eləcə də biçindən sonra əkin sahələrinin yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət olunması heyvandarlığın inkişafı istiqamətində görüləcək işlər, əkin sahələrinin suvarılmasının təmin edilməsi və digər məsələlər ətrafında müzakirələr aparılmışdır.

Rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov çıxış edərək rayonda proqramda nəzərdə tutulan tədbirlərin icrasına məsuliyyətlə yanaşıldığını diqqətə çatdırmışdır. Bildirilmişdir ki, torpaq resurslarının qorunması və ondan səmərəli istifadə, müasir suvarma sisteminin inkişaf etdirilməsi, bitkiçilik sahəsi ilə bağlı tədbirlər, intensiv meyvə bağlarının salınması, buğdanın və kartofun məhsuldarlığnın, eləcə də heyvandarlıq məhsullarının istehsalının artırılması qarşıda duran vacib məsələlərdir. Həmçinin rayon ərazisində fəaliyyət göstərən aqroparkların və iri təsərrüfatların fəaliyyəti üçün ayrılmış torpaqlardan, əkinəyararlı digər sahələrdən istifadənin vəziyyətinin öyrənilməsi, aqroparkın əhatə edəcəyi torpaq sahələrinin ölçülərinin və qoyulacaq investisiyaların miqdarının müəyyən edilməsi, texnika parkının mütəmadi olaraq yenilənməsi də diqqət mərkəzində saxlanılan vəzifələrdir.

Sonra Qazax Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Elxan Vəkilov çıxış edərək dövlət proqramının vəzifələrin icrası ilə bağlı görülməsi nəzərdə tutulan işlərin əhəmiyyətindən danışmışdır.

Sahibkarlardan Vüqar Kərimov, Xəyyam Sanıyev, fermerlərdən Asif Yusifov və başqaları çıxış edərək ölkəmizdə sahibkarlara verilən dəstəkdən səmərəli istifadə yollarından söz açmışlar.

**CƏLİLABAD**

**"Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"ndan irəli gələn tədbirlərin Cəlilabadda icrası ilə əlaqədar rayon icra hakimiyyətində yaradılmış qərargahın iclası keçirilib.**

Rayon icra hakimiyyətinin başçısı Rafiq Cəlilov çıxış edərək bildirib ki, ölkə rəhbərliyi tərəfindən təsdiq edilən bu strateji dövlət proqramı regionlarda intensiv təsərrüfatçılığa keçidin sürətləndirilməsi, ərzaq təhlükəsizliyinin təmin olunması və aqrar sektorun inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edir. Rayon ərazisində əkinəyararlı torpaq sahələrinin uçotunun dəqiqləşdirməsi, kənd təsərrüfatına yararlı bütün torpaq sahələrində, o cümlədən iri fermer təsərrüfatlarında və aqroparklarda əkin işlərinin vaxtında və keyfiyyətlə aparılmasının vacibliyindən danışan R.Cəlilov taxıl, kartof, çiyələk və üzüm məhsulları üzrə məhsuldarlığın artırılması istiqamətində zəruri tədbirlərin görülməsinin əhəmiyyətindən söz açıb. Su itkilərinin azaldılması, suvarma suyundan səmərəli istifadənin təmin edilməsi və kənd təsərrüfatı bitkiləri üzrə məhsuldarlığın artırılması üçün müasir suvarma sistemlərinin tətbiqi istiqamətində tədbirlərin həyata keçirilməli olduğunu deyən natiq rayonda heyvandarlıq sahəsinin inkişaf etdirilməsi, mal, qoyun və quş əti, süd və yumurta istehsalının artırılması, habelə məhsuldarlığın yüksəldilməsi istiqamətində müvafiq tədbirlərin görüləcəyini diqqətə çatdırıb.

RİH başçısı həmçinin dövlət proqramından irəli gələn tədbirlərin vaxtında və keyfiyyətlə icrasının təmin edilməsi, aidiyyəti dövlət qurumları arasında fəaliyyətin əlaqələndirilməsi, dövlət-özəl tərəfdaşlığının genişləndirilməsi və sahibkarlıq subyektləri ilə qarşılıqlı əməkdaşlığın gücləndirilməsi istiqamətində aidiyyəti şəxslərə müvafiq tapşırıq və tövsiyələrini verib.

Tədbirdə digər çıxış edənlər də həyata keçirilməsi ilk növbədə vacib olan məsələlərdən söz açıb və fikir mübadiləsi aparıblar.

**MASALLI**

**Rayonun Təzə Alvadı kəndində rayon icra hakimiyyətinin təşkilatçılığı ilə "Kartof və taxıl yığımının yekunu, növbəti əkin üçün qarşıda duran vəzifələr" mövzusunda rayon müşavirəsi keçirilib.**

Tədbiri açan RİH-in başçısı Araz Əhmədov Prezidentin 25 may 2026-cı il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın ölkənin aqrar sektorunun inkişafında mühüm əhəmiyyət daşıdığını qeyd edib. A.Əhmədov dövlət başçısının kənd təsərrüfatının inkişafına göstərdiyi diqqət və qayğının aqrar sahədə əldə olunan uğurların əsasını təşkil etdiyini vurğulayaraq Masallıda da bu istiqamətdə mühüm nəticələrin əldə olunduğunu bildirib. Eyni zamanda mövcud çətinliklərin aradan qaldırılması istiqamətində aidiyyəti qurumlar tərəfindən zəruri tədbirlərin davam etdirildiyini diqqətə çatdırıb.

Masallı rayon DAİM-in direktoru Seymur Nuriyev məruzəsində qeyd edib ki, ölkədə regionların sosial-iqtisadi inkişafına dair qəbul olunmuş dövlət proqramları kənd təsərrüfatının ənənəvi sahələrinin inkişafına, kənd əhalisinin rifahının yüksəlməsinə və məşğulluğun artmasına mühüm töhfə verib. Bildirib ki, yeni dövlət proqramının əsas məqsədi aqrar sahənin dayanıqlı və rəqabətqabiliyyətli inkişafını təmin etməklə ərzaq təhlükəsizliyinin gücləndirilməsi, daxili istehsalın, məhsuldarlığın və ixrac potensialının artırılması, həmçinin balıqçılıq və akvakultura sahələrinin inkişafına nail olmaqdır.

Masallı Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin rəisi Akif Həmidov çıxışında cari ildə əkin sahələrinin suvarma suyu ilə təminatında ciddi problem yaşanmadığını bildirib. Qeyd olunub ki, Viləşçay su anbarının ikinci növbəsinin tikintisi başa çatdıqdan sonra rayonda su ehtiyatları iki dəfədən çox artacaq ki, bu da gələcəkdə əkin sahələrinin su təminatının daha da yaxşılaşdırılmasına imkan verəcək.

Fövqəladə Hallar Nazirliyi Cənub Regional Dövlət Yanğın Nəzarəti İdarəsinin nümayəndəsi, daxili xidmət mayoru Səməd Bağırov diqqətə çatdırıb ki, aparılan maarifləndirmə tədbirləri və yerli icra strukturları ilə səmərəli əməkdaşlıq nəticəsində cari ildə yanğın hadisələrinin sayı ötən illə müqayisədə 81 faiz azalıb, meşə yanğınları isə ümumiyyətlə qeydə alınmayıb.

"Aqrolizinq" ASC-nin Masallı-Yardımlı rayon bölməsinin rəhbəri Hikmət Xəlilov taxıl biçini mövsümünə hazırlıq tədbirlərindən başlamış bu günə qədər işlərin düzgün qurulduğunu nəzərə çatdırıb və bildirib ki, kombaynların vaxtında təmir və sazlanması, yanacaq, sürtkü materialları, ehtiyat hissələri və yanğınsöndürmə vasitələri ilə təmin edilməsi nəticəsində rayon üzrə taxıl yığımı təhlükəsizlik qaydalarına tam əməl olunmaqla itkisiz və vaxtında başa çatdırılıb.

Müşavirədə çıxış edən Təzə Alvadı kəndindən kartofçuluqla məşğul olan fermer Arif Bağırov, Qədirli kəndindən taxılçı fermer Nurulla Şükürov və digər fermerlər rayonda aqrar sahənin inkişafı üçün yaradılan şəraiti yüksək qiymətləndiriblər.

*Sabir ƏLİYEV,*
*Seyran CAVADOV,*
*"Azərbaycan"*



## Aqrar sektor ilin birinci yarısını hansı göstəricilərlə başa vurub

**Kəndlinin yay qayğıları bitib-tükənmək bilmir. Xüsusilə, ilin bu qora bişirən ayı kəndli və fermerlər üçün ən məsul dövrlərdən biridir. Onlar zəhmətlə yetişdirdikləri məhsulu vaxtında və itkisiz toplamaq üçün hər yanda səylə çalışırlar.**

Üstəlik, məhsulu gecikmədən bazara çatdırmaq, yaxud qış üçün tədarük etmək lazımdır. Arpa-buğdasını biçən taxılçı məhsulunu xırmana daşımalı, tədarük məntəqələrinə göndərməlidir. Bostan və tərəvəz yetişdirənlər sahələrin suvarılmasını unutmamalı, bağbanlar dəymiş meyvələri vaxtında dərib satış məntəqələrinə göndərməli, yaxud soyuducu anbarlara yığmalıdırlar. Bir sözlə, qeyd etdiyimiz kimi, indi kəndlinin işi, necə deyərlər, başından aşır.

Bəs, statistik rəqəmlər bu il Azərbaycan kəndində gedən işlər barədə nə deyir?

Dövlət Statistika Komitəsindən aldığımız son məlumata görə, bu ilin yanvar-iyun ayları üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 7085,3 milyon manat təşkil etmişdir ki, onun da 3776 milyon manatı heyvandarlıq, 3309,3 milyon manatı isə bitkiçilik məhsullarının payına düşür.

2025-ci ilin yanvar-iyun ayları ilə müqayisədə kənd təsərrüfatının ümumi məhsulu real ifadədə 2,2 faiz, o cümlədən heyvandarlıq məhsulları istehsalı 2,5 faiz, bitkiçilik məhsulları istehsalı 1,8 faiz artmışdır.

Bitkiçilik sahəsi üzrə rəqəmlərə nəzər salaq. Ölkədə yazlıq kənd təsərrüfatı bitkilərinin əkini artıq başa çatmışdır. 2026-cı il iyulun 1-nə kimi 378,4 min hektar sahədə yazlıq bitkilər əkilmişdir.

Kənd təsərrüfatı məhsullarının yığımı davam edir və iyul ayının 1-nə kimi qarğıdalı da daxil olmaqla, tarlalardan 2058,7 min ton və ya keçən ilin müvafiq dövrünə nisbətən 3,1 faiz az dənli və dənli paxlalı bitkilər, 2311,3 min ton (0,7 faiz çox) yem bitkiləri, 822,5 min ton (0,2 faiz çox) tərəvəz, 394,5 min ton (7,5 faiz çox) kartof, 217,9 min ton (16,8 faiz çox) meyvə və giləmeyvə, 130,4 min ton (1 faiz çox) bostan məhsulları, 20,5 min ton (50,3 faiz çox) şəkər çuğunduru, 623,9 ton (3,8 faiz az) tütün, 599,6 ton (4,8 faiz çox) yaşıl çay yarpağı yığılmışdır.

Rəqəmlər ilin əvvəlindən heyvandarlıq sahəsindəki göstəriciləri isə belə əks etdirir. Cari ilin yanvar-iyun aylarında quş əti də daxil olmaqla, diri çəkidə 305,1 min ton ət, 1140,8 min ton süd, 1217,4 milyon ədəd yumurta, 13,1 min ton yun, 155 ton barama istehsal olunmuşdur. 2025-ci ilin yanvar-iyun ayları ilə müqayisədə ət istehsalı 4 faiz, süd istehsalı 0,3 faiz artmış, yumurta istehsalı eyni səviyyədə qalmış, yun istehsalı 2 faiz, barama istehsalı 16,8 fazi azalmışdır.

2026-cı ilin yanvar-iyun aylarında quşçuluq müəssisələrində diri çəkidə 53 min ton quş əti və 602,5 milyon ədəd yumurta istehsal olunmuşdur. Ümumilikdə bu müəssisələr üzrə 1 iyul tarixinə cəmi quşların sayı 13860,1 min baş olmuş, hər yumurtalayan toyuqdan orta hesabla 132 ədəd yumurta alınmışdır.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

### Alimlər təklif edir

## Azərbaycan kəndlisinin köməyinə Samuray arısı gəlir

### Xaricdən gətirilən bu arı növü zərərverici qəhvəyi mərmər bağacığının qənimidir

**Son illər Azərbaycanda kənd təsərrüfatı üçün yeni təhlükələrdən biri də qəhvəyi mərmər bağacığının sürətlə yayılmasıdır. Mənşəcə Şərqi Asiyadan olan bu invaziv zərərverici hazırda dünyanın ən təhlükəli kənd təsərrüfatı zərərvericilərindən biri hesab edilir. Onun sürətlə çoxalması, 300-dən artıq bitki növü ilə qidalanması və müxtəlif iqlim şəraitinə asan uyğunlaşması nəticəsində meyvəçilik, tərəvəzçilik və meşə təsərrüfatına ciddi iqtisadi ziyan dəyir. Dünyanın bir çox ölkəsində olduğu kimi, artıq Azərbaycanda da dövlət qurumları tərəfindən monitorinq və mübarizə tədbirlərinin həyata keçirilməsi bu zərərvericinin nə qədər təhlükəli olduğunu göstərir.**

Bu zərərvericinin əsas təhlükəsi yalnız yüksək məhsuldarlığında deyil, həm də müxtəlif bitkilərlə qidalanaraq ilboyu populyasiyasını qoruyub saxlamasında və yaşayış məntəqələrinə daxil olaraq insanların məişətində də narahatlıq yaratmasındadır.

Dünya təcrübəsi göstərir ki, yalnız insektisidlərdən istifadə etməklə bu zərərvericini tam nəzarət altında saxlamaq mümkün deyil. Odur ki, son illərdə dünyanın aparıcı ölkələri inteqrə olunmuş zərərvericilərin idarə edilməsi (IPM) sisteminə üstünlük verməyə başlamışdır.

İnteqrə olunmuş mübarizə sisteminin əsasını monitorinq təşkil edir. ABŞ, İtaliya və digər ölkələrdə feromon tələləri vasitəsilə zərərvericinin ilk görünmə vaxtı, populyasiya sıxlığı və yayılma istiqaməti müəyyən edilir. Əldə olunan məlumatlar elektron xəritələrə daxil edilir, risk zonaları müəyyənləşdirilir və yalnız zərurət yarandıqda kimyəvi mübarizə aparılır. Bu yanaşma həm pestisid sərfiyyatını azaldır, həm də faydalı entomofaunanın qorunmasına imkan yaradır. Son illərdə pilotsuz uçuş aparatları, avtomatik tələlər və süni intellekt texnologiyalarından istifadə etməklə monitorinq sistemləri daha da təkmilləşdirilir.

Qəhvəyi mərmər bağacığına qarşı dünyada ən perspektivli bioloji mübarizə vasitələrindən biri Samuray arısı (Trissolcus japonicus) hesab olunur. Bu kiçik ölçülü yumurta parazitoidi mənşəcə Şərqi Asiyadan olub, qəhvəyi mərmər bağacığının təbii düşmənidir. Dişi Samuray arısı öz yumurtalarını bağacığın yumurta paketlərinin içinə qoyur. Nəticədə bağacığın embrionu inkişaf etmir və onun yerinə yeni Samuray arısı çıxır. Beləliklə, zərərvericinin populyasiyası təbii yolla azalır və kimyəvi insektisidlərdən asılılıq müəyyən dərəcədə azalır.

Azərbaycanda qəhvəyi mərmər bağacığının sürətlə yayılması nəzərə alınaraq, son illərdə bu zərərvericiyə qarşı bioloji mübarizə tədbirlərinin tətbiqinə başlanılmışdır. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi və FAO-nun dəstəyi ilə Samuray arısı ölkəyə introduksiya edilmiş, laboratoriya şəraitində çoxaldıldıqdan sonra ilk sınaq buraxılışları Balakən və Zaqatala rayonlarında həyata keçirilmişdir. Bu rayonların seçilməsi təsadüfi deyil. Həmin ərazilər həm qəhvəyi mərmər bağacığının geniş yayıldığı, həm də meyvəçilik və fındıqçılığın inkişaf etdiyi bölgələr olduğuna görə bioloji mübarizənin effektivliyinin qiymətləndirilməsi üçün əlverişli hesab olunur.

Samuray arısının buraxılması xüsusi metodika əsasında aparılır. Dünya təcrübəsində ən geniş istifadə olunan üsul laboratoriyada əvvəlcədən parazitləşdirilmiş qəhvəyi mərmər bağacığı yumurta paketlərinin karton və ya plastik kartlara bərkidilərək ağacların budaqlarına



asılmasıdır. Təxminən 2-5 gün ərzində yumurtalardan yeni Samuray arıları çıxır və ətraf sahəyə yayılaraq təbii şəraitdə bağacığın yeni qoyulmuş yumurta paketlərini axtarmağa başlayırlar. Bəzi ölkələrdə isə laboratoriyada yetişdirilmiş yetkin arılar xüsusi konteynerlərdə sahəyə gətirilərək birbaşa buraxılır. Lakin yumurta kartları üsulu həm iqtisadi, həm də bioloji baxımdan daha səmərəli hesab edilir.

Samuray arısının buraxılma vaxtı onun bioloji xüsusiyyətləri ilə sıx əlaqədardır. Bu parazitoid yalnız qəhvəyi mərmər bağacığının yumurta mərhələsində inkişaf etdiyindən, buraxılış zərərvericinin kütləvi yumurta qoyduğu dövrə uyğunlaşdırılmalıdır. Mülayim iqlim şəraitində bu dövr əsasən may ayının ikinci yarısından başlayaraq avqust ayına qədər davam edir.

Samuray arısının buraxılış norması ölkənin iqlim şəraitindən, zərərvericinin sıxlığından və tətbiq olunan proqramdan asılı olaraq dəyişir. Yüksək yoluxma riski olan ərazilərdə mövsüm ərzində bir neçə təkrar buraxılış aparılması tövsiyə olunur.

Bioloji mübarizənin uğuru yalnız Samuray arısının buraxılması ilə məhdudlaşmır. Buraxılışdan əvvəl və sonra feromon tələləri vasitəsilə qəhvəyi mərmər bağacığının populyasiya sıxlığı müəyyən edilməli, sahədə tapılan yumurta paketlərində parazitləşmə faizi qiymətləndirilməlidir. Eyni zamanda Samuray arısının buraxıldığı sahələrdə geniş təsir spektrli insektisidlərin tətbiqi məhdudlaşdırılmalıdır. Əks halda, kimyəvi preparatlar yalnız zərərvericiləri deyil, həm də buraxılmış faydalı parazitoidləri məhv edə bilər və bioloji mübarizənin səmərəliliyi kəskin şəkildə azalır.

Azərbaycan üçün bu istiqamətdə görüləcək işlər təkcə Samuray arısının buraxılması ilə məhdudlaşmamalıdır. Buraxılmış populyasiyaların qışlama qabiliyyəti, təbii şəraitdə məskunlaşması, yayılma sürəti və qəhvəyi mərmər bağacığının populyasiyasına təsiri uzunmüddətli monitorinq proqramları çərçivəsində öyrənilməlidir. Əgər əldə olunan nəticələr müsbət olarsa, Samuray arısının laboratoriya şəraitində kütləvi çoxaldılması genişləndirilməli və onun Quba-Xaçmaz, Şəki-Zaqatala, Lənkəran-Astara və digər risk bölgələrində mərhələli şəkildə tətbiqi təmin edilməlidir.

Beləliklə, Samuray arısının Azərbaycanda tətbiqi qəhvəyi mərmər bağacığına qarşı ekoloji cəhətdən təhlükəsiz və uzunmüddətli mübarizə strategiyasının formalaşdırılması istiqamətində mühüm addımdır. Dünya təcrübəsi göstərir ki, bu parazitoidin inteqrə olunmuş zərərverici idarəetmə sistemi (IPM) çərçivəsində monitorinq, aqrotexniki tədbirlər və zərurət yarandıqda seçici insektisidlərin tətbiqi ilə birlikdə istifadə edilməsi ən yüksək səmərəliliyi təmin edir. Bu yanaşmanın Azərbaycanda da ardıcıl şəkildə tətbiqi qəhvəyi mərmər bağacığının iqtisadi zərərinin əhəmiyyətli dərəcədə azaldılmasına kömək edə bilər.

Bununla yanaşı, aqrotexniki tədbirlər də mühüm rol oynayır. Bağların sanitar vəziyyətinin yaxşılaşdırılması, alaq otlarının məhv edilməsi, məhsul qalıqlarının sahədən uzaqlaşdırılması, bağ kənarlarının təmiz saxlanılması və qışlama yerlərinin azaldılması zərərvericinin sayının azalmasına kömək edir. Bir sıra ölkələrdə tor örtüklərindən, tələ bitkilərindən və mexaniki toplama üsullarından da istifadə olunur. Bu tədbirlər kimyəvi mübarizənin səmərəliliyini artırır və pestisid yükünü azaldır.

Azərbaycanda qəhvəyi mərmər bağacığının yayılması ölkənin meyvəçilik və tərəvəzçilik sektorunda yeni risklər yaradır. Xüsusilə fındıq, alma, armud, şaftalı, xurma, sitrus bitkiləri, qarğıdalı, tərəvəz və digər kənd təsərrüfatı bitkilərində iqtisadi zərər ehtimalı yüksəkdir. Buna görə də yalnız mövcud mübarizə tədbirləri ilə kifayətlənmək deyil, uzunmüddətli milli strategiyanın hazırlanması vacibdir.

Bu strategiyada ilk növbədə ölkə üzrə vahid monitorinq sistemi yaradılmalıdır. Bütün iqtisadi rayonlarda feromon tələlərinin yerləşdirilməsi, nəticələrin rəqəmsal bazada toplanması və yayılma xəritələrinin hazırlanması erkən xəbərdarlıq sisteminin əsasını təşkil edə bilər. Dövlət qurumları, elmi-tədqiqat institutları və ali təhsil müəssisələri arasında məlumat mübadiləsinin gücləndirilməsi monitorinqin səmərəliliyini artıracaq.

Digər mühüm istiqamət fermerlərin maarifləndirilməsidir. Təcrübə göstərir ki, zərərvericinin biologiyasını və inkişaf mərhələlərini bilmədən aparılan mübarizə tədbirləri çox vaxt istənilən nəticəni vermir. Buna görə mütəmadi təlimlər, metodik vəsaitlər, videomateriallar və mobil tətbiqlər hazırlanmalı, fermerlərə vaxtında tövsiyələr çatdırılmalıdır.

Bundan əlavə, süni intellekt, coğrafi informasiya sistemləri (GIS), uzaqdan zondlama, pilotsuz uçuş aparatları və rəqəmsal feromon tələləri kimi müasir texnologiyaların tətbiqi Azərbaycanda zərərvericinin erkən aşkar edilməsinə və proqnozlaşdırılmasına imkan verə bilər. Bu texnologiyalar artıq dünyanın bir sıra ölkələrində uğurla tətbiq olunur və gələcəkdə fitosanitar xidmətlərin ayrılmaz hissəsinə çevriləcəyi gözlənilir.

Nəticə etibarilə, qəhvəyi mərmər bağacığına qarşı mübarizədə dünya təcrübəsi göstərir ki, ən yüksək nəticələr yalnız inteqrə olunmuş idarəetmə sistemi tətbiq edildikdə əldə olunur. Monitorinq, aqrotexniki tədbirlər, bioloji mübarizə, məqsədyönlü kimyəvi tətbiqlər, rəqəmsal texnologiyalar və fermer maarifləndirilməsi bir-birini tamamlayan komponentlər kimi həyata keçirildikdə həm məhsul itkisi azalır, həm də ətraf mühitə mənfi təsir minimuma endirilir. Azərbaycanın da bu istiqamətdə elmi əsaslara söykənən milli fəaliyyət proqramı hazırlaması və beynəlxalq təcrübədən səmərəli istifadə etməsi ölkənin fitosanitar təhlükəsizliyinin təmin olunmasına və kənd təsərrüfatının dayanıqlı inkişafına mühüm töhfə verəcək.

*Yaqub CƏFƏROV,*
*Vüsal MƏMMƏDOV,*
*ADAU-nun Bitki mühafizə kafedrasının dosentləri*





# Mədəniyyət





**• 2 Avqust Azərbaycan Kinosu Günüdür**

**Bir xalqın keçdiyi yolu bəzən tarixçilər yazır, şairlər tərənnüm edir, milyonların yaddaşına isə kino həkk edir. Çünki kino təkcə hadisələri canlandıran ekran sənəti deyil, dövrün ruhunu, insanların taleyini, xalqın sevincini, kədərini, arzu və ümidlərini, mübarizə əzmini, milli qürurunu zamanın yaddaşına köçürərək gələcək nəsillərə çatdıran mənəvi körpüdür.**

## Xalqın yaddaşı və milli ruhun ekran salnaməsi

yalnız hadisələr araşdırılmır, eyni zamanda insan xarakteri, mənəvi məsuliyyət, ədalət və həqiqət də sınaqdan keçirilir. Tamaşaçı filmin gedişində hadisələri izləməklə kifayətlənmir, özü də düşünür, mühakimə aparır. Rejissorun peşəkarlığı hər epizodda hiss olunur. Gərgin dramatizm, psixoloji dərinlik və hadisələrin məntiqi inkişafı filmin təsir gücünü artırır.

Uşaqlıq illərinin saflığını, müharibənin uşaqların dünyasına vurduğu yaraları təsirli dillə ifadə edən filmlərdən biri "Şərikli çörək"dir. Bu film çörəyin, sadəcə, qida olmadığını, zəhmətin, dostluğun, paylaşmağın və insanlığın rəmzi olduğunu göstərir. Müharibə illərinin ağır şəraitində uşaqların yaşadığı çətinliklər tamaşaçının qəlbində kövrək duyğular oyadır. Film insanın ümidini heç vaxt itirməməsinin vacibliyini təlqin edir. Burada rejissor uşaqların saf baxışları ilə bütöv bir dövrün faciəsini nümayiş etdirməyə nail olur.




Elə buna görə də Azərbaycan filmlərindən bəhs edərkən tez-tez işlədilən "kino həyatın güzgüsüdür" fikri milli kinomuzun mahiyyətini tam ifadə etmir. Azərbaycan kinosu həyatın, sadəcə, güzgüsü olmayıb, həm də xalqımızın canlı yaddaşı, milli vicdanı, mənəvi məktəbi, milli kimliyimizin keşiyində dayanan, onu nəsildən-nəslə çatdıran əvəzsiz mədəniyyət salnaməsinə çevrilib. Hər il avqustun 2-si qeyd olunan Azərbaycan Kino Günü milli yaddaşımızı yaşadan, bizi özümüzə tanıdan, nəsilləri bir-birinə bağlayan böyük sənətin bayramıdır. Heç çəkinmədən qeyd edə bilərik ki, Azərbaycan kino sənəti tarixində elə filmlər var ki, milyonlarla tamaşaçının qəlbində iz salıb, insanların düşüncəsinə təsir edib, cəmiyyətin estetik zövqünü formalaşdırıb, vətən sevgisini, mərhəməti, ədaləti, namusu və insanlıq duyğularını tərbiyə edib. Azərbaycan kinosu tariximizin hər dövrünün nəfəsi, rəngi, sözü olub. Bəzən gülüşlə düşündürüb, bəzən göz yaşları ilə insanı silkələyib, bəzən isə Vətən sevgisini ürəklərdə alovlandıran ən təsirli vasitə olub. Məhz buna görə Azərbaycan filmləri yalnız ekran əsəri deyil, xalqımızın mənəvi sərvəti, milli mədəniyyətimizin ayrılmaz hissəsidir.

Bu böyük sənət yoluna nəzər salarkən ilk yada düşən ekran incilərindən biri "Arşın mal alan" filmidir. Üzeyir bəy Hacıbəylinin eyniadlı operettası əsasında ekranlaşdırılan bu möhtəşəm əsər Azərbaycan kinosunun dünya şöhrətini təmin edən ən qiymətli filmlərdəndir. Musiqinin, yumorun, məhəbbətin və milli adət-ənənələrin ecazkar vəhdəti olan film təkcə ölkəmizdə deyil, dünyanın onlarca ölkəsində maraqla qarşılanmış, müxtəlif dillərə dublyaj olunaraq milyonlarla tamaşaçının rəğbətini qazanmışdır. Filmin rejissor işi milli koloritin bütün incəliklərini qorumaqla tamaşaçıya canlı və təbii bir mühit təqdim edir. Ekrandakı hər səhnə sanki Azərbaycan məişətinin, ailə dəyərlərinin və xalq ruhunun rəngarəng tablosuna çevrilir. Aktyorların yaratdığı obrazlar isə artıq çoxdan kino qəhrəmanı olmaqdan çıxaraq xalqın yaddaşında yaşayan doğma insanlara çevrilib. Əsgərin səmimiyyəti, Gülçöhrənin zərifliyi, Soltan bəyin özünəməxsus xarakteri, Vəlinin sadəlövhlüyü bu gün də tamaşaçıların sevgisində yaşayır.

Azərbaycan kinosunun Qızıl fonduna daxil olan ekran əsərləri arasında "Bizim Cəbiş müəllim" filmi xüsusi yer tutur. Bu film müharibənin səngərlərdə deyil, arxa cəbhədə yaşayan insanların taleyində açdığı yaraları böyük ustalıqla tamaşaçıya çatdırır. Çətinliklər, yoxsulluq, müharibənin gətirdiyi ağrı-acılar fonunda insan ləyaqətinin, vicdanın və mənəvi saflığın necə qorunduğunu nümayiş etdirən film bu gün də aktuallığını itirməyib. Rejissorun incə psixoloji yanaşması, ssenarinin həyat həqiqətlərində yoğrulması, aktyorların son dərəcə təbii oyunu filmin ən böyük üstünlüklərindəndir. Hər obraz sanki tanıdığımız, qonşuluqda, məhəllədə gördüyümüz insanlardır. Məhz buna görə də film tamaşaçını süni hadisələrlə deyil, həyatın özü ilə üz-üzə qoyur. "Bizim Cəbiş müəllim" insanın ən ağır şəraitdə belə öz mənəvi ucalığını itirməməsinin mümkün olduğunu sübut edən əsl kino məktəbidir.

Azərbaycan kinosunda insan vicdanını dərindən araşdıran ekran əsərlərindən biri də "İstintaq" filmidir. Bu kino əsəri cinayət haqqında deyil, vicdan haqqında çəkilmiş filmdir. Burada istintaq otağında

Zaman dəyişdikcə Azərbaycan kinosunun mövzuları da dəyişdi. Müstəqillik dövründə çəkilən filmlər artıq insanın daxili təlatümlərinə, cəmiyyətin sosial problemlərinə və mənəvi böhranlarına daha çox müraciət etməyə başladı. Bu baxımdan "Yarasa" filmi yeni dövr Azərbaycan kinosunun ən fərqli ekran əsərlərindən biri hesab olunur. Filmdə cəmiyyətin görünməyən tərəfləri, insan psixologiyasının qaranlıq qatları, mənəvi deqradasiya və sosial ziddiyyətlər yüksək peşəkarlıqla təqdim edilir. Burada tamaşaçı hazır cavab almır, əksinə, hər kəs öz vicdanında cavab axtarmağa məcbur olur. Rejissorun simvollardan və bədii təsvir vasitələrindən məharətlə istifadə etməsi filmi adi ekran əsərindən daha çox fəlsəfi düşüncə nümunəsinə çevirir. Bu film bir daha təsdiq edir ki, Azərbaycan kinosu yalnız hadisələri göstərmir, həm də cəmiyyətə suallar verir, insanı düşündürür və mənəvi hesabat aparmağa çağırır.

Azərbaycan kinosunda elə bir film var ki, o, illərlə ürəyimizdə qövr edən Qarabağ nisgilinin, viran qoyulmuş yurd yerlərinin, əsir düşmüş şəhərlərin, şəhid analarının göz yaşının, bütöv bir xalqın harayının bədii ifadəsinə çevrilmişdi. Bu film "Fəryad" idi. "Fəryad" ekrana çıxanda Azərbaycan torpaqları işğal altında idi. Qarabağın dağlarından yüksələn nalə, Xocalının ahı, Şuşanın sükutu, Laçının həsrəti, Kəlbəcərin nisgili hələ milyonlarla insanın qəlbində qanayan yara idi. Bu film məhz həmin yaranın səsini dünyaya çatdırmaq üçün çəkilmişdi. Filmdə əsirlik təkcə insanların əsirliyi deyildi. Burada əsir qalan torpaq idi, əsir qalan tarix idi, əsir qalan abidələrimiz, ocaqlarımız, məscidlərimiz, bulaqlarımız idi. Ən böyük əsir isə doğma yurduna qayıda bilməyən insanın ruhu idi. "Fəryad" tamaşaçıya nifrəti deyil, ədaləti öyrədirdi. O, qisas hissini kor-koranə intiqam kimi deyil, Vətən qarşısında müqəddəs borcun yerinə yetirilməsi kimi təqdim edirdi. Film göstərirdi ki, günahsız insanların tökülən qanı unudulmamalıdır, işğalla heç vaxt barışmaq olmaz, torpaq yalnız sahibinin nəfəsi ilə Vətən olur.

Bu gün "Fəryad" filminə yenidən baxanda onun təkcə bir dövrün faciəsini deyil, həm də böyük Qələbəyə aparan milli ruhun formalaşmasında oynadığı mənəvi rolu daha aydın görürük. "Fəryad" illərlə susmayan Vətənin harayı, torpağın öz övladlarını səsləyən səsi idi. Nəhayət, 2020-ci ilin payızında o haraya Azərbaycan əsgəri cavab verdi.

Bu gün biz qalib xalqıq. Dünyanı heyrətləndirən 44 günlük Vətən müharibəsinin qəhrəman əsgər və zabitləri tariximizin əfsanəvi simalarına çevriliblər. Tankın qarşısına sinəsini sipər edənlər, son damla qanına qədər döyüşənlər, üçrəngli bayrağımızı Şuşa qalasında dalğalandıranlar, şəhidlik zirvəsinə ucalaraq millətin qüruruna çevrilən igidlərimiz yeni Azərbaycan tarixini yazdılar. Onların hər biri bir filmin qəhrəmanıdır, hər biri böyük ekranlarda yaşamağa layiqdir. Müasir Azərbaycan kino sənətinin qarşısında müqəddəs bir vəzifə dayanır. Zəfəri qazanan igidlərimizin qəhrəmanlığı yüksək bədii dəyərlərə malik filmlərdə öz əksini tapmalıdır. Çünki gələcək nəsillər bu qəhrəmanları kino sənətinin qüdrəti ilə də tanımalıdır. Azərbaycan əsgəri Vətənin taleyini dəyişdi. İndi isə söz sənətində, teatrda və kinoda növbə sənət adamlarınındır. Qəhrəmanlıq həm də ekranda əbədiləşdirilməlidir. Bu, Azərbaycan kinosunun Zəfərimizi yazan igid əsgər və zabitlərimiz qarşısında mənəvi borcudur.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

**• Maral Rəhmanzadə - 110**

# İlklərə imza atan sənət fədaisi

**Azərbaycan təsviri sənət tarixinə nəzər saldıqda, təkcə fırçası ilə bütöv bir dövrün mənzərəsini, millətin ruhunu və qadın azadlığını rənglərlə dastanlaşdıran bir çox unudulmaz simalar görürük. Bu simalar arasında ilk peşəkar rəssamlıq təhsili almış azərbaycanlı qadın, Xalq rəssamı Maral Rəhmanzadənin adı xüsusi ehtiramla çəkilir.**



O, XX əsr Azərbaycan mədəniyyətinin ən parlaq və cəsarətli səhifələrindən birini yazmışdır. Zamanın çətin sınaqlarından, müharibənin ağrılı-acılı illərindən keçərək sənətinin zirvəsinə ucalan rəssam, öz yaradıcılığı ilə milli qrafika və rəngkarlıq məktəbimizə tamamilə yeni, bənzərsiz bir nəfəs gətirmişdir. Onun əsərləri, sadəcə, vizual təsvirlər deyildi, onlar Azərbaycanın neft sənayesinin qəhrəmanlıq salnaməsi, ucqar dağ kəndlərinin etnoqrafik yaddaşı, Şərq qadınının daxili qüdrətinin tərənnümü idi.

### Ömür yolu

Maral Rəhmanzadə 1916-cı ildə Bakıda (Mərdəkan qəsəbəsində), sənətə və mədəniyyətə böyük dəyər verilən bir ailədə dünyaya göz açmışdır. O dövrün mütərəqqi baxışlı, nəcib və elmli insanlarından olan rəssamın atası Yusif bəy Bakıda tanınan usta zərgərlərdən idi. Evlərində Azərbaycan sənətinin qədim ənənələri qorunur, övladlarının təhsilinə xüsusi önəm verilirdi.




Maral xanımın sənət sevgisi erkən yaşlarından özünü göstərir və bu sevgi onu Azərbaycan Dövlət Rəssamlıq Texnikumuna gətirir. 1930-1933-cü illərdə Bakıda rəssamlığın sirlərini dərindən öyrənir. İstedadı sayəsində təhsilini davam etdirmək üçün Moskvaya yollanır. 1934-1940-cı illərdə V.İ. Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutunda oxuyur. O, bu ali təhsil ocağını bitirməklə professional ali rəssamlıq təhsili qazanmış ilk azərbaycanlı qadın rəssam kimi tarixə düşür. Rektor İqor Qrabar onu "məzunların ən istedadlısı" adlandırır və o, dərhal paytaxtın məşhur "Xudojestvennaya literatura" nəşriyyatında qrafik rəssam kimi fəaliyyətə başlayır. Lakin gənc qızın uğurları tezliklə ailəsinin üzərinə çökən qara buludlarla kölgələnir.

Azərbaycan incəsənətinin zirvələrindən olan Xalq rəssamı Maral Rəhmanzadənin tablolarındakı parlaq rənglərə, məğrur qadın obrazlarına və əzəmətli dəniz mənzərələrinə baxanda insan bu əsərlərin arxasında dərin bir ailə faciəsinin dayandığını təsəvvür edə bilmir. O, sənətdə böyük ilklərə imza atsa da, şəxsi taleyi XX əsrin ən amansız siyasi dalğaları - Stalin repressiyaları və İkinci Dünya müharibəsinin ağrıları ilə yoğrulmuşdur. Böyük ustadın ömür yolunun ən ağrılı, lakin onun iradəsini daha da möhkəmləndirən ailə salnaməsi zərif bir qadının imperiya qorxusuna meydan oxuyur.

1941-ci ildə rəssamın mütərəqqi düşüncəli atası Yusif Rəhmanzadə heç bir günahı olmadan şərlənərək həbs edilir və ona "xalq düşməni" damğası vurulur. Həbs edildikdən sonra Özbəkistana - Daşkənd həbsxanasına sürgün edilən Yusif bəy buradakı ağır və dözülməz şəraitə cəmi 6 ay tab gətirə bilir və orada vəfat edir. Atasının həbsi xəbərini alan Maral xanım Moskvadakı parlaq gələcəyini, vəzifəsini və işini dərhal buraxıb Bakıya qayıdır. O, ailənin böyük övladı kimi evdə tək qalan anasına baxmaq və ailənin qayğılarını çiyinlərinə götürmək məsuliyyəti ilə üz-üzə qalır. Bitməyən sınaqlar onun həyat yolunda böyük maneələrə çevrilir. Bakıya qayıdan gənc rəssamın yaradıcılıq fəaliyyəti repressiya olunmuş ailənin övladı olduğu üçün böyük təzyiqlər altında keçirdi. Üstəlik, elə həmin il İkinci Dünya müharibəsinin başlaması onun şəxsi həyatına növbəti ağır zərbəni vurur.

Maral xanım Moskvada oxuduğu illərdə ailə həyatı qurmuşdu. Lakin müharibə alovlananda gənc həyat yoldaşı evliliklərindən cəmi bir həftə sonra cəbhəyə səfərbər olunur və geri qayıtmır. Buna müharibə və itirilmiş səadət də deyirlər. Beləcə, gənc rəssam həm ata itkisinin, həm də gənc yaşda tənha qalmağın dərin psixoloji acısını yaşayır. Ailəni dolandırmaq üçün fədakarlıq göstərir. O dövrdə "xalq düşməni"nin qızı kimi damğalanan rəssam rəsmi sifarişlər ala bilmirdi. Gecə-gündüz qəzet və jurnallara kiçik illüstrasiyalar çəkməklə, vərəqələr hazırlamaqla həm yaradıcılığını qoruyur, həm də ailəsini acından ölməkdən xilas edirdi. Atasından bəhs edərkən Maral Rəhmanzadə illər sonra öz xatirələrində yazırdı: "Deyirlər qız övladları anaya daha bağlı olur. Amma yox, mən atamı çox sevirdim. İndi də siması gözlərimin önündədir. Baxmayaraq ki, repressiyanın qurbanı olub, aradan 60 ildən artıq vaxt keçib, hərdən mənə elə gəlir ki, lap yanındayam".



### Əbədi yaşayan miras

Maral Rəhmanzadə Azərbaycan təsviri sənətinə sənaye mövzusunu, xüsusilə də dəniz neftçilərinin fədakar əməyini gətirən ilk rəssamlardandır. O, aylarla açıq dənizdə, məşhur "Neft Daşları"nda yaşamış, fəhlələrin ağır, lakin qürurlu iş rejimini müşahidə etmişdir. "Bizim Xəzərdə" silsiləsində çəkdiyi əsərlərində dalğalar qoynunda ucalan estakadalar, qazma qurğuları və dəniz sənayesinin əzəməti əks olunur. Tablolarında neftçilər, sadəcə, işçi deyil, təbiət qüvvələrinə meydan oxuyan romantik qəhrəmanlar kimi canlandırılır. "Sabunçuda neft mədəni" və "İliç buxtasında neft" əsərləri bu janrın ən parlaq nümunələridir.

Rəssamın erkən yaradıcılıq dövrünün ən mühüm fəlsəfəsi Azərbaycan qadınının cəmiyyətdəki yerini və təkamülünü göstərmək olmuşdur."Azərbaycan qadını keçmişdə və indi" adlı litoqrafiya silsiləsində müəllif çadradan azad olub elmin, sənətin, sənayenin zirvələrinə ucalan çağdaş Azərbaycan qadınının portretini yaradıb. "Qadınlar müharibə illərində" silsiləsində isə arxa cəbhədə kişi əməyini əvəz edən, dözümlü və məğrur Azərbaycan qadınlarının obrazı böyük psixoloji dərinliklə işlənmişdir.

Maral Rəhmanzadə Azərbaycanın təbiət gözəlliklərini və etnoqrafik zənginliyini sənətə köçürmək üçün bölgələrimizi qarış-qarış gəzmişdir. 1963-cü ildə o, gediş-gəlişi çox çətin olan Qubanın ucqar Xınalıq kəndinə gedən ilk rəssam olmuşdu. Buranın unikal memarlığı, sıldırım qayaları və yerli əhalinin qədim həyat tərzi rəssamın fırçasında əbədilik qazandı. "Bizim qızlar", "Mənim bacılarım" və "Doğma vətənim" silsilələri Azərbaycan kəndinin, Naxçıvanın, Lənkəranın füsunkar təbiətini, insan və mühit vəhdətini nümayiş etdirir.

Təkcə kətan üzərində deyil, həm də kitab səhifələrində böyük iz qoyan sənətkar Azərbaycan və dünya ədəbiyyatının klassik nümunələrinə bənzərsiz illüstrasiyalar çəkmişdir. Nizami Gəncəvinin poemalarına, Xurşidbanu Natəvanın qəzəllərinə və "Min bir gecə" nağıllarına verdiyi bədii tərtibatlar kitab qrafikası sənətimizin Qızıl fonduna daxil olub. M.S.Ordubadinin "Qılınc və qələm", M.F.Axundzadənin "Aldanmış kəvakib", A.S.Puşkinin "Yevgeni Onegin" və M.Y.Lermontovun "Zəmanəmizin qəhrəmanı" əsərlərinə illüstrasiyaları da bu janrın qiymətli örnəklərindəndir. Eləcə də, 1945-ci ildə tərtibat verdiyi Şah İsmayıl Xətainin "Dəhnamə" kitabındakı illüstrativ materiallar Maral Rəhmanzadənin həm rəssamlıq, həm də ədəbiyyat tarixindəki çox böyük və nadir xidmətlərindəndir.

Görkəmli rəssamın sənəti çoxşaxəli, çoxcəhətli bir yaradıcılıq kimi daim diqqəti cəlb edir. O, rəssamlıq sənətinin demək olar ki, mümkün olan bütün qollarında, istiqamətlərində, önəmli sahələrində ölməz əsərlər yaratmışdır. Tədqiqatçılar yazırlar ki, cağdaşları hələ 24 yaşında ikən onu "dahi" adlandırırdılar. Öz intellekti, istedadı, kübarlığı ilə hamını heyran qoyan sənətkar əsərləri ilə sübut etmişdi ki, fırçanı əlinə təsadüfən götürməyib. Çünki Maral Rəhmanzadə Bəhruz Kəngərli, Əzim Əzimzadə kimi köklü sənət şəcərəsindən idi.

Görkəmli sənət ustadı M.Rəhmanzadə 1964-cü ildə Azərbaycanın Xalq rəssamı adına layiq görülüb. Milli təsviri sənətin inkişafındakı böyük nailiyyətlərinə görə "Qırmızı Əmək Bayrağı", "Şərəf nişanı" ordenləri, həmçinin bir sıra medallarla, eləcə də müstəqillik illərində, 1996-cı ildə "Şöhrət" ordeni ilə təltif edilib, Prezidentin fərdi təqaüdçüsü olub.

2008-ci ildə dünyasını dəyişən Maral Rəhmanzadənin yaratdığı bədii irs bu gün, sadəcə, muzeyləri bəzəyən eksponat deyil, Azərbaycan xalqının milli kimliyini, zəhmətsevərliyini və estetik zövqünü dünyaya tanıdan gerçək bir yaddaş kitabəsidir. Böyük sənətkarımız haqqında gerçəkləri danışan, onun həyat həqiqətini bütün çalarları ilə canlandıran isə rəssamın ömür dəftəri sayılan, bir-birindən rəngarəng, dərinməzmunlu əsərləridir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# "Zülfüqar - 2026" birgə taktiki təlimi başa çatıb





**İordaniyada Azərbaycan, Pakistan, Türkiyə və bu ölkənin xüsusi təyinatlı bölmələrinin iştirakı ilə keçirilən "Zülfüqar - 2026" birgə taktiki təlimi yekunlaşıb.**

Müdafiə Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, təlimin "Yüksək Səviyyəli Müşahidəçi Günü"ndə İordaniya Haşimilər Krallığının vəliəhdi şahzadə II Əl-Hüseyn bin Abdullah da qatılıb.

Birgə taktiki təlimin əsas məqsədi iştirakçı ölkələrin xüsusi təyinatlı bölmələri arasında qarşılıqlı fəaliyyətin gücləndirilməsi, peşəkar bilik və bacarıqların təkmilləşdirilməsi, eləcə də təcrübə mübadiləsinin genişləndirilməsi olub.

Təlimin rəhbərliyi ilə birlikdə tədbirin yekun mərhələsini izləyən Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrin komandanı general-mayor Ələkbər Cahangirov xüsusi təyinatlılarımızın peşəkarlığını və hazırlıq səviyyəsini yüksək qiymətləndirib.


OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" qəzetinə abunə yazılışı davam edir!

Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

1 illik -156 (yüz əlli altı) manat
6 aylıq - 78 (yetmiş səkkiz) manat
3 aylıq - 39 (otuz doqquz) manat
1 aylıq - 13 (on üç) manat


AZƏRBAYCAN
Nüfuz artır, mövqe möhkəmlənir
Rəqəmsal dünyanın yeni qaydalarında medianın rolu necə dəyişir
Prezident İlham Əliyev Qırğızıstanda dövlət səfərindədir
Çolpon-Ata şəhərinin İssık-Kul Beynəlxalq Hava Limanında qarşılanma
Biz tarixi köklərə və xoş ənənələrə əsaslanan Azərbaycan-Mərakeş münasibətlərinə xüsusi əhəmiyyət veririk
Azərbaycan-Qırğızıstan münasibətləri dostluğun nümunəsidir
Azərbaycan bu gün həm də idman sahəsində öndədir
1997-ci il iyulun 31-də İlham Əliyev Milli Olimpiya Komitəsinin Prezidenti seçilmişdir
Dövlət proqramı aqrar təhsil qarşısında yeni vəzifələr qoyur

Hörmətli oxucular!

Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.


# Ukrayna Patriot raketlərinin istehsalına icazə alacaqmı?

## Donald TRAMP: "Biz bunu araşdırırıq"



ABŞ Prezidenti Donald Tramp Böyük Britaniyanın "Financial Times" qəzetinə verdiyi telefon müsahibəsində Ukraynaya Patriot zenit sistemləri üçün raketlər istehsal etməyə icazə verib-verməyəcəyindən "əmin olmadığını" bildirib. Nəşrin məlumatına görə, o deyib ki, "biz bunu araşdırırıq".

ABŞ-nin patriot raketlərinin istehsalı üçün lisenziyaların verilməsi vədi iyulun əvvəlində D.Trampın Türkiyədə keçirilən NATO sammiti çərçivəsində Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşünə təsadüf edir. Ukrayna liderinin sözlərinə görə, Vaşinqtonda keçirilən görüşdə bu məsələni müzakirə ediblər.

"Bunlar tamamilə müstəsna silahlardır və kimə lisenziya verdiyimiz barədə daha diqqətli olmalıyıq. Əslində avadanlıqlara lisenziya vermirik", - Tramp qəzetə verdiyi müsahibədə belə deyib.

V.Zelenski ABŞ Prezidenti ilə son görüşünü "yaxşı" adlandırıb və "Patriot zenit raketlərinin istehsalı və bir neçə başqa ideya"nı müzakirə etdiklərini bildirib. Ukrayna Prezidentinin dediyinə görə, "Tramp bizə lisenziya vermək təklifini qəbul edib".

Patriot sistemləri Kiyevə və digər şəhərlərə yönəlmiş Rusiya ballistik raketlərini ələ keçirmək üçün çox vacibdir. Nəşrin şərhində deyilir ki, Trampı Kiyevin bu raketləri istehsal etməsinə icazə verməyə inandırmaq Zelenski üçün əhəmiyyətli bir nailiyyət olub.

D.Tramp həmçinin Britaniya nəşrinə bildirib ki, xüsusi elçiləri Stiv Uitkoff və Cared Kuşner yaxın günlərdə Ukraynaya səfər edəcəklər. Bu, onların Moskvada Rusiya Prezidenti Vladimir Putinlə bir neçə görüşdən sonra Kiyevə ilk səfəri olacaq.

"Sadə dillə desək, biz Ukrayna və Rusiya arasında müharibənin bitməsini istəyirik. Mənə raketlər lazım deyil. Bizə sülh lazımdır", - deyə ABŞ lideri bildirib.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Bilmək istəyirəm

**Çoxmənzilli binada mənzili ofisə çevirmək olarmı?**

*Nəriman BAĞIROV,*
*Bakı şəhəri*

- Sualınıza cavab olaraq bildiririk ki, mənzili rəsmi şəkildə qeyri-yaşayış sahəsinə keçirmədən orada genişmiqyaslı kommersiya məqsədli (ticarət və ya ictimai ofis) fəaliyyəti göstərmək qanunsuzdur.

Çoxmənzilli binada mənzili ofis kimi istifadə etmək mümkündür, lakin bunun üçün qanunvericiliklə müəyyən edilmiş xüsusi hüquqi şərtlər və prosedur mövcuddur.

Mənzil Məcəlləsinin 14.1-ci maddəsinə görə, yaşayış sahəsinin əsas təyinatı həmin sahədə insanların yaşamasıdır. Məcəllənin 14.2-ci maddəsinin tələbinə əsasən, yaşayış sahəsində qanuni əsaslarla yaşayan fiziki şəxslərə həmin yaşayış sahəsindən peşə fəaliyyətini və ya fərdi sahibkarlıq fəaliyyətini həyata keçirmək məqsədilə istifadəsinə yol verilir o şərtlə ki, bu, digər şəxslərin hüquqlarını və qanuni mənafelərini, habelə yaşayış sahəsi üçün müəyyən edilmiş tələbləri pozmasın.

Bunun üçün 3 əsas şərt eyni anda ödənilməlidir:

1. Şəxsin həmin mənzildə qanuni əsaslarla yaşamaq hüququ olmalıdır.
2. Bu fəaliyyət digər vətəndaşların (qonşuların) hüquqlarını və qanuni mənafelərini pozmamalıdır.
3. Mənzillərin yerləşdiyi sahəyə dair yanğın təhlükəsizliyi, sanitariya-gigiyena və ekoloji tələblər pozulmamalıdır.

Xüsusilə nəzərə alınmalıdır ki, qeyd olunan istisna hallar peşə və ya fərdi sahibkarlıq fəaliyyətini həyata keçirmək məqsədi daşısa da mənzildə kütləvi insan axını yaratmayan, səs-küy salmayan fərdi fəaliyyətlərə aiddir. Əgər fəaliyyət işçilərin gündəlik gəlib-getdiyi, müştərilərin qəbul olunduğu bir ofis kimi həyata keçiriləcəksə o zaman yaşayış sahəsini qeyri-yaşayış sahəsinə keçirmək zəruridir.

Mənzil Məcəlləsinin 20.1-ci maddəsinə əsasən, yaşayış sahəsinin qeyri-yaşayış sahəsinə keçirilməsinə Mənzil Məcəlləsinin və şəhərsalma haqqında qanunvericiliyin tələblərinin nəzərə alınması şərti ilə yol verilir.

Əgər yaşayış sahəsindən qeyri-yaşayış sahəsinə keçirilən sahəyə gediş-gəliş yaşayış sahələrinə gediş-gəlişi təmin edən sahələrdən istifadə etmədən mümkün olmadıqda və ya belə gediş-gəlişi qurmağa texniki imkan olmadıqda, keçirilən sahə eyni zamanda, mənzilin tərkib hissəsi kimi qaldıqda, yaxud həmin sahənin mülkiyyətçisi və ya başqa şəxs tərəfindən daimi yaşayış yeri kimi istifadə edildikdə, habelə keçirilən sahəyə mülkiyyət hüquqları digər şəxslərin hüquqları ilə yüklü edilmiş olduqda (xeyrinə yüklülük qeydə alınmış şəxslərin yazılı razılığı olduğu hallar istisna olmaqla), yaşayış sahəsinin qeyri-yaşayış sahəsinə keçirilməsinə yol verilmir.

Mənzil Məcəlləsinin 20.3-cü maddəsinin tələbinə görə, çoxmənzilli binalarda mənzillərin qeyri-yaşayış sahələrinə keçirilməsinə o halda yol verilir ki, belə mənzil həmin binanın birinci mərtəbəsində yerləşsin. Digər mərtəbədə yerləşən mənzilin qeyri-yaşayış sahəsinə keçirilməsinə qeyri-yaşayış sahəsinə keçirilən mənzilin bilavasitə altında yerləşən sahələrin yaşayış sahələri olmadığı hallarda yol verilir.

Beləliklə, mənzilin qeyri-yaşayış sahəsinə (tamhüquqlu ofisə) çevrilməsi üçün aşağıdakı zəruri tələblər nəzərə alınmalıdır:

1. Mənzilin bina sakinlərinin istifadə etdiyi ümumi blokdan (pilləkən) asılı olmayan müstəqil girişi olmalı və ya belə bir girişin tikilməsi üçün texniki imkan mövcud olmalıdır.
2. Bir qayda olaraq, yalnız 1-ci mərtəbədə yerləşən mənzillər qeyri-yaşayış sahəsinə keçirilə bilər. Əgər mənzil 2-ci və ya daha yuxarı mərtəbədədirsə, onun birbaşa altında yerləşən bütöv sahə də qeyri-yaşayış sahəsi olmalıdır.
3. Mənzil mülkiyyətçisinin hüquqları üçüncü şəxslərin xeyrinə məhdudlaşdırılıbsa (məsələn, mənzil ipotekadadırsa) və ya mənzilə həbs qoyulubsa, qeyri-yaşayış sahəsinə keçirilməsinə icazə verilmir.

Mənzilin qeyri-yaşayış sahəsinə keçirilməsi prosesi Mənzil Məcəlləsinin 21-ci maddəsində nəzərdə tutulan qaydada həyata keçirilir.

Unutmaq olmaz ki, mənzilin qeyri-yaşayış sahəsinə keçirilmədən ondan Mənzil Məcəlləsinin 14.2-ci maddəsinin tələblərindən kənar formada ofis kimi istifadə edilməsi mənzil qanunvericiliyinin pozulmasına dəlalət edir və bu hərəkət İnzibati Xətalar Məcəlləsinin 393-1-ci maddəsi ilə nəzərdə tutulmuş inzibati xəta tərkibini yaradır.

**Sualı cavablandırdı:**
**Paşa SƏFƏROV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**

# Ermənistan vətəndaşlarının şikayətləri üzrə apellyasiya məhkəməsində hakimlər kollegiyası müşavirəyə gedib



**İyulun 31-də Bakı Apellyasiya Məhkəməsində Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə və digər çoxsaylı cinayətlərə görə Bakı Hərbi Məhkəməsi tərəfindən barələrində ittiham hökmü çıxarılmış Ermənistan Respublikası vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin apellyasiya şikayətləri üzrə məhkəmə baxışı davam etdirilib.**

AZƏRTAC xəbər verir ki, Bakı Apellyasiya Məhkəməsinin hakimləri Elmar Rəhimovun sədrliyi, Emin Mehdiyev və Mehriban Qarayevanın (ehtiyat hakim Əli Məmmədov) iştirakı ilə keçirilən məhkəmə iclasında barələrində cinayət işi üzrə apellyasiya icraatı aparılan şəxslərin hər biri bildikləri dillərdə - erməni və rus dillərində tərcüməçi, habelə müdafiələrinin təmin olunması məqsədilə vəkillərlə təmin edilib.

Məhkəmə iclasında zərərçəkmiş şəxslərin nümayəndələri, dövlət ittihamını müdafiə edən prokurorlar - Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Abbas Abbaslı, həmin idarənin şöbə prokurorları Anar Ələkbərov və Sevinc Qasımova iştirak ediblər.

Məhkəmə iclasının əvvəlində məlumat verilib ki, prosesdə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının nümayəndəsi də müşahidəçi qismində iştirak edir.

Məhkəmə təqsirləndirilən şəxslərin replikası ilə davam etdirilib.

Təqsirləndirilən Bako Sahakyan replika hüququndan istifadə edərək çıxışı davam etdirib. O, birinci instansiya məhkəməsinin hökmünün ləğv edilməsini və barəsində bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib.

Digər təqsirləndirilən şəxslər Vasili Beqlaryan, Arkadi Qukasyan, Levon Mnatsakanyan, Madat Babayan, Qurgen Stepanyan, David Manukyan, Davit İşxanyan, David Babayan, Melikset Paşayan, Qarik Martirosyan, Davit Allahverdiyan, Levon Balayan və Erik Qazaryan, eləcə də onların bəzilərinin müdafiəçiləri də replika hüququndan istifadə edərək ittiham tərəfinin çıxışlarına münasibət bildiriblər.

Müdafiəçilər əsasən hüquqlarını qoruduqları şəxslər barəsində birinci instansiya məhkəməsinin hökmünün ləğv edilməsini və bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş ediblər. Təqsirləndirilən şəxslər isə öz arqumentlərini diqqətə çatdıraraq ittiham olunduqları əməllər üzrə özlərini təqsirli bilmədiklərini qeyd ediblər. Bununla da bütün təqsirləndirilən şəxslərin replika hüququndan istifadə hüququ başa çatıb.

Daha sonra zərərçəkmiş şəxslərin nümayəndələri çıxış edərək birinci instansiya məhkəməsinin hökmünün qanuni və əsaslı olduğunu, iş üzrə bütün faktların məhkəmə araşdırması zamanı sübuta yetirildiyini bildiriblər. Bu səbəbdən onlar həmin hökmün dəyişdirilmədən qüvvədə saxlanılmasını məhkəmədən xahiş ediblər.

Ardınca söz dövlət ittihamını müdafiə edən prokurorlara verilib.

Onlar qeyd ediblər ki, birinci instansiya məhkəməsinin hökmü qanuni və əsaslıdır, təqsirləndirilən şəxslərin apellyasiya şikayətlərində göstərilən dəlillər isə onun ləğvi və ya dəyişdirilməsi üçün əsas yaratmır. Bu səbəbdən apellyasiya şikayətlərinin təmin edilməməsini və hökmün dəyişdirilmədən saxlanılmasını xahiş ediblər.

Məhkəməyə sədrlik edən hakim Elmar Rəhimov verilmiş apellyasiya şikayətləri üzrə məhkəmə baxışının başa çatdığını elan edib. Məhkəmə kollegiyası qərar qəbul etmək üçün müşavirəyə gedib.

Xatırladaq ki, Bakı Hərbi Məhkəməsinin 2026-cı il 5 fevral tarixli hökmünə əsasən, Arayik Harutyunyan, Levon Mnatsakanyan, David Manukyan, Davit İşxanyan və David Babayan ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum ediliblər. Arkadi Qukasyan və Bako Sahakyan 20 il, Madat Babayan və Melikset Paşayan 19 il, Qarik Martirosyan 18 il, Davit Allahverdiyan və Levon Balayan 16 il, Vasili Beqlaryan, Qurgen Stepanyan və Erik Qazaryan isə 15 il müddətinə azadlıqdan məhrum ediliblər.

# ALLAH RƏHMƏT ELƏSİN!

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədova əzizi

**ZAKİR KƏRİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əməkdar elm xadimi Vaqif Şadlinski ailəsi ilə birlikdə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədova əzizi

**ZAKİR KƏRİMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Azərenerji" ASC-nin rəhbərliyi və kollektivi Əli Məmmədova və Sahib Məmmədova əzizləri

**ZAKİR KƏRİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Auditorlar Palatasının rəhbərliyi və kollektivi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədova əzizi

**ZAKİR KƏRİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədova əzizi

**ZAKİR KƏRİMOVUN**

vəfatından kədərləndikərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi İlqar Musayev və xidmətin kollektivi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədova əzizi

**ZAKİR KƏRİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədova əzizi

**ZAKİR KƏRİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidmətinin rəhbərliyi və kollektivi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədova əzizi

**ZAKİR KƏRİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

***Bakı şəhəri Nəsimi rayonu 15 saylı orta məktəbi (indiki Bakı Slavyan Universitetinin nəzdində məktəb-lisey kompleksi) 2000-ci ildə bitirmiş Rəna Nəriman qızı Kazımovanın (Cəbrayılova) adına verilmiş A N-448157 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.***


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3230
Sifariş 951

Qiyməti 60 qəpik